RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 245 (9124) CÜMƏ, 11 noyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan xalqı, gələcək nəsillər bu şanlı Qələbə ilə fəxr edəcəklər

◆ Prezident İlham Əliyevin Füzuliyə və Şuşaya səfəri

### Prezident İlham Əliyev Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə iştirak edib



**Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlət başçısı hərbçilər qarşısında çıxış edib.**

→ 2-3

Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri

## Səmərqənd Beynəlxalq Hava Limanında qarşılanma

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak etmək üçün noyabrın 10-da Özbəkistan Respublikasına səfər edib.



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Səmərqənd Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşıladılar.



## Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır



Müzəffər Ali Baş Komandan İlham Əliyev "N" saylı hərbi hissədə yaradılan şəraitlə tanış olub

→ 4

## Azərbaycan Avropa Olimpiya ailəsində həmrəyliyə böyük töhfə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Avropa Olimpiya Komitələrinin prezidenti və Yunanıstan Olimpiya Komitəsinin prezidenti Spiros Kapralosu qəbul edib.



→ 4

## Prezident İlham Əliyev 8 Noyabr - Zəfər Günü münasibətilə paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 Noyabr - Zəfər Günü münasibətilə rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.

AZƏRTAC fotonu təqdim edir.




## Prezident İlham Əliyev Dövlət Bayrağı Günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 9 Noyabr - Dövlət Bayrağı Günü ilə əlaqədar rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.




AZƏRTAC fotonu təqdim edir.

## Birinci vitse-prezident Mehriban Əliyeva Zəfər Günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Zəfər Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Zəfər Gününüz mübarək! Allah Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə rəhmət eləsin. Uca Tanrı doğma Azərbaycanımızı daim qorusun!"



## Birinci vitse-prezident Mehriban Əliyeva Dənizkənarı Milli Parkdakı bayram konserti ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Dənizkənarı Milli Parkdakı bayram konserti ilə bağlı rəsmi instaqram hesabında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Möhtəşəm! Əziz həmvətənlər, bir daha hər birinizi ürəkdən təbrik edirəm!"



## Birinci vitse-prezident Mehriban Əliyeva Dövlət Bayrağı Günü münasibətilə paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə rəsmi instaqram hesabında foto paylaşıb.

AZƏRTAC fotonu təqdim edir.



## Prezident İlham Əliyevin Füzuliyə və Şuşaya səfəri

# Azərbaycan xalqı, gələcək nəsillər

## Prezident İlham Əliyevin çıxışı





- Əziz hərbçilər.

Mən sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm.

İlk növbədə, xahiş edirəm ki, Vətən uğrunda həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini birdəqiqəlik sükutla yad edək.

❖ ❖ ❖

Şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olundu.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Alınmaz qala sayılan Şuşanı iki il bundan əvvəl erməni işğalından azad edən Azərbaycan Silahlı Qüvvələri şanlı tarix yazdı. Bu şanlı tarix bizimlə əbədi olacaq. Azərbaycan xalqı, gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəklər.

Şuşa həqiqətən alınmaz qala sayılırdı. Şuşanı yüngül silahlarla təchiz edilmiş qəhrəman hərbçilərimiz azad edəndə onlar ölümə gedirdilər. Vətən uğrunda, torpaq uğrunda ölümə gedirdilər. Hər birimiz yaxşı anlayırdıq ki, Şuşasız bizim tam qələbəmiz mümkün olmayacaq.

Müharibə dövründə çoxsaylı müsahibələrdə mən müharibənin gedişatı ilə bağlı bəzi məqamları açıqlayırdım. Təbii ki, hər şeyi deyə bilmirdim. Xüsusilə gələcək planlar haqqında bir çox şeyləri deyə bilmirdim. Verilən suala cavab olaraq cəmi bir dəfə demişdim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq. Əminəm, Azərbaycan xalqı yaxşı anladı ki, bizim son məqsədimiz, müharibənin son məqsədi Şuşanı işğaldan azad etməkdir. Təkcə ona görə yox ki, Şuşa Qarabağın tacıdır. Ona görə yox ki, Şuşanın strateji yerləşməsi faktiki olaraq onun azad olunmasından sonra müharibənin taleyini həll edirdi. O cümlədən ona görə ki, Şuşa Azərbaycan xalqının ürəyidir, canıdır, hər bir azərbaycanlı üçün müqəddəs yerdir. Hər dəfə Şuşada olarkən, - mən son iki il ərzində Şuşada on dəfədən çox olmuşam, - hər dəfə Zəfər yolu ilə Şuşaya yaxınlaşarkən mən və əminəm ki, hər bir insan bir daha hərbçilərimizin qəhrəmanlığını, fədakarlığını, peşəkarlığını görür. Çünki Zəfər yolu adlandırdığımız yol cəmi iki ilə yaxındır ki, çəkilib. Qəhrəman övladlarımız dağlardan, meşələrdən, dərələrdən, cığırlardan bu uzun məsafəni qət edərək, qanlı döyüşlərdə düşməni məğlub edərək Şuşaya yaxınlaşıb. Ondan sonra sıldırım qayalara dırmaşaraq, yüngül silahlarla küçə döyüşlərində, şəhər döyüşlərində, əlbəyaxa döyüşlərdə düşməni məğlub edib, torpağımızdan qovub, üçrəngli bayrağımızı Şuşada qaldırıb. Bu tarixi gündən cəmi iki il keçib və iki il ərzində bir çox hadisələr baş verib. İllər keçdikcə hərbçilərimizin qəhrəmanlığı hər kəs üçün daha bariz şəkildə aydın olacaq.

Şuşaya gedən yol 27 sentyabr tarixində başlamışdır. Müharibənin ilk günündən son gününə qədər Azərbaycan Silahlı Qüvvələri yalnız irəli gedirdi, 44 gün ərzində bir gün də geri addım atmamışdı. Halbuki biz dünya hərb tarixindən bilirik ki, belə çətin müharibələrdə, xüsusilə bizim üçün əlverişsiz relyef şəraitində gedən müharibələrdə manevrlər də olur, geriyə addımlar da olur və gözlənilməz hadisələr də olur. Ancaq bizi Qələbəyə aparan güclü iradə idi, Vətən sevgisi idi, hərbçilərimizin peşəkarlığı idi. Sentyabrın 27-də - müharibənin birinci günündə altı kənd azad olunanda Azərbaycan xalqı daha da inandı ki, biz istədiyimizə nail olacağıq, tarixi missiyamızı yerinə yetirəcəyik.

Biz 44 gün ərzində yalnız irəli gedirdik. Şuşaya qədər bir çox şəhər və kəndlərimiz, o cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı, Suqovuşan, 300-ə yaxın kənd, Laçının və Kəlbəcərin bir hissəsi döyüş meydanında azad edilmişdir. Şuşanın azad edilməsi Ermənistan ordusunun belini qırdı. Faktiki olaraq, müharibənin ilk günlərindən Ermənistan təşviş içində idi, bəzi hallarda panikaya qapılırdı, isterikaya qapılırdı. Məhz buna görə də Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur, onların özlərinin etirafıdır. Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın yüksək mənəvi keyfiyyətlərindən xəbər verir. Hərbçilərimiz ölümə gedirdilər, "öldü var, döndü yoxdur" şüarı ilə döyüşlərə gedirdilər, bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın qəhrəmanlığıdır və onu göstərir ki, elə gözəl gənc nəsil yetişdi ki, onların bir çoxları Qarabağı, Zəngəzuru heç vaxt görməmişdilər, televiziyalarda, fotoşəkillərdə, valideynlərin, böyüklərin söhbətlərində bu müqəddəs torpağa yaxınlaşırdılar. Ancaq onlar gəldilər və xalqımızın tarixi missiyasını şərəflə yerinə yetirdilər.

Qələbəyə gedən yol keşməkeşli və çətin idi. Birinci Qarabağ müharibəsindəki məğlubiyyət xalqımızı mənəvi cəhətdən sarsıtmışdır. O məğlubiyyətin də səbəbləri bəllidir. O vaxt antimilli ünsürlər hakimiyyəti zəbt etmişdilər, hakimiyyət uğrunda mübarizə aparmışdılar, Şuşa kimi alınmaz qalanı faktiki olaraq Ermənistana, ermənilərə təslim etmişdilər hakimiyyətə gəlmək üçün və belə də oldu. Şuşa və Laçın işğala məruz qalandan bir ay sonra AXC-Müsavat cütlüyü hakimiyyətə gəldi. Onlar bu faciə üzərində, tökülən bu qan üzərində, milli rəzalət üzərində hakimiyyətə gəldilər və hakimiyyətdə qaldıqları bir il ərzində ölkəmizi bərbad vəziyyətə qoydular, vətəndaş müharibəsinə start verdilər, öz əsgərlərini əsir götürdülər. Torpaqlar əldən gedirdi, onlar isə talançılıq, soyğunçuluqla məşğul olurdular. Hakimiyyəti möhkəmləndirmək üçün bütün səylərini səfərbər etmişdilər.

Yəni Birinci Qarabağ müharibəsində məğlubiyyət labüd idi. Çünki antimilli hakimiyyət müharibədə qələbə qazana bilməz. İşğal dövründə Ermənistanın rəsmi təbliğatı, onların havadarlarının media resursları bir fikri bütün dünyaya, eyni zamanda Azərbaycan xalqına bildirməyə çalışırdı ki, Azərbaycan öz ərazi bütövlüyünü heç vaxt müharibə yolu ilə bərpa edə bilməz. Beynəlxalq qurumların nümayəndələrinin, bu məsələ ilə məşğul olan ölkələrin vəzifəli şəxslərinin çıxışlarına baxmaq kifayətdir. Onlar neçə dəfə demişdilər ki, bu müharibənin, bu münaqişənin hərbi həlli yoxdur. Yəni birincisi, bizi inandırmağa çalışırdılar. İkincisi, bizi məsələni hərbi yolla həll etməkdən çəkindirməyə çalışırdılar. Biz də təbii ki, çalışırdıq bu məsələ sülh yolu ilə həll olunsun, ancaq həll olunsun. Amma biz görürdük ki, sadəcə olaraq danışıqlar taktikası məsələnin dondurulmasına aparır və əlbəttə ki, bununla heç vaxt razı ola bilməzdik.

Nəhayət, Azərbaycan xalqı bir yumruq kimi birləşərək tarixi missiyasını yerinə yetirdi. Müharibəyə gedən yol bir çox istiqamətlərdən keçmişdir. İlk növbədə, biz özümüz ordumuzu lazımi silahlar və texnika ilə təchiz etməli idik. Bunun üçün də güclü iqtisadiyyat olmalı idi. Azərbaycan müstəqilliyi əldə edəndə bizim maliyyə, iqtisadi vəziyyətimiz çox ağır idi. Ona görə güclü iqtisadiyyatın yaradılması müharibədə Qələbənin qazanılması işində önəmli amil kimi nəzərə alınırdı və biz bunu etdik. Bizim iqtisadiyyatımız gücləndi, biz öz hesabımıza yaşayırıq, heç kimin yardımına ehtiyacımız yoxdur, heç kimdən asılı deyilik, özümüz imkan daxilində öz həyatımızı qururuq və yaxşı da qururuq.

İndi dünyada müxtəlif yerlərdə gedən iqtisadi proseslər, çətinliklər, böhranlar onu göstərir ki, Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır. Belə ağır müharibədən çıxmış ölkə azad edilmiş torpaqlarda iki il ərzində genişmiqyaslı quruculuq işləri aparır. Bütün bu işlərin də maliyyə mənbəyi Azərbaycan büdcəsidir. Biz bu iki il ərzində heç bir ölkədən, heç bir təşkilatdan, heç bir donordan bir manat belə yardım almamışıq. Əlbəttə, əgər kimsə yardım etmək istəsə, biz etiraz etmərik. Ancaq heç kim bizə yardım etmir və etməyəcək. Güclü iqtisadiyyat ordu quruculuğunda əsas amillərdən biridir. Biz bunu etdik, yaratdıq və iqtisadi asılılığı tamamilə aradan qaldırdıq. Əgər biz kimdənsə iqtisadi cəhətdən asılı olsaydıq, müharibəni uğurla başa vura bilməzdik.

Eyni zamanda biz Ermənistanın işğalçılıq siyasətini ifşa etməli idik. Çünki əfsuslar olsun Ermənistanın nəzarətində olan beynəlxalq media resursları, satılmış siyasətçilər, onların xaricdəki havadarları, erməni lobbisi - onlar belə bir rəy yaratmışdılar ki, sanki Azərbaycan təcavüzkardır. Azərbaycan torpaqları işğal altına düşən zaman bəzi ölkələr bizə qarşı sanksiyalar tətbiq etmişdilər. Yəni biz öz diplomatik imkanlarımızdan faktiki olaraq istifadə etmirdik. Ona görə bütün dünyaya sübut etməli idik ki, biz haqlıyıq, haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir. Ona görə beynəlxalq müstəvidə çox fəal iş aparırdıq. Aparıcı beynəlxalq təşkilatlar - BMT, ATƏT, Avropa İttifaqı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası bizim mövqeyimizi dəstəkləyən, yəni haqq-ədaləti ifadə edən qərar və qətnamələr qəbul etmişdir. Yəni bu, çox önəmli beynəlxalq hüquqi zəmin idi.

Bununla paralel olaraq, bir çox ölkələrlə ikitərəfli formatda sıx əməkdaşlıq əlaqələri yaratmışıq, həm yerləşdiyimiz bölgədə, həm də digər qitələrdə. Təkcə Avropa İttifaqına üzv ölkələrin doqquzu, digər ölkələr Azərbaycanla strateji tərəfdaşlıq bəyannamələri imzalayıb. Bu da Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsidir. Yəni bu beynəlxalq əlaqələr və Azərbaycanın beynəlxalq nüfuzu bizə imkan verdi ki, daha çox dostlar qazanaq, eyni zamanda Qarabağ həqiqətlərini, erməni işğalı ilə bağlı həqiqətləri dünya birliyinə çatdıraq və çatdırdıq. Bütövlükdə götürəndə 44 gün ərzində müharibə ilə bağlı beynəlxalq yanaşma müsbət idi. Düzdür, bəzi ermənipərəst ölkələr və Ermənistanla yaxın əlaqələrdə olan ölkələr bizə qarşı bəzi siyasi addımlar atmağa çalışırdılar. Amma onlar da heç bir səmərə vermədi. Çünki biz bu illər ərzində güclü beynəlxalq dəstək qazandıq. Biz Qoşulmama Hərəkatına sədr seçildik. Bizim sədrliyimiz yekdil qərarla təsdiqləndi. Sədrliyimiz yekdil qərarla daha bir il uzadıldı. Bu da dünya birliyinin əksər hissəsini birləşdirən beynəlxalq təsisatdır. Bu təsisata 120 ölkə üzvdür. Biz müsəlman ölkələri ilə sıx əlaqələr qurduq və onlara izah etməyə nail olduq ki, Ermənistan təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı təcavüzkar siyasət aparır. Məscidləri dağıdan müsəlman ölkələri ilə dost ola bilməz. Məscidləri dağıdana müsəlman ölkələrinin rəhbərləri qucaq aça bilməz, bilər? Onları qucaqlayıb öpə bilər? Bu, riyakarlıqdır, bu, satqınlıqdır. Bunun başqa adı yoxdur. Ona görə müsəlman aləmində biz Ermənistanı əsas dayaqlardan təcrid etdik. Düzdür, tam təcrid edə bilmədik, bunun başqa səbəbləri var - bax, dediyim riyakarlıq. Ancaq bütövlükdə Ermənistan müsəlman aləmində məscidləri dağıdan, təhqir edən ölkə kimi tanındı və bunu biz etdik.

Bizim vətənpərvərlik məsələləri ilə bağlı çox fəal siyasətimiz olmuşdur. Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək Prezident kimi mənim siyasətimin əsas istiqamətlərindən biri idi və buna nail olduq. Gənclərimiz vətənpərvərdir, Vətənə bağlıdır və İkinci Qarabağ müharibəsi bunu göstərdi. Bir daha demək istəyirəm, heç vaxt Qarabağı görməyən gənclərimiz Qarabağ uğrunda ölümə getməyə hazır idilər və ölümə gedirdilər, cəmiyyətdə milli birlik, milli həmrəylik ideyaları üstünlük təşkil etdi. Eyni zamanda Azərbaycanda yaşayan bütün xalqlar mənim apardığım siyasət nəticəsində daha sıx birləşdilər. Mən dəfələrlə deyirdim, bu gün də deyirəm, biz böyük ailəyik. Azərbaycanda yaşayan bütün xalqlar bir böyük ailənin üzvləridir. Yaxşı günlərdə, ağır günlərdə bir yerdəyik və bu birlik dünya miqyasında nadir dəyərdir. Baxın, biz başqa ölkələrin timsalında milli, dini, etnik zəmində narazılıq, toqquşma, inamsızlıq görürük. Azərbaycanda nə görürük - birlik, qardaşlıq, dostluq! Azərbaycanda yaşayan bütün xalqlar Qarabağ uğrunda ölümə gedirdilər. Bu, bizim böyük dəyərimizdir. Biz bunu, bu dəyəri daim qoruyub saxlamalıyıq, gücləndirməliyik. İkinci Qarabağ müharibəsi ölkəmizdə milli həmrəyliyi, milli birliyi daha da gücləndirdi, ölkəmizi gücləndirdi. Biz bu ağır yükü çiynimizdən atdıq, bu damğanı boynumuzdan atdıq. Biz indi başımızı dik tutub istənilən tədbirdə, istənilən formatda sözümüzü deyirik. Biz üzümüz ağ, alnımız açıq, müzəffər xalq kimi yaşayırıq. Buna görə sizə və sizin kimi on minlərlə hərbçiyə borcluyuq. Azərbaycan xalqı bunu bilir və yaxşı qiymətləndirir.

Əlbəttə, müharibədə uğur qazanmaq üçün biz çox önəmli layihələri icra etməli idik və etdik. Bu gün dünyanın və bizim bölgəmizin enerji-nəqliyyat xəritələrinə baxmaq kifayətdir ki, hər kəs görsün bizim təşəbbüsümüzlə icra edilən layihələr həm ölkəmizə, həm də bizim tərəfdaşlarımıza nə qədər böyük fayda gətirib. Bizim təşəbbüsümüzlə nəqliyyat və enerji layihələrində iştirak edən ölkələrin sayı onlarla ölçülür. Hələ indiki mərhələdə daha geniş vüsət alacaq və bütün bu ölkələr bizim təbii dostlarımızdır, müttəfiqlərimizdir. Eyni zamanda bu layihələr bizə əlavə maliyyə imkanı yaratdı. Biz, ilk növbədə, bu maliyyə imkanlarını hərbi potensialın gücləndirilməsinə yönəltdik. Mənim prezidentlik dövrümdə əgər dövlət büdcəsinin xərclərinə nəzər salsaq, görərik ki, birinci yerdə hərbi xərclərdir, birinci yerdə. Halbuki ölkənin başqa ehtiyacları var. Bir milyona yaxın məcburi köçkünün də problemlərini biz həll edirdik, onları da biz yeni evlərlə təmin edirdik. Sosial problem, maaşlar, pensiyalar, bunları da biz artırmalı idik və artırırdıq. Daha çox artırmaq istəyirdik və istəyirik. Ancaq, ilk növbədə, orduya, ilk növbədə, Qələbəyə aparan yola daha böyük maliyyə dəstəyi verirdik. Bu gün də belədir. Gələn il üçün Azərbaycanın dövlət büdcəsi rekord həddə çatıb, o cümlədən hərbi xərclərə ayrılacaq vəsait də rekord həddə çatıb. Sual oluna bilər nə üçün, müharibə arxada qaldı, iki il keçib. Cavab çox sadədir. Ermənistanda revanşist qüvvələr baş qaldırır. Ermənistanda müharibənin nəticələri ilə barışmaq istəməyən qüvvələr, dairələr baş qaldırır. Ermənistan 2020-ci ilin 10 noyabr Bəyanatına tam əməl etmir, öz silahlı qüvvələrini Qarabağdan tam çıxarmayıb, Zəngəzur dəhlizini bizə təqdim etməyib, bizə qarşı vaxtaşırı hərbi təxribatlar törədir. Əlbəttə ki, biz hazırlıqlı olmalıyıq və biz hazırıq.

Mən deyə bilərəm ki, son iki il ərzində Silahlı Qüvvələrimiz daha da güclənib. Həm struktur islahatları, həm yeni birləşmələrin yaradılması, eyni zamanda mövcud olan birləşmələrin sayının artırılması, silah-sursatla təchizat, yeni texnika ilə təchizat ən yüksək səviyyədədir. İndiki Azərbaycan Ordusu iki il bundan əvvəlki Azərbaycan Ordusundan daha güclüdür və bunu hər kəs bilməlidir, Ermənistan və hər kəs!

Ona görə Qələbəyə aparan yol müxtəlif istiqamətlərdən keçmişdir. Əlbəttə ki, güclü Silahlı Qüvvələrin yaradılması əsas vəzifə idi və biz bunu yaratdıq. Bununla paralel olaraq, ölkədə uzun illər ərzində daxili sabitlik, əmin-amanlıq, təhlükəsizlik, əlbəttə ki, bizi gücləndirirdi. Çünki yenə də deyirəm, mən heç vaxt müqayisə aparmaq istəmirəm, - amma indiki dünyada heç nəyi gizlətmək mümkün deyil, hər şey göz qabağındadır, - bir çox ölkələr daxili problemlərin içində çabalayır, bir çox ölkələrdə daxili böhran hökm sürür, qarşılıqlı inamsızlıq, ictimai asayişin pozulması, xalq-iqtidar arasındakı uçurum. Bizdə nə görürük - daxili sabitlik, milli birlik, milli həmrəylik, xalq-iqtidar birliyi. Bax, bu, bizim siyasətimizin böyük nəticəsidir. Bizim bütün addımlarımız və mənim Prezident kimi 2003-cü ildən bu günə qədər bütün addımlarım Azərbaycanın gücləndirilməsinə yönəldilmişdir. Vətən müharibəsinə qədər bütün addımlarım bir amala xidmət edirdi ki, biz torpaqlarımızı azad edək, düşməni torpağımızdan qovaq və biz buna nail olduq. Mən işğal dövründə deyirdim, bir neçə dəfə deyirdim, hər birimiz azadlıq gününü, bu müqəddəs günü öz işimizlə yaxınlaşdırmalıyıq, yaxınlaşdırırdıq və yaxınlaşdırdıq. Düşmənə elə sarsıdıcı zərbə endirdik ki, bu günə qədər özünə gələ bilmir. İndi Ermənistanda gedən proseslərə baxın, indi onlar öz hirsini, öz zəhərini artıq öz aralarında bölüşürlər. Görün, bu iki il ərzində orada hansı proseslər gedir.

İkinci Qarabağ müharibəsinin dərsləri Ermənistan tərəfindən unudulmamalıdır və onlar bilməlidirlər ki, odla oynamaq onlara baha başa gələcək. Əgər orada kimsə - istər iqtidar, istər müxalifət, istərsə də xaricdən göndərilmiş, öyrədilmiş hansısa ünsür yenidən bizə qarşı hansısa bəd fikirdə olmaq niyyətindədirsə, o, bizim yumruğumuzu bir daha görəcək və son iki ilin tarixi bunu göstərdi. Hətta bu il "Fərrux" əməliyyatı, "Qisas" əməliyyatı, 13-14 sentyabr Ermənistan-Azərbaycan sərhədindəki hadisələr - bütün bunlar Ermənistan üçün dərs olmalıdır. Biz bu dərsi öyrədirik və ümid edirik ki, nəhayət, onlar bunu anlayacaqlar, boyunlarını büküb öz daxili işləri ilə məşğul olacaqlar, bizim torpağımıza göz dikməyəcəklər, Qarabağa göz dikməyəcəklər. Qarabağ bizim torpağımızdır. Rus sülhməramlılar orada müvəqqəti yerləşiblər, 2020-ci ilin 10 noyabr Bəyanatında onların müddəti göstərilir və əgər kiməsə bel bağlayırlarsa, yenə də faciə ilə üzləşəcəklər.

Biz, sadəcə olaraq, bütün beynəlxalq razılaşmalara həmişə hörmətlə yanaşırıq. Biz ədalətli insanlarıq və ədalətli ölkəyik. Əgər biz hansısa öhdəliyi öz üzərimizə götürmüşüksə, onu yerinə yetiririk. Biz 2020-ci ilin 10 noyabr Bəyanatında üzərimizə götürdüyümüz bütün öhdəlikləri yerinə yetiririk, iki ildir ki, yerinə yetiririk, amma Ermənistan yerinə yetirir? Yox! İkinci Qarabağ müharibəsindən dərhal sonra, sadəcə olaraq, o qədər qorxu içində idi ki, təbii, o müddəaları yerinə yetirmişdir və bir güllə atılmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal altında olan əraziləri bizə qaytarıldı. Əgər qaytarmasaydı, yenə də başlarını əzəcəkdik. Amma ondan sonra? Ondan sonra yenə vaxt uzatmağa başladı.

**Prezident İlham Əliyevin Füzuliyə və Şuşaya səfəri**

# bu şanlı Qələbə ilə fəxr edəcəklər













Mən bir daha demək istəyirəm, o öhdəlik hələ tam yerinə yetirilməyib. Erməni silahlı qüvvələri Qarabağda nə gəzir? Bizim səbrimiz tükənməz deyil və bir daha xəbərdarlıq etmək istəyirəm, əgər bu öhdəlik yerinə yetirilməsə, Azərbaycan lazımi addımlar atacaq.

Zəngəzur dəhlizi Ermənistanın öhdəliyidir, öz üzərinə öhdəlik götürüb. Biz iki il ərzində Laçın yolu ilə Ermənistandan Qarabağa və əks istiqamətə gedən maşınlara toxunmuruq. Biz öhdəlik götürmüşük, yerinə yetiririk, sərbəst hərəkət. Ermənistan da öhdəlik götürüb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında yol bağlantısı olsun. İki il keçib üstündən, nə texniki-iqtisadi əsaslandırma var, nə hansısa hərəkət var, nə dəmir yolu, nə də avtomobil yolu. Biz nə vaxta qədər gözləməliyik?

13-14 sentyabr hadisələri eləbelə baş vermədi. Təbii ki, Ermənistan bizə qarşı növbəti hərbi təxribat törətmişdir. Amma cavabımız da çox təsirli oldu. Cavabımız bir qədər az da ola bilərdi, əgər onlar öz üzərilərinə götürdükləri öhdəliklərə əməl etsəydilər. Cavabımız daha sərt ola bilərdi, əgər biz yeni müharibə istəsəydik. Biz bunu istəmirik, qan tökülməsini istəmirik. Sadəcə olaraq, haqqımızı istəyirik.

13-14 sentyabr əməliyyatından sonra Azərbaycan-Ermənistan sərhədi istiqamətində əsas strateji yüksəkliklərdə Azərbaycan Silahlı Qüvvələri yerləşib. Ermənistan gözəl anlamalıdır bu nə deməkdir. Bu gün həmin strateji yüksəkliklərdən Qarakilsə, Qafan, Gorus, İstisu şəhərlərini biz gözlərimizlə görürük. Biz Bala Göyçə gölünün sahilindəyik. Böyük Göyçə gölü də gözümüzün önündədir. Bütün bunlar reallıqlardır. Bu reallıqları biz yaratmışıq, Vətən müharibəsindən sonra. Nə üçün? İlk növbədə, Ermənistanın hərbi təxribatlarına cavab olaraq, digər tərəfdən, özümüzü gələcək hərbi təxribatlardan sığortalamaq üçün. Çünki dediyim yüksəkliklərdən Ermənistanın əksər postları görünür və əgər orada qüvvələrin konsentrasiyası baş verərsə, biz bunu görüb dərhal tədbir görəcəyik. Eyni zamanda ona görə ki, Ermənistan öz beynəlxalq öhdəliklərini yerinə yetirmir. Ermənistan İkinci Qarabağ müharibəsində məğlub olub, ordusu darmadağın edilib. Məğlub edilmiş ölkə özünü belə apara bilməz. Ona görə bizim bütün addımlarımız əsaslıdır. Düzdür, Ermənistanın bəzi xarici havadarları bizi nədəsə günahlandırmaq istəyirlər. Onların cavabını da mən vermişəm. Yenə də nəsə banlasalar, yenə də cavablarını verərəm. Bu, məni dayandırmaz. Amma fakt odur ki, biz öz haqqımızı tələb edirik və Azərbaycanın haqlı olması böyük beynəlxalq aktorlar tərəfindən sual altına qoyulmur.

Bir sözlə, müharibədən keçən iki il ərzində biz öz siyasətimizi davam etdirmişik. Biz iki il ərzində böyük quruculuq işləri görmüşük, Qarabağı və Şərqi Zəngəzuru faktiki olaraq yenidən qururuq və quracağıq. Eyni zamanda ordumuzu gücləndiririk və gücləndirəcəyik. Ermənistan bilməlidir ki, bizi indiki çərçivələrdə saxlayan Ermənistanın hansısa havadarının bəyanatı deyil, bizim öz siyasətimizdir. Biz heç kimdən qorxmuruq, heç kimdən çəkinmirik. Əgər biz kimdənsə qorxsaydıq, heç vaxt İkinci Qarabağ müharibəsinə start verməzdik. Biz hər birimiz ölümə gedirdik, öldü var, döndü yoxdur, ya azadlıq, ya ölüm! İndi də ölümə getməyə hazırıq öz haqlarımızı tələb edərək. Çünki hələ də, - müharibə iki il bundan əvvəl başa çatsa da, - narahatedici məqamlar var və erməni xalqına müraciət edib sözümü demək istəyirəm. Onlar bu otuz ilin işğalının acılarını indi görürlər. İşğal nədir, itki nədir, indi görürlər. Biz, sadəcə olaraq, onlara cavab vermişik, biz öz torpağımızda vuruşmuşuq, işğalçını torpaqlarımızdan qovmuşuq. Onlar bunu anlamalıdırlar ki, xaricdə oturan və bu bölgəyə bir oyun meydançası kimi baxmaq istəyən dairələrin qurbanına ikinci dəfə çevrilməsinlər. Biz burada əsas söz sahibiyik, biz burada əsas güc sahibiyik. Bizim ordumuz qəhrəmanlıq, peşəkarlıq, fədakarlıq göstərib. Lazım olarsa, bir daha göstərərik, istədiyimizə nail olarıq, bunu hər kəs bilir və bizim sərhədimizdə Ermənistana dəstək olaraq hərbi təlim keçirənlər də bilsinlər. Bizi heç kim qorxuda bilməz. Ermənistan yaxşı qonşuluq siyasəti aparmaq istəyirsə, birincisi, 2020-ci ilin 10 noyabr Bəyanatının bütün müddəalarını yerinə yetirməlidir. Azərbaycanla sülh üzrə aparılan danışıqlarda səmimi olmalıdır. Süni şəkildə vaxt uzatmamalıdır, hansısa möcüzəni gözləməməlidir ki, kimsə gəlib bunların yerinə vuruşacaq. Heç kim gəlib onların yerinə vuruşmayacaq, gəlib vuruşsa da, qarşısında yenə də Azərbaycan Ordusunu görəcək.

Biz sülh istəyirik, biz müharibə istəmirik. Sülh, amma ədalətli sülh. İrəli sürdüyümüz şərtlər ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və sülh müqaviləsi bu şərtlər əsasında imzalanmalıdır. Əgər Ermənistan xoş niyyət göstərsə, bu, imzalanacaq, göstərməsə, imzalanmayacaq. Ondan sonra nə olacaq, onu həyat göstərər.

Dediyim bütün bu sözlərin bir mənbəyi var - həm bizim güclü iradəmiz, həm də Vətən müharibəsindəki Qələbəmiz! Bu Qələbə imkan verir ki, biz bu sözləri hamının üzünə, bizə xor baxanların gözünə deyək. Bu Qələbə, bu Zəfər bizə bu imkanı verdi, bütün xalqımıza inam verdi, ruh verdi. Biz təkcə ərazi bütövlüyümüzü yox, milli qürurumuzu bərpa etdik. Buna görə, əziz hərbçilər, sizə borcluyuq, sizin kimi on minlərlə əsgər, zabitə borcluyuq və Azərbaycan xalqı bunu yaxşı bilir. Mən də Ali Baş Komandan kimi sizinlə fəxr edirəm.

**Hərbçilər:** Yaşasın Ali Baş Komandan!

**Prezident İlham ƏLİYEV:** Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!

❖ ❖ ❖

Sonra xatirə şəkli çəkdirildi.

Sonda hərbi qulluqçuların təntənəli keçidi oldu.

# Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır

## Müzəffər Ali Baş Komandan İlham Əliyev "N" saylı hərbi hissədə yaradılan şəraitlə tanış olub













**Noyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Füzuli rayonu ərazisində Müdafiə Nazirliyinin yeni istifadəyə verilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Prezident İlham Əliyev hərbi şəhərciyin ərazisində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gül dəstəsi qoydu, burada ağac əkdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi şəhərciyin qərargah binası ilə tanış oldu.

Dövlət başçısı hərbçilərlə birgə foto çəkdirdi, onları 8 Noyabr - Zəfər Günü münasibətilə təbrik etdi.



Hərbi şəhərcikdə görülən işlər barədə məlumat verən nazir Zakir Həsənov bildirdi ki, şəxsi heyətin xidməti və məişət şəraitinin təmin edilməsi məqsədilə əsaslı təmir olunmuş hərbi şəhərcik ərazisində qərargah, yeməkxana, tibb məntəqəsi, əsgər yataqxanaları, hamam-camaşırxana, avtomobil parkı, müxtəlif təyinatlı anbarlar, eləcə də digər infrastruktur obyektləri mövcuddur. Burada döyüş hazırlığının və qoşun xidmətinin yüksək səviyyədə təşkili, döyüş əməliyyatları zamanı bölmələrin operativ idarə olunması, eləcə də digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təmin edilməsi üçün müasir kommunikasiya və informasiya vasitələri ilə təchiz olunmuş idarəetmə mərkəzi, rabitə qovşağı və digər xidməti otaqlar var.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi şəhərcikdə əsgər yataqxanası, əsgər yeməkxanası və idman zalı ilə tanış oldu.

Diqqətə çatdırıldı ki, şəhərcikdə hərbi qulluqçular və onların ailələri üçün yeni istifadəyə verilmiş iki və üçmərtəbəli yaşayış binaları, məktəb və uşaq bağçası mövcuddur. Hərbi qulluqçuların səmərəli istirahəti üçün müasir standartlara uyğun şərait yaradılıb.

Müzəffər Ali Baş Komandan İlham Əliyev mənzillərdə yaradılmış şəraitlə də tanış oldu.

# Azərbaycan Avropa Olimpiya ailəsində həmrəyliyə böyük töhfə verib

*Əvvəli 1-ci səh.*





AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, ilk növbədə, Spiros Kapralosu Avropa Olimpiya Komitələrinin prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi, fəaliyyətində uğurlar arzuladı, Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubiley tədbirlərində iştirakına görə minnətdarlığını bildirdi. Birinci Avropa Oyunlarını məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu mötəbər tədbirin önəmini vurğuladı, oyunların təşkilində Spiros Kapralosun rolunu yüksək qiymətləndirdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən qonaq, ilk növbədə, Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubileyi münasibətilə təbriklərini çatdırdı. Birinci Avropa Oyunlarının əhəmiyyətinə toxunan Spiros Kapralos bu beynəlxalq idman tədbirinin yüksək səviyyədə təşkil olunduğunu və bu işdə dövlətimizin başçısının rolunu xüsusi qeyd etdi. Bildirdi ki, ölkəmizin bu tədbirə layiqincə evsahibliyi etməsi Avropa Olimpiya ailəsində həmrəyliyə böyük töhfə verib. Spiros Kapralos ötən dövr ərzində Azərbaycan idmançılarının beynəlxalq turnirlərdə qazandıqları böyük uğurları məmnunluqla vurğuladı.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Azərbaycanla Avropa Olimpiya Komitələri arasında əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

Spiros Kapralos dövlətimizin başçısına Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubileyi münasibətilə xatirə hədiyyəsi təqdim etdi.

Sonda xatirə şəkli çəkdirildi.

## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri

# Azərbaycan - Özbəkistan əlaqələri konkret nəticələr verir







Noyabrın 10-da Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşıladılar.

Dövlət başçıları və birinci xanımlar birgə foto çəkdirdilər.







Görüşdə çıxış edən Özbəkistan Prezidenti **Şavkat MİRZİYOYEV** dedi:

- Hörmətli İlham Heydər oğlu, bir daha Özbəkistana xoş gəlmisiniz. Sizi Səmərqənddə görmək mənə çox xoşdur. Çox şadam ki, siz xanımınız Mehriban Arif qızı ilə birlikdə gəlmisiniz. Ona görə ki, mən demişəm, bu, rəmzi məna daşıyır. Dediyim kimi, sabahkı sammit rəmzi məna daşıyır, ona görə ki, bu tədbirin əsasını Naxçıvanda qoymuşuq, İlham Heydər oğlu, Sizin Vətəninizdə, atanızın Vətənində. Biz görürük ki, bu istiqamətdə çoxsaylı tarixi hadisələr baş verib. Özbəkistanda bu tarixi hadisə ilk dəfədir. Nə üçün Səmərqənddə təşkil olunması da böyük əhəmiyyət kəsb edir, ona görə ki, sabah Səmərqənddə ilk dəfə olaraq Zirvə görüşü yeni adla keçiriləcək. Bütün bunlar hamısı qarşılıqlı surətdə əlaqəlidir. Beləliklə, xoş gəlmisiniz!

Danışıqlara başlamazdan əvvəl Sizi böyük Qələbə - 8 Noyabr günü münasibətilə təbrik etmək istəyirəm. Sizin yaxın dostlarınız kimi, biz də bu Zəfəri bayram etmişik. Bu münasibətlə Sizi bir daha təbrik edirəm. 12 Noyabr - Konstitusiya Gününüzü təbrik edirəm. Sabah sizdə Milli Olimpiya Komitəsinin 30 illiyidir, bu münasibətlə də təbrik edirəm, - Siz bu təşkilata rəhbərlik edirsiniz. Bunlar elə hadisələrdir ki, yaxşı dostlar onları heç vaxt unutmamalıdırlar. Mən Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əlbəttə, dediyimiz kimi, bizim münasibətlər strateji əhəmiyyət daşıyır. Bir misal göstərim - bu il Sizinlə üçüncü dəfədir görüşürük. Bu, münasibətlərimizin strateji əhəmiyyətinə dəlalət edir. Siz üçüncü dəfədir ki, Özbəkistana səfər edirsiniz, buna görə Sizə çox təşəkkür edirəm. Əlaqələrimiz sistemli olub və ən başlıcası, konkret nəticələr verir. Bizim komandalar artıq bir-birini tanıyırlar. Biz Sizin gəlişinizə hazırlaşmışıq, çoxlu ciddi layihələr var, genişproqramlı çoxlu səfərlər olub. Artıq görüşürlər, söhbət edirlər. Hökumətlərarası Komissiyanın iclası uğurla, çox yaxşı keçib və həmkarlar Hökumətlərarası Komissiyanın sədri ilə söhbət ediblər, yaxşı plan nəzərdə tutublar.

❖ ❖ ❖

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Sağ olun, hörmətli Şavkat Miromonoviç.

İlk növbədə dəvətə və qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Yenidən Səmərqənddə olmağıma çox şadam. Azərbaycanın Vətən müharibəsində Qələbəsi münasibətilə təbrikinizə görə təşəkkürümü bildirmək istəyirəm. Biz qardaş özbək xalqının, şəxsən Sizin bizə, ölkəmizə və Azərbaycanın ədaləti bərpa etməsinə münasibətinizi çox yüksək qiymətləndiririk. Biz bu dəstəyi müharibə dövründə də, sonra da hiss edirdik. Əlbəttə, işğaldan azad edilmiş Füzuli şəhərində məktəb tikmək təşəbbüsünüzə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu, ərazilərin bərpası işinə ilk xarici töhfə olacaq və biz bunu çox yüksək qiymətləndiririk. İndicə Sizinlə informasiya mübadiləsi etdiyimiz kimi, məktəbin tikintisi artıq başlanıb. Bu məktəb bizim xalqlarımızın qardaşlığının rəmzi olacaq.

Həqiqətən, son vaxtlar biz çox yaxınlaşmışıq. Fikrimcə, bu da bizim əcdadlarımızın iradəsidir və xalqlarımız arasında tarixi qardaşlıq əlaqələri məcrasında baş verir. Yeddi ay ərzində üçüncü dəfədir ki, Özbəkistana səfər edirəm. Hər dəfə şəxsən Sizə və qardaş özbək xalqına böyük məhəbbətlə, böyük hörmətlə gəlirəm və burada olandan sonra Sizin rəhbərliyinizlə Özbəkistanın qazandığı böyük nailiyyətlər haqqında danışıram. Daşkəndi, Xivəni, Səmərqəndi ziyarət etmək kifayətdir. Mən artıq Özbəkistanla kifayət qədər yaxşı tanışam və deməliyəm, birmənalı şəkildə qeyd etmək olar ki, Səmərqənd mühüm beynəlxalq siyasi mərkəzə çevrilib. Ona görə ki, burada dünya liderlərinin iştirakı ilə dünya səviyyəli müxtəlif beynəlxalq tədbirlər keçirilir. Bu münasibətlə də Sizi təbrik edirəm.

Əlbəttə, Sizin qeyd etdiyiniz mövzular gündəlikdədir. Biz Sizinlə razılaşdıq ki, qərarlarımızın yerinə yetirilməsinə nəzarət edəcəyik. Sizin qeyd etdiyiniz kimi, bütün istiqamətlər üzrə yaxşı proseslər gedir.

❖ ❖ ❖

Görüşdə həmçinin ölkələrimiz arasında iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsi məsələləri barədə fikir mübadiləsi aparıldı. Xüsusilə Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində əldə olunmuş razılaşmaların icrası istiqamətində görülən işlərə toxunuldu, bu baxımdan hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu.

Söhbət zamanı maşınqayırma sahəsində əldə edilmiş razılaşmaların həyata keçirilməsi istiqamətində müsbət nəticələrin olduğu bildirildi. Əczaçılıq, energetika sahələrində nailiyyətlər, həmçinin ipəkçilik sahəsində iki ölkə arasında qurulmuş uğurlu əməkdaşlıq layihəsindən çıxış edərək pambıqçılıq və toxuculuq sahələrində də ölkələrimiz arasında nailiyyətlərin olduğu vurğulandı. Bundan başqa, iki ölkənin regionları arasında əməkdaşlığın təşviqi məqsədilə bu ilin sonunda regionlararası forumun keçiriləcəyi qeyd olundu. Bu forum çərçivəsində iki ölkənin bir sıra şəhərləri arasında qardaşlıq münasibətlərinin qurulması barədə anlaşmaların imzalanacağı müsbət hal kimi vurğulandı. Bu tədbirlərin Azərbaycan ilə Özbəkistan arasında qardaşlıq münasibətlərinin inkişafına mühüm töhfə verəcəyi ifadə edildi.

Dövlət başçıları həmçinin iki ölkə arasında humanitar-mədəni sahədə əməkdaşlığın inkişafının əhəmiyyətini qeyd edərək, mədəniyyət qruplarının intensiv qastrol səfərlərinin təşkilinin vacibliyini bildirdilər.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşünün Səmərqənd şəhərində keçirilməsinin böyük tarixi və rəmzi məna daşıdığı vurğulandı. Xüsusən təşkilatın adının dəyişdirilməsindən sonra ilk Zirvə görüşünün bu tarixi şəhərdə təşkil olunmasının önəmi qeyd edildi.

## Səmərqənddəki "Əbədi şəhər" kompleksində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin folklor ifalarının təqdimatı olub

### Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib

Noyabrın 10-da Səmərqənddəki "Əbədi şəhər" kompleksində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin folklor ifalarının təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.



## Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak edən dövlət başçılarının şərəfinə qeyri-rəsmi şam yeməyi verilib

### Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib

Noyabrın 10-da Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə iştirak edən dövlət başçılarının şərəfinə qeyri-rəsmi şam yeməyi verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

# Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri

## Azərbaycan Prezidenti İlham Əliyev Səmərqənddə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb

Noyabrın 10-da Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.



AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında müttəfiqlik münasibətlərinə əsaslanan dostluq və qardaşlıq əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, bölgədə vəziyyət və təhlükəsizlik məsələləri müzakirə edildi, Soçi görüşünün nəticələri barədə fikir mübadiləsi aparıldı.

## Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Özbəkistanın birinci xanımı Ziroatxon Mirziyoyeva ilə görüşüb

Noyabrın 10-da Səmərqənddə Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə görüşü olub.



## Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Səmərqənddə "Özbəkistanın rəngləri" sərgisi ilə tanış olub







Noyabrın 10-da Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşü çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və digər ölkələrin birinci xanımları Səmərqənddə "Özbəkistanın rəngləri" sərgisi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, Özbəkistanın birinci xanımı Ziroatxon Mirziyoyeva, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan, Macarıstanın Baş nazirinin xanımı Aniko Levai birlikdə sərgiyə baxıblar.

Qeyd edək ki, sərgidə Nukusda yerləşən İ.Savitski adına Qaraqalpaqıstan Respublikası Dövlət İncəsənət Muzeyinin kolleksiyasından məşhur əsərlər nümayiş olunur. Burada sərgilənən əsərlər Özbəkistanın XX əsr təsviri sənətinin bütün istiqamətlərini əhatə edir. Özbəkistanın qeyri-adi təbiəti, qədim abidələri rəssamlar üçün hər zaman ilham mənbəyi olub. Qaraqalpaqıstanın bir çox rəssamları mavi Aral dənizi və Amudəryadan ilhamlanaraq mükəmməl əsərlər ərsəyə gətiriblər.

Özbəkistanda təsviri sənət XX əsrdə sürətlə inkişaf edib. Həmin dövrün rəssamlarının həyatlarının müxtəlif olmasına baxmayaraq, onları birləşdirən Özbəkistan idi. Təkcə Özbəkistanda doğulan rəssamlar deyil, buraya müxtəlif yerlərdən gələnlər də günəşli diyarın ecazkarlığına valeh olaraq bu qədim torpaqda həmişəlik yaşayıb-yaradıblar. Bu gün onların da əsərləri sərgidə nümayiş olunur.

Qeyd edək ki, sərgidə 14 rəssamın 90-dan çox əsəri nümayiş etdirilir.

## Birinci xanım Mehriban Əliyeva Səmərqənddə təşkil olunan şam yeməyində iştirak edib



Noyabrın 10-da Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşü çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan və Macarıstanın Baş nazirinin xanımı Aniko Levai Səmərqənddə təşkil olunan şam yeməyində iştirak ediblər.

## Birinci vitse-prezident Mehriban Əliyeva Özbəkistanın Səmərqənd şəhərindən paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Özbəkistanın Səmərqənd şəhərindən paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "10.11.2022. Gözəl Səmərqəndin gecə mənzərəsi! Qədim və gənc şəhər. Qardaş Özbəkistan xalqına sülh və firavanlıq arzulayıram!"

## Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Səmərqənddə "Lazgi" baletinə baxıb

Noyabrın 10-da Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşü çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan, Macarıstanın Baş nazirinin xanımı Aniko Levai Səmərqənd şəhərində Həmid Alimcan adına Səmərqənd Musiqili Dram Teatrında "Lazgi" baletinə baxıblar.



AZƏRTAC xəbər verir ki, 2019-cu ildən UNESCO-nun Hökumətlərarası Komitəsi "Lazgi - Xarəzm rəqsi"ni bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edib. Xarəzm torpağında yaranmış "Lazgi" rəqsi təbiətdəki səs və təzahürləri, sevgi və xoşbəxtlik hisslərinin hərəkətlərdə təcəssümüdür.

Hazırda "Lazgi" Özbəkistanın bütün regionlarında populyardır. Tamaşanın xoreoqrafı Berlin Milli Operası yanındakı balet məktəbinin məzunu Raul Raymondo Rebekdir. Rebekin Koreya Respublikasının "Universal Ballet" truppası üçün qurduğu "Bəyaz röya" birpərdəli tamaşası ötən il Astanada Avrasiya Müasir Rəqs Festivalında maraqla qarşılandıqdan sonra "Lazgi" balet tamaşasının quruluşu da məhz ona həvalə edilib.

Bu rəqsə həsr olunan balet tamaşası Özbəkistan rəqs ənənələrini beynəlxalq mədəni mühitdə yaymağa kömək edir. Bu məqsədlə də ölkənin qeyri-maddi irsini tanıtmaq və özbək baletini məşhurlaşdırmaq üçün



əsərin xarici ölkələrdə nümayişi nəzərdə tutulur.

Qeyd edək ki, hazırda "Lazgi"nin nümayiş olunduğu Həmid Alimcan adına Səmərqənd Musiqili Dram Teatrı Özbəkistanın ən böyük teatrlarından biridir. Görkəmli özbək şairi, yazıçısı və dramaturqu Həmid Alimcanın adını daşıyan teatr 1914-cü ildə rus, özbək və tacik aktyorları və rəssamları tərəfindən yaradılıb.

# Milli Məclisin Sədri Sahibə Qafarovaya Zəfər Günü münasibəti ilə təbrik məktubları ünvanlanıb

Bu günlərdə 8 Noyabr - Zəfər Günü münasibəti ilə Milli Məclisin Sədri Sahibə Qafarovaya təbrik məktubları ünvanlanıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopdan, Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Raca Pərviz Əşrəfdən, Türk Dövlətləri Parlament Assambleyasının baş katibi Mehmet Süreyya Erdən və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi Asəf Hacıyevdən daxil olmuş təbrik məktublarında xalqımızın 44 günlük Vətən müharibəsində şanlı Qələbəsinin ikinci ildönümü münasibətilə Milli Məclisin



Sədri Sahibə Qafarovaya və onun timsalında parlamentin deputatlarına səmimi təbriklər ünvanlanıb.

Məktublarda Azərbaycan xalqının iradəsi, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi və müzəffər Azərbaycan Ordusunun misilsiz şücaəti nəticəsində əldə olunan bu Qələbənin müasir tarixdəki yeri yüksək dəyərləndirilib, Türkiyə və Pakistanın Azərbaycana qardaşlıq və dostluq dəstəyi bir daha təsdiqlənib, ölkəmizlə dostluq və əməkdaşlığın, ikitərəfli münasibətlərin daha da inkişaf edəcəyinə əminlik ifadə olunub.

Təbrik məktublarında cəsarət və fədakarlıqları heç bir zaman unudulmayacaq əziz şəhidlərimizə Allahdan rəhmət, qəhrəman qazilərimizə cansağlığı, Azərbaycan xalqına davamlı sülh və firavanlıq arzuları öz əksini tapıb.

*"Azərbaycan"*

# Azərbaycan və Ermənistan XİN rəhbərlərinin ABŞ dövlət katibi ilə üçtərəfli görüşü

Noyabrın 7-də Vaşinqtonda Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan görüşüblər.



AZƏRTAC Xarici İşlər Nazirliyinin rəsmi saytına istinadla xəbər verir ki, görüşün baş tutduğu "Blair Hous"da nazirlərin ABŞ dövlət katibi Entoni Blinken ilə birgə görüşü də keçirilib.

Nazirlər mümkün sülh müqaviləsinin elementləri ilə bağlı fikir mübadiləsi aparıb, hələ də həll edilməli olan bir sıra məsələlər olduğunu qeyd ediblər. Hər iki tərəf Azərbaycan və Ermənistan liderlərinin oktyabrın 6-da Praqada, oktyabrın 31-də isə Soçidə keçirdikləri görüşlərdə götürdükləri öhdəlikləri bir daha təsdiq edib.

Onlar danışıqları sürətləndirmək və yaxın həftələrdə daha bir görüş təşkil etmək barədə razılığa gəliblər. Hər iki nazir Azərbaycan və Ermənistan arasında sülh danışıqlarına evsahibliyi etdiyinə görə ABŞ tərəfinə təşəkkürünü bildirib.

# Daxili işlər naziri Vilayət Eyvazov Şuşada polis əməkdaşlarının və hərbi qulluqçuların xidmət şəraiti ilə tanış olub

Zəfər Günü ərəfəsində daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov, nazir müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov, Qərargah rəisi, general-mayor Tofiq Hüseynov və komandanın müavini, general-mayor İnqilab Muradov Daxili İşlər Nazirliyinin (DİN) hərbi qulluqçularının işğaldan azad olunmuş ərazilərdəki yerləşmə məntəqələrində olublar.



DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Vilayət Eyvazov hərbi qulluqçuların kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu ilə maraqlanıb, həmçinin maddi-texniki təminatı ilə yaxından tanış olub, müvafiq tapşırıq və tövsiyələrini verib.

General-polkovnik Vilayət Eyvazov vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə xidmətin müasir standartlar səviyyəsində təşkilinə dair verdiyi tapşırıqlara uyğun olaraq hərbi qulluqçuların maddi-texniki bazasının, kazarma-yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində, eləcə də qabaqcıl texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edilmələri üçün ardıcıl tədbirlər həyata keçirilir.



Polis əməkdaşlarının və hərbi qulluqçuların işğaldan azad olunmuş ərazilərdə öz şərəfli xidmətini böyük əzm və peşəkarlıqla davam etdirdiklərini xüsusilə diqqətə çatdıran nazir onları Zəfər Günü münasibətilə təbrik edib, xidmətlərində uğurlar arzulayıb.

# Vaşinqtonda 8 Noyabr - Zəfər Günü qeyd edilib

Vaşinqtonda Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyinin təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Günü qeyd edilib. Tədbirdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, Türkiyənin Vaşinqtondakı səfiri Həsən Murat Mercan, Türkiyənin Vaşinqton Silahlı Qüvvələrinin attaşesi briqada generalı Hakan Çanlı, eləcə də bir çox səfirlər, diplomatlar, hərbi attaşelər və çox sayda qonaqlar iştirak ediblər.



Şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi, Azərbaycanın və ABŞ-ın Dövlət himnlərinin oxunması ilə başlayan mərasimdə xarici işlər naziri Ceyhun Bayramov çıxış edərək bu günün hər bir azərbaycanlı üçün böyük əhəmiyyət kəsb etdiyini, xalqımızın bu Zəfər Günü üçün çox əziyyətlər çəkdiyini bildirib.

Bir milyondan çox azərbaycanlının xaricdə, 700 min insanın isə Azərbaycan daxilində qaçqın vəziyyətinə düşdüyünü xatırladan Ceyhun Bayramov 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurası başda olmaqla bir çox beynəlxalq təşkilatların ermənilərin Qarabağdan tamamilə çıxarılmasını tələb etsə də, onlar Qarabağda etnik təmizləmə də daxil olmaqla, bir çox cinayətlər törətdiyini bildirib.

Nazir Qarabağ məsələsinin siyasi yolla həlli mümkün olmadığı üçün Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarının geri alınması üçün hərbi əməliyyatlara başladığını deyib.

Ceyhun Bayramov Ermənistanın 30 il müddətində Qarabağda böyük dağıntılar törətdiyini diqqətə çatdırıb. Ərazilərimiz işğaldan azad olunandan sonra buranın qısa zamanda bərpası üçün son iki ildə 3 milyard dollar vəsait ayrıldığını bildirib.

Daha sonra Azərbaycanın Ermənistan tərəfini sülh danışıqlarına çağırdığını qeyd edib: "Azərbaycan sülhə hazırdır, ancaq bir ildir ki, ölkəmizin sülh təklifinə cavab verilmir. Azərbaycan bu dəfə fevral ayında mətn hazırlayıb və biz bunu gələcək saziş üçün əsas prinsiplər adlandırırıq. Bu, həm erməni tərəfinə çatdırılıb, həm də ictimaiyyətə açıqlanıb".

Ceyhun Bayramov Azərbaycan və Ermənistan liderlərinin daha sonra görüşdüyünü və XİN rəhbərlərinə danışıqlarla bağlı işləmək üçün göstərişlər verildiyini, bundan sonra oktyabrda Cenevrədə, bir neçə gün öncə Vaşinqtonda erməni həmkarı Ararat Mirzoyan və ABŞ dövlət katibi Antoni Blinkenlə bir araya gəldiklərini bildirib.

# Kişineuda Zəfər Günü və "Şuşa ili"nə həsr olunmuş barelyefin açılışı





Azərbaycanın Moldovadakı səfirliyinin binası önündəki bağçada Zəfər Günü və "Şuşa ili"nə həsr olunmuş barelyefin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, rəsmi açılış mərasimində Moldova parlamentinin vitse-spikeri Mixail Popşoy, Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, Moldovanın mədəniyyət naziri Serdjiu Prodan, Azərbaycanın bu ölkədəki fövqəladə və səlahiyyətli səfiri Qüdsi Osmanov, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov və Moldova Azərbaycanlıları Konqresinin sədri Elçin Bayramov iştirak ediblər. Həmçinin tədbirə Moldovada akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, ictimai xadimlər, Azərbaycan diasporunun üzvləri, yerli KİV nümayəndələri qatılıblar.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə canlarından keçmiş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad olunub. Sonra Azərbaycan və Moldovanın Dövlət himnləri səsləndirilib.

Səfir Qüdsi Osmanov çıxışında bildirib ki, Zəfər Günündə Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhərinə həsr olunmuş barelyefin açılışını etmək böyük şərəfdir.

"Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə regionun aparıcı dövlətlərindən biri hesab olunur. Ölkəmiz gələcək nəsillər naminə regionda sülh, təhlükəsizlik və sabitliyə sadiqdir. İşğaldan azad edilmiş ərazilərdə hazırda genişmiqyaslı tikinti-bərpa işləri aparılır. "Ağıllı şəhərlər" və "ağıllı kəndlər", hava limanları, avtomobil və dəmir yolları tikilir, kənd təsərrüfatı təyinatlı torpaqlar becərilir. Füzuli və Zəngilanda beynəlxalq hava limanları istifadəyə verilib. Bu nəcib, mühüm və tarixi missiyada bizə dəstək olan bütün ölkələrə təşəkkür edirik", - deyə səfir əlavə edib.

Qüdsi Osmanov vurğulayıb ki, Azərbaycan Moldova ilə ən yüksək səviyyədə olan münasibətlərə böyük əhəmiyyət verir. Azərbaycan və Moldova bir-birinin ərazi bütövlüyünü dəstəkləyir.

"Hesab edirəm ki, bu barelyefin açılması ölkələrimiz arasında ikitərəfli münasibətlərdə daha bir əlamətdar hadisədir. Səfirliyin qarşısındakı bu meydanı paytaxt sakinləri üçün Azərbaycanın tarixi və mədəniyyəti haqqında nadir muzey adlandırmaq olar", - deyə səfir qeyd edib.

Azərbaycanla Moldova arasında münasibətlərin yüksək səviyyədə olduğunu deyən Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli bildirib ki, iki ölkə beynəlxalq platformalarda bir-birini dəstəkləyir. "Azərbaycan işğaldan azad olunan ərazilərində bərpa və yenidənqurma işlərinin aparılmasına Moldovanın göstərdiyi dəstəyi yüksək qiymətləndirir. 44 günlük Vətən müharibəsindən sonra Moldova parlamentinin sədri İqor Qrosu işğaldan azad olunan Şuşa şəhərinə səfər edib. Bunun özü Moldovanın Azərbaycana açıq siyasi dəstəyidir. Kişineunun mərkəzində Şuşaya dair barelyefin açılması da bu dəstəyin tərkib hissəsidir".

Əli Hüseynli bildirib ki, iki il əvvəl Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz Şuşanı işğaldan azad etdi. Azərbaycan öz ərazi bütövlüyünü təmin edib və bu gün regionda sülhün tərəfdarıdır.

Moldova parlamentinin vitse-spikeri Mixail Popşoy, mədəniyyət naziri Serdjiu Prodan da çıxışlarında ikitərəfli münasibətlərin əhəmiyyətindən danışıblar. Qeyd edilib ki, Şuşaya dair barelyefin açılışı iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olmasının bariz nümunəsidir. Bu mədəniyyət abidəsi şəhərin turistləri üçün də cəlbedici olacaq.

Qeyd edək ki, barelyefin üzərində "Şuşa qalası" və "Yuxarı Gövhər ağa məscidi" kompozisiyaları, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşa haqqında söylədikləri sözlər təsvir olunub.

Sonra qonaqlar səfirliyin həyətində Azərbaycan ilə Moldova arasında dostluq rəmzi olaraq ağac əkiblər və 44 günlük Vətən müharibəsinə dair sərgi ilə tanış olublar.

Tədbir Moldova KİV-i tərəfindən geniş işıqlandırılıb.

# Azərbaycan və Moldova parlamentləri arasında əlaqələr genişləndirilir



Azərbaycan və Moldova parlamentləri arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük potensial mövcuddur.

AZƏRTAC xəbər verir ki, bu fikri Kişineuda səfərdə olan Azərbaycan Milli Məclisi Sədrinin birinci müavini Əli Hüseynli ilə görüşündə Moldova parlamentinin sədri İqor Qrosu söyləyib.

Spiker vurğulayıb ki, Moldova bir çox sahələrdə Azərbaycanla əməkdaşlığın inkişafında maraqlıdır.

"Ölkələrimiz arasında parlamentlərarası əməkdaşlığın genişləndirilməsi olduqca əhəmiyyətlidir. Moldova Avropa İttifaqı ölkələri ilə sərhəddə yerləşən dövlət kimi əlverişli mövqeyə malikdir. Ölkəmizdə birgə layihələrin həyata keçirilməsi üçün yaxşı imkanlar mövcuddur", - deyə İqor Qrosu əlavə edib.

Milli Məclisin Sədri Sahibə Qafarovanın salamlarını çatdıran Əli Hüseynli isə Moldova parlamentinin sədrinin Azərbaycana səfərini xatırladaraq bildirib ki, bu gün iki ölkə parlamentləri arasında əlaqələr dostluq münasibətlərinə söykənib.

Əli Hüseynli dövlət başçılarının və hökumət rəsmilərinin qarşılıqlı səfərləri zamanı imzalanmış sənədlərin ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərinləşməsində əhəmiyyətindən danışıb və vurğulayıb ki, bu sənədlərin əhatə dairəsinin genişləndirilməsi üçün böyük potensial mövcuddur. Milli Məclis Sədrinin birinci müavini qeyd edib ki, Azərbaycan regionun lider dövləti kimi Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş müstəqil siyasət həyata keçirir və bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tərəflər Azərbaycan və Moldovanın qanunvericilik orqanlarının qarşılıqlı fəaliyyətinə dair fikir mübadiləsi aparıblar, parlamentlərarası dostluq qruplarının fəaliyyətini, iki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

Görüşdə həmçinin hər iki tərəfi maraqlandıran digər məsələlər də müzakirə edilib.

Müzakirələrdə Azərbaycanın Moldovadakı fövqəladə və səlahiyyətli səfiri Qüdsi Osmanov, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, Moldova Azərbaycanlıları Konqresinin sədri Elçin Bayramov da iştirak ediblər.

# QARABAĞ AZƏRBAYCANDIR!



**Qarabağ Azərbaycandır!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin leksikonumuza gətirdiyi fəxarət dolu bu ifadəni bu gün hər birimiz qürurla söyləyirik.**

**Ucadan, ürəklə, ağızdolusu səsləndiririk!**

*Qalib ölkənin məğrur, xoşbəxt vətəndaşı kimi bütün dünyaya car çəkirik!*

*Ordusunu məhv etdiyimiz, özünü rəzil günə qoyduğumuz qorxaq düşmənə acıqla, qıcıqla eşitdiririk!*

Bəli!

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin şücaəti və hünəri...**

**Azərbaycan Ordusunun, əsgər və zabitlərimizin qəhrəmanlığı...**

**Azərbaycan xalqının birliyi və dəyanəti, dövlətə və orduya dəstəyi sayəsində bütün dünyaya səslənirik:**

**Qarabağ Azərbaycandır!**

❖ ❖ ❖

Bu sözü söyləyə bilmək üçün çox uzun, sınaqlı və məşəqqətli yol keçdik.

Çadır şəhərciklərində yaşadıq, işsiz, çörəksiz, yayda istidə, qışda soyuqda qaldıq.

Bizim belə günə düşməyimizin səbəbkarlarından biri olan naşıların, şəxsi mənafeyini milli maraqlardan üstün tutanların, dövlət idarəçiliyindən xəbəri olmayanların yaratdıqları anarxiya, xaos və özbaşınalıq burulğanında boğulduq, olub-qalan ümidimizi itirdik.

**Nə yaxşı ki, Ulu Öndərimiz geri qayıtdı, ölkəyə, dövlətə sahib çıxdı, ölmüş ümidlərimizi də diriltdi.**

*Təəssüf ki, əcəl Ümummilli Liderimiz Heydər Əliyevin öz planlarını tam həyata keçirməsinə imkan vermədi.*

*Bu siyasi kursu İlham Əliyev ləyaqətlə davam etdirdi, bütün ağırlığı və məsuliyyəti öz çiyinlərinə götürdü.*

**Beləliklə, müstəqil Azərbaycanın inkişafının İlham Əliyev erası başladı...**

**Cənab İlham Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən işğal altındakı torpaqların qaytarılması barədə düşünür, bu istiqamətdə əməli addımlar atırdı.**

Amma məsələ o qədər də asan və sadə deyildi!

- BMT-nin Təhlükəsizlik Şurası qəbul etdiyi 4 məlum qətnaməsini yerinə yetirmək istəmirdi;
- ATƏT-in Minsk qrupu mənasız sülh danışıqları, boş turist səfərləri ilə baş qatırdı;
- Düşmən sülhə gəlmək, torpaqları danışıqlar yolu ilə qaytarmaq niyyətində olmadığını açıq-aşkar bəyan edirdi;
- Beynəlxalq hüquq işləmir, beynəlxalq təşkilatlar erməni mövqeyini müdafiə edir, ikili standartlar hökm sürürdü!

**Belə bir məqamda Prezident İlham Əliyev ən doğru və uzaqgörən qərarını qəbul edərək Qarabağı hərbi yolla azad etmək üçün gərgin fəaliyyətə başladı, gizli və aşkar hazırlıqlara start verdi:**

- Müstəqil Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdi;
- Hücum diplomatiyasının tətbiqinə başlanıldı və uğurlu nəticələrə nail olundu;
- Beynəlxalq qurum və təşkilatlarda Azərbaycanın haqq işinin müdafiəsi gücləndirildi, ölkəmiz özünə xeyli sayda yeni dostlar qazandı;
- Yeni gənclər nəsli tərbiyələndirilərək onların da iştirak etdiyi möhtəşəm ordu quruldu, ən yeni və müasir silahlarla silahlandırıldı;
- Xüsusi Təyinatlı Qüvvələr, yeni zabit kadrları korpusu hazırlandı;
- Azərbaycan xalqının milli birliyi yaradıldı, Azərbaycan cəmiyyəti bir yumruq halına gətirildi.

Ermənistanın yeni baş naziri Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" deyərək torpaqlarımızı geri verməyəcəklərini açıq şəkildə bəyan etdikdə isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin səbir kasası daşdı.

❖ ❖ ❖

**Azərbaycan Prezidenti cənab İlham Əliyev müasir dövrün ən müdrik, ən uzaqgörən, nəyi nə vaxt və necə edəcəyini yaxşı bacaran dövlət başçılarından sayılır.**

*İlham Əliyev Paşinyanın ağzından vurmağa, ona cavab verməyə tələsmədi, bunun üçün əlverişli məqam və məkan seçdi!*

*Diletant erməni baş nazirə bütün dünyanın eşidəcəyi yerdə cavab verdi.*

Əvvəlcə "Valday" Beynəlxalq Diskussiya Klubunda Qarabağın kimə məxsus olduğunu ermənipərəstlərin də diqqətinə çatdırdı.

Münhen Təhlükəsizlik Konfransında isə Qarabağın məhz Azərbaycana məxsus olduğunu dünyaya bəyan etdi, tarixi faktlarla sübuta yetirdi.

Həm də Ermənistanın baş nazirinin yalanlarını ifşa etdi, hamının gözü qarşısında onu məsxərəyə qoydu!

Sonra isə "dəmir yumruğ"unu düyünlədi!

❖ ❖ ❖

**Qudurmuş Ermənistanı yerində oturtmaq, torpaqları azad etmək üçün 27 sentyabr 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatına başlanıldı.**

*Sözü ilə əməli bir olan Azərbaycan Prezidenti İlham Əliyev Qarabağın həqiqətən Azərbaycana məxsus olduğunu əməli addımları, üç cəbhədə - hərbi əməliyyatlar, diplomatiya və informasiya savaşında möhtəşəm qələbələri ilə sübuta yetirdi!*

*Özünün qurduğu, strategiya və taktikasını müəyyən etdiyi qalib ordusu ilə!*

XXI əsrin ən yeni müharibəsini aparan Azərbaycan Ordusu 44 gün ərzində möcüzələr yaratdı:

- Düşmənə göz açmağa imkan vermədi, yerdən, göydən başına od yağdırdı, bir-birinin ardınca şəhər və kəndləri, yaşayış məntəqələrini azad etdi.
- Erməni generallarını dabanlarına tüpürərək Azərbaycandan qaçmağa məcbur etdi, Ermənistan ordusunu fərarilər, qorxaqlar dəstəsinə çevirdi.

**"Dəmir yumruğ"un qarşısında tab gətirməyən düşmən yalvara-yalvara kapitulyasiya aktına qol çəkdi!**

❖ ❖ ❖

**Artıq bütün dünya bilir ki, Qarabağı Azərbaycana yenidən Müzəffər Ali Baş Komandan İlham Əliyev qaytardı!**

Düşmənin "məğlubedilməz" ordusunu məhv edərək qaytardı!

Düşmənin başını əzərək, diz çökdürərək, qaranlıq bir yerdə kapitulyasiya aktına imza atdıraraq qaytardı!

Vətənpərvər, hünərli və qeyrətli Azərbaycan əsgər və zabitlərinin kütləvi rəşadəti və qəhrəmanlığı sayəsində qaytardı!

Yetişdirdiyi yeni nəsil gənclərin təmsil olunduğu Xüsusi Təyinatlı Qüvvələrin Şuşanı yalın əllə almaları hesabına qaytardı!

**Qarabağ sözün həqiqi mənasında Azərbaycan oldu!**

**Qarabağ əbədi Azərbaycanın oldu!**

**Qarabağ əsl sahibinin, bu torpağa haqqı çatanların, onun uğrunda ölümə belə gedənlərin oldu!**

*Bu gün biz qalib millətik!*

*Bu gün biz məğrur millətik!*

*Bu gün biz birləşərək "dəmir yumruğ"a çevrilən millətik!*

*Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı "dəmir yumruğ"a!*

❖ ❖ ❖

**Artıq bütün dünya bilir - Qarabağın əsl sahibləri geriyə, doğma yurdlarına qayıdıblar!**

**Artıq kimsədə şübhə yoxdur ki, Qarabağ Azərbaycandır!**

**Bəxtiyar SADIQOV**

# Zəfər tariximizin Şuşa zirvəsi

Uzun illərin həsrəti o gün bitdi. Qürurumuzu əzən kədəri, qəmi könlümüzdən atdıq.

O gün ki Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev böyük fəxarət və qürur hissi ilə Şuşa şəhərinin işğaldan azad olunduğunu bəyan etdi: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik".

## Azərbaycan xalqının qəlbində xüsusi yeri olan şəhər

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev o gün bir daha diqqətə çatdırdı ki, otuz ilə yaxın mənasız danışıqlar bizi heç bir nəticəyə yaxınlaşdırmadı. Otuz ilə yaxın işğal altında qalan əzəli tarixi torpaqlarımız əsgərlərimizin, zabitlərimizin canı, qanı bahasına azadlığına qovuşdu. Şuşa fatehləri dünyada görünməmiş, yazılmamış bir qəhrəmanlıq nümunəsi göstərdilər. Qala şəhəri müasir silahların qüdrəti ilə deyil, hərbçilərimizin qeyrəti, vətən sevgisinin gücü ilə düşməndən geri alındı.

O əsgər və zabitlər ki Vətən müharibəsinin ilk günlərindən düşməni vəlvələyə saldılar. Sentyabrın 27-dən noyabrın 8-dək 200-dən çox şəhər, kənd, qəsəbə işğaldan azad edildi. Azərbaycan oğulları Vətənin dar günündə qəhrəman olduqlarını dünyaya yenidən xatırlatdılar. Odur ki, Prezident, Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqına Şuşanın azad olunması müjdəsini verəndə fəxrlə dedi: "Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!"

O igidlər döyüş meydanında Ermənistan silahlı qüvvələrini məğlub edə-edə otuz ilə yaxın işğal altında qalan torpaqlarımızın hər qarışını - hər kəndini, qəsəbəsini, rayonunu, şəhərini, dağını, dərəsini, təpəsini, yamacını azad etdikcə könlümüz həsrətlə gözlədiyi sevincə bələndi. Şadlandıq, qürurlandıq, kövrəldik...

Ancaq Zəfərimiz Şuşa ilə taclanmalı idi. Vətən müharibəsinin davam etdiyi günlərdə Prezident İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində demişdi: "İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

Alınmaz qala sayılan bu şəhər işğaldan azad olunduqdan sonra mənfur düşmənin Vətən müharibəsində məğlub olduğunu etiraf etməkdən başqa çarəsi qalmadı.

## İşğalçıların tarixini saxtalaşdırmağa güclərinin yetmədiyi şəhər

İyirmi səkkiz il yarım işğal altında olan Şuşanın Azərbaycan tarixində xüsusi yeri var. Bu qədim və gözəl şəhərin hər daşı, bənzərsiz memarlıq nümunəsi olan hər tikilisi tariximizin bir hissəsidir. Odur ki, riyakar ermənilərin Şuşanın tarixini saxtalaşdırmaq, onu erməniləşdirmək cəhdləri hər zaman nəticəsiz qalıb. Bu qala şəhərin təməlinin 1752-ci ildə Qarabağ hökmdarı Pənahəli xan tərəfindən qoyulduğunu, bu səbəbdən ilk çağlarda Şuşa ilə yanaşı, xanın şərəfinə Pənahabad da adlandırıldığını unutdura bilməyiblər. 1992-ci il mayın 8-də - erməni işğalına məruz qalanadək də Şuşa başdan-başa tarixi bir Azərbaycan şəhəri idi. Şəhərin Seyidli, Culfalar, Quyuluq, Çuxur məhəllə, Dörd çinar, Dördlər qurdu, Hacı Yusifli, Çöl qala, Qurdlar, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçilər, Hamamqabağı, Merdinli və Təzə məhəllə adlandırılan 17 məhəlləsi vardı.

Şəhərin adının mənşəyi barədə ayrı-ayrı mənbələrdə müxtəlif fikirlər irəli sürülüb. Eramızın II əsrində yaşamış qədim Roma tarixçisi Tasit Korneli Qafqaz ərazisində dondar türk tayfasına məxsus Sosu (latın dilində "ş" səsi yoxdur) şəhərinin olması haqqında məlumat verib. Əfsanəyə görə, bu yerlərin havası büllur kimi saf və şəfalı olduğu üçün onu "Şuşa" (şüşə) adlandırıblar. "Şuşa" sözünün Azərbaycanda skiflərə məxsusluğunun ehtimal olunduğu mənbələr də mövcuddur.

Şəhər şiş qayalarla əhatələndiyinə görə, bəzən "Şişə" də adlandırılıb. Bəzi tədqiqatlarda isə Şuşa sözü türk dilində mənası "uc", "yüksək" olan "şiş" komponenti ilə izah edilib. Tədqiqatçılar arasında Şuşa adının Makedoniyalı İsgəndərlə vuruşan qədim türk sərkərdəsi Şunun (e. ə. 344-334) tikdirdiyi "Su" qalası ilə eyniliyini, Şumer (şu+er) adı ilə səsləşdiyini qeyd edənlər də olub. Tarixi mənbələr müxtəlif olsa da, onların hər birində Şuşa şəhərinin adı türk tayfaları və türk sözləri ilə əlaqələndirilib.

Bu əsrarəngiz şəhərin başı tarixin müxtəlif dönəmlərində çox bəlalar çəkib. Hələ feodal ara müharibələri dövründə qala dəfələrlə ağır sınaqlarla üzləşməli olub. Qalaya hücum edən Məhəmməd Həsən xan Qacar, Fətəli xan Əfşar, Ağa Məhəmməd şah Qacar onu ala bilməyiblər.

Şuşa XVIII əsrdə Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilib. Şəhər böyük, güclü sədlə əhatə edilib. Sənətkar məhəllələri salınıb. Şuşalı tacirlər İran və Rusiya şəhərləri ilə ticarət əlaqələri yaradıblar. Burada Pənahabadi adlanan gümüş sikkə də zərb olunub.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Qafqazın musiqi mərkəzi sayılıb. Şuşanı "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi", "Kiçik Paris", "Zaqafqaziyanın konservatoriyası" adlandırıblar. Burada XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edib. Şöhrətli şəhərin XX yüzillikdə də başı çox müsibətlər çəkib. Qarabağın göz bəbəyi Şuşa şəhəri 1905-ci, 1920-ci və 1992-ci illərdə üç dəfə yandırılıb. 1992-ci il mayın 8-də erməni hərbi birləşmələri tərəfindən işğala məruz qalıb. Qəddar ermənilər tərəfindən şəhərdə 195 nəfər azərbaycanlı xüsusi amansızlıqla qətlə yetirilib, 165 nəfər yaralanıb, onlardan 150 nəfəri əlil olub, 552 körpə valideynlərini itirib. Əsir və girov götürülmüş 58 azərbaycanlının taleyi barədə məlumat yoxdur. 20 mindən artıq əhali isə doğma yuvasını tərk edərək məcburi köçkün həyatı yaşamalı olub.

Azərbaycanlıların tarixi izlərini silmək üçün hər vasitəyə əl atan erməni vandalları 600-ə yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini dağıtdılar. 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbi, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, eləcə də Şuşa Tarix Muzeyini, Azərbaycan Xalça Muzeyinin filialını və xalq tətbiqi sənəti muzeyini, Qarabağ Dövlət Tarix Muzeyini, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini yerləyeksan etdilər. İşğalçı ermənilər nadir sənət incilərini taladılar. Şəhərin tarixi muzeyinin 5 minədək eksponatını, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi Şuşa filialı, Dövlət Qarabağ Tarixi Muzeyinin minədək əşyasını, xatirə muzeylərinin fondlarını qarət etdilər.

Bu qədər vəhşiliklər törətməklə, şəhərin əsl tarixini saxtalaşdırmağa cəhd göstərməklə həqiqətləri unutdura bilməyəcəklərinin hər zaman fərqində olan təcavüzkar ermənilər işğal etdikləri Şərqi Zəngəzur və Qarabağın digər əraziləri kimi, Şuşada da kök salmağa müvəffəq olmadılar. Ermənilər bu torpaqların əzəli və əbədi sahiblərinin bir gün geri dönəcəyi qorxusunu, xofunu ürəklərindən ata bilmədilər.

Müzəffər ordumuz Azərbaycanın tarixi ərazilərindən Ermənistan silahlı qüvvələrini qovdu. Düşmənlərin otuz ilə yaxın davam edən işğalına son qoyuldu. Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın qurtuluş günü 8 noyabr 2020-ci il oldu. Azərbaycan Silahlı Qüvvələri şəhəri işğaldan azad etdi. Zəfər Günündə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqını müjdələdi: "Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlərboyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir... Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır".

Şərəfimiz, şanımız, qürurumuz olan üçrəngli, ay-ulduzlu müqəddəs Azərbaycan bayrağı Şuşanın başı üzərində əbədi dalğalanacaq.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

1992 2022

YENİ AZƏRBAYCAN PARTİYASI 30

*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*

# Ümumxalq partiyası

Azərbaycanın ictimai-siyasi həyatında aparıcı rol oynayan, formalaşdığı gündən xalqın partiyasına çevrilən, Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının yaranmasından 30 il ötür. Ötən illər ərzində zəngin və şərəfli yol keçən YAP Ümummilli Liderin siyasi mirası olaraq siyasi ləyaqət etalonu yaradıb.

Hər hansı bir partiyanın, təşkilatın keçdiyi yola nəzər salarkən, ilk növbədə onun hansı ictimai-siyasi şəraitdə yaranması və fəaliyyəti qabardılmalıdır. SSRİ-nin və Kommunist Partiyasının süqutundan sonra müstəqillik əldə etmiş digər respublikalarda olduğu kimi, Azərbaycanda da müxtəlif siyasi partiyalar formalaşmağa başladı. Amma bir-birinin ardınca yaranan partiyaların heç biri ölkəni üzləşdiyi ağır iqtisadi, siyasi, mənəvi böhrandan xilas edə bilmədi.

Azərbaycanın gələcəyinin sual altında olduğunu görən ölkənin bir qrup ziyalısı yeni partiya yaratmaq təşəbbüsü ilə çıxış etdi. Elə bu məqsədlə də Azərbaycanın müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşmək qərarına gəlindi. 91 ziyalının imzası ilə Naxçıvana - Ulu Öndərə ünvanlanan müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq partiyaya rəhbərlik etmək xahiş olundu.

Heydər Əliyevin xalqın müraciətini qəbul etməsinə baxmayaraq, ozamankı hakimiyyət onun Bakıya gəlməsinə ciddi maneələr yaradırdı. Belə olanda partiyanı yaratmaq istəyənlərin bir qismi - 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək Yeni Azərbaycan Partiyasının təsis konfransını orada keçirməyə nail oldular. 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın proqram və Nizamnaməsi qəbul edildi. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Bununla da müstəqilliyini yenicə bərpa edən Azərbaycanın tarixində öz üzərinə böyük tarixi missiya götürən Yeni Azərbaycan Partiyası yarandı. Elə həmin il dekabrın 18-də YAP Ədliyyə Nazirliyində qeydiyyata alındı.



YAP-ın yaradılması şəraitin diktəsi ilə meydana gələn tarixi zərurət idi. Ulu Öndər də Yeni Azərbaycan Partiyasını Azərbaycanda gedən ictimai-siyasi proseslərin içindən çıxmış zərurət kimi dəyərləndirirdi: "Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan şəxslərin şəxsi təşəbbüskarlığı ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmışdır".

1993-cü il oktyabrın 3-də YAP-ın Sədri Heydər Əliyevin prezident seçilməsi ilə partiyanın həyatında yeni dövrün əsası qoyuldu.

Partiyanın 2005-ci il martın 26-da keçirilən III Qurultayında Azərbaycan Respublikasının Prezidenti, YAP Sədrinin birinci müavini İlham Əliyevin yekdilliklə Yeni Azərbaycan Partiyasının Sədri seçilməsindən sonra təşkilatın ölkənin siyasi həyatında tutduğu mövqe daha da möhkəmləndi, ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirdi.

2021-ci il martın 5-də Yeni Azərbaycan Partiyasının VII Qurultayı keçirildi. Partiyanın yeni Nizamnaməsinə uyğun olaraq, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin sərəncamı ilə Mehriban xanım Əliyeva partiya sədrinin birinci müavini təyin edildi. Qurultayda İdarə Heyətinin, Təftiş Komissiyasının yeni tərkibi, habelə yeni yaradılan Veteranlar Şurasının sədri, müavini və üzvləri seçildi.

Yeni Azərbaycan Partiyası yaranmasının 30 illiyini 44 günlük Vətən müharibəsində Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Odrumuzun qazandığı Qələbənin ikinci ilinin sevincini yaşadığımız günlərdə qeyd edir.

Bu gün Yeni Azərbaycan Partiyası sözün əsl mənasında ümumxalq partiyasına çevrilib. Bu partiya ölkəmizin siyasi, iqtisadi, ictimai və demokratik inkişafı istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Nüfuzu gündən-günə artan YAP Cənubi Qafqazın ən böyük siyasi partiyasına çevrilib. Ötən illər ərzində monolitliyini qoruyub-saxlamağın nəticəsidir ki, bu gün YAP ölkədə özünə qarşı rəqib tanımır. Azərbaycan Prezidenti, YAP Sədri İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir. Çatışmayan cəhətləri aradan qaldırmaq, sosial ədaləti daha da böyük dərəcədə bərqərar etmək üçün biz bundan sonra da fəal çalışmalıyıq".

Partiyanın uğurları Ümummilli Lider Heydər Əliyevin qoyduğu siyasi irs, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə inamın ifadəsidir. Bu gün sevinclə deyə bilərik ki, Heydər Əliyevin ideyaları Prezident, Ali Baş Komandan, YAP Sədri İlham Əliyev tərəfindən sədaqətlə, daha müvəffəqiyyətlə həyata keçirilir. YAP-ın qurucusu, Ulu Öndərin dediyi sözləri xatırlamamaq olmur: "Yeni Azərbaycan Partiyası dünənin, bugünün, gələcəyin partiyasıdır".

Həqiqətən də, dünənin və bugünün partiyası olan YAP-ın gələcəyin də partiyası olacağını əminliklə deyə bilərik.

***Oqtay ƏSƏDOV,***
***Milli Məclisin deputatı***

# YAP-ın 30 illik yubileyinə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə turnirin final mərhələsi keçirilib

Noyabrın 9-da Yeni Azərbaycan Partiyasının (YAP) 30 illik yubileyinə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə turnirin final mərhələsi keçirilib. Bu barədə AZƏRTAC-a YAP-dan bildirilib.







YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdir müavini Zəkiyyə Musayeva turnir barədə hesabat təqdim edərək bildirib ki, oktyabrın 30-da start götürən turnirdə sərbəst güləş üzrə 65, 70, 74, yunan-Roma güləşi üzrə isə 67, 72 və 77 kq çəki dərəcələrində ümumilikdə 312 gənc mübarizə aparıb. Yarışların qrup mərhələsi Bakı, Abşeron, Ağcabədi, Göygöl, Qəbələ, Astara və Kürdəmirdə keçirilib, final yarışları isə Bakı şəhərində təşkil olunub.

Tədbirdə sərbəst güləş üzrə I, II, III yerlərin qalibləri - 65 kq çəki dərəcəsində Rəşid Babazadə (Abşeron), Toğrul Kamallı (Qax), Elşən Babayev (Kəlbəcər), 70 kq çəki dərəcəsində Omar Gülməmmədov (Nərimanov), Nicat Əliyev (Qazax), Mircavad Nəbiyev (Xətai), 74 kq çəki dərəcəsində Mürşid Hüseynov (Füzuli), Rəvan Əliyarov (Qəbələ), Əli Əliyev (Astara), yunan-Roma güləşi üzrə isə 67 kq çəki dərəcəsində Rəsul Xəlilov (Balakən), Mirsirac Həsənli (Hacıqabul), Şamil Sultanəliyev (Səbail), 72 kq çəki dərəcəsində Ağaseyid Əlizadə (Abşeron), Ceyhun İsmayılov (Binəqədi), Nihad Qocayev (Qax) və 77 kq çəki dərəcəsində Aqil Musayev (Binəqədi), Tural Bayramov (Sumqayıt), Həsən Əliyev (Mingəçevir) müvafiq diplomlar, medallar və xatirə hədiyyələri ilə təltif olunublar.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev tərəfindən oyunları idarə edən hakimlərə xatirə hədiyyələri təqdim olunub.

Sərbəst güləş üzrə 65 kq çəki dərəcəsində qalibləri YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu, 70 kq çəki dərəcəsində qalibləri YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə, 74 kq çəki dərəcəsində isə qalibləri YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov təltif edib.



Yunan-Roma güləşi üzrə 67 kq çəki dərəcəsində qalibləri YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin, 72 kq çəki dərəcəsində qalibləri YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, 77 kq çəki dərəcəsində isə qalibləri YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov təltif edib.

Turnirin bağlanış mərasimində çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, turnirin final mərhələsi Azərbaycan xalqının həyatında əlamətdar tarixə - Dövlət Bayrağı Gününə təsadüf edir. Eyni zamanda xalqımızın Zəfər bayramını qeyd etdiyini xatırladan Tahir Budaqov vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması son 200 illik tariximizin zirvə hadisəsidir. YAP Sədrinin müavini əlavə edib ki, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsi təkcə ölkəmizin ərazi bütövlüyünün deyil, eyni zamanda xalqımızın milli qürurunun bərpasıdır.

Azərbaycan gəncliyinin vətənpərvərlik ruhunda yetişdiyini diqqətə çatdıran Tahir Budaqov turnirdə iştirak edən gəncləri təbrik edərək onlara həyat və fəaliyyətlərində uğurlar diləyib. YAP Sədrinin müavini partiyasının 30 illik yubileyi münasibətilə tədbir iştirakçılarını təbrik edib.

Yeni Azərbaycan Partiyasının 30 illik yubileyinə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə turnir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

# YAP-ın təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar silsilə tədbirlər davam edir

Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş tədbirlər planına uyğun olaraq silsilə tədbirlər davam edir.



Tədbirlər planı çərçivəsində noyabrın 10-da partiyanın İsmayıllı, Abşeron və Şuşa rayon təşkilatları tərəfindən tədbirlər keçirilib.



Tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Keçirilən tədbirlərdə - İsmayıllı rayonunda YAP İsmayıllı Rayon Təşkilatının sədri Zaur Muradov, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin, YAP Veteranlar Şurasının üzvü Misir Mərdanov, Abşeron rayonunda YAP Abşeron Rayon Təşkilatının sədri Abbas Əliyev, YAP Veteranlar Şurasının üzvü Əli Həsənov, YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, Şuşa rayonunda YAP Şuşa Rayon Təşkilatının sədri Təvəkkül Əliyev, YAP İdarə Heyətinin üzvü, Ailə Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov, Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov və başqaları çıxış ediblər.

Çıxışlarda Yeni Azərbaycan Partiyasının 30 il ərzində keçdiyi zəngin və şərəfli inkişaf yoluna nəzər salınıb. Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edən müstəqil, qüdrətli və qalib Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı möhtəşəm nailiyyətlərdən ətraflı bəhs edilib.

Tədbirlərdə YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri və partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ





# Milli birliyimizin uğur yolu

İllər idi ki, ürəyimizdə Qarabağ boyda dərd böyüdürdük. İllər idi ki, bütün arzularımızın, istəklərimizin, xəyallarımızın, dualarımızın ünvanı Qarabağ idi. 30 ilə yaxın bir zaman idi ki, ermənilər havadarlarının, Azərbaycanın müstəqilliyini istəməyən, qüdrətlənməsini gözü götürməyən dövlətlərin himayəçiliyi ilə Qarabağı işğal edib xarabazara çevirmişdilər.

Qarabağ sinəmizin dərdli yarası idi. Atəşkəs elan olunsa da, münaqişənin danışıqlar yolu ilə həllinə beynəlxalq güclərin, böyük dövlətlərin təmsil olunmasına vasitəçilik etmək məqsədilə yaranan Minsk qrupu və onun həmsədrləri əslində hər vasitə ilə status-kvonu qoruyub saxlamaqdan başqa heç nəyə nail ola bilmirdilər. Əslində onların istədikləri də elə bu idi: problemi dondurub saxlamaq, ermənilərin Qarabağda mövqelərini daha da möhkəmləndirmələri üçün şəraiti təmin etmək.

Azərbaycan hakimiyyətinin problemin sülh yolu ilə həlli üçün göstərmiş olduğu çabaları da təəssüf ki, qarşı tərəfdən düzgün dəyərləndirilmirdi. Əksinə, özgələrin kölgəsində boylarını böyük görən mənfur düşmən daha da azğınlaşaraq təhdidlərini davam etdirirdi. Ermənistan rəhbərləri hətta Azərbaycan əsgərinin və xalqının heysiyyətinə toxuna biləcək ifadə və hərəkətlərdən çəkinmirdi. Odur ki, Azərbaycan sülh danışıqlarını davam etdirməklə yanaşı, problemin hərbi müstəvidə həllinə də hazırlaşırdı. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin şəxsi nəzarəti altında ordu quruculuğuna xüsusi diqqət verilir, hərbi xərclər ildən-ilə artırılır, şəhid və qazi ailələri dövlətin qayğı və diqqəti mərkəzində saxlanılır, əsgər və zabitlərin, hərbi qulluqçuların sosial problemlərinin həlli istiqamətində xüsusi dövlət proqramları həyata keçirilirdi. Əsgərlərimizin döyüş hazırlığı, ordunun müasir silahlarla təchizatı, yeni növ silahlardan istifadə vərdişləri və peşəkarlığı da bilavasitə Ali Baş Komandanın nəzarəti altında gücləndirilirdi.

Prezidentin "Biz torpaqlarımızı heç kimə güzəştə getməyəcəyik", "Sülh yolu ilə həll edilməsə, problemin hərbi yolla həlli qaçılmazdır", "Qarabağ Azərbaycandır!" kimi qətiyyətli bəyanat və çağırışları Qarabağın Azərbaycan olduğuna heç kimdə şübhə yeri qoymurdu. Azərbaycan cəmiyyəti, xüsusilə gənclər düşmənin təxribatçı davranışına cavab olaraq israrla müharibə çağırışları edir, zəbt olunmuş torpaqlarımızı döyüş yolu ilə geri qaytarmaq əzmində olduqlarını bildirirdilər. Müharibə artıq xalqın əksər hissəsinin sosial sifarişinə çevrilmişdi.

27 sentyabr 2020-ci ildə Ermənistan ordusunun ərazilərimizi işğal etmək niyyəti ilə ağır artilleriyanın, uzaqvuran topların gücündən istifadə edərək genişmiqyaslı hərbi əməliyyatlara başlaması Azərbaycan Silahlı Qüvvələrinin işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün son və həlledici döyüşə başlaması ilə nəticələndi.

## Qarabağ Azərbaycandır!

27 sentyabr səhəri cəbhəyanı rayonların sakinləri yuxudan erməni toplarının, raketlərinin atəş səslərindən oyandılar. Rəşadətli Azərbaycan Ordusu düşmənin növbəti hücumunu dəf etmək üçün dərhal əks-hücum əməliyyatına başladı. Azərbaycan Prezidenti, Ali Baş Komandan xalqa müraciət edərək Azərbaycan Ordusunun başlamış olduğu sülhə məcburetmə əməliyyatı barədə məlumat verdi.

Müharibə xəbəri adətən insanlarda qorxu, çaşqınlıq, dərd, qayğı yaradır. Bu dəfə isə tam əksini gördük. Xalq Qarabağda müharibənin başlanması xəbərini coşqu ilə, sevinclə qarşıladı. Müzəffər Ali Baş Komandanın müraciətlərindəki qətiyyəti, ordumuza etibarı gördü və rəhbərə olan inamı daha da artdı. Əmin oldu ki, onun "dəmir yumruğ"u ərazilərimizi bütövləşdirmək, düşməni öz yerində oturtmaq, üstümüzdə olan məğlubiyyət ləkəsini təmizləmək üçün düyünlənib.

Hələ prezidentliyinin ilk günlərində İlham Əliyev xalqa müraciətlə demişdir: "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi ğörsün və onu hiss eləsin". Sentyabrın 27-də xalq qarşısında illərdir arzuladığı, xəyalını qurduğu Prezidentini görürdü. Xalq bu qətiyyətli davranışın simasında arzularının gerçəkləşəcəyini, dualarının qəbul olunacağını hiss etdi. İllərdir xalqın birliyinə gələn yollar sentyabrın 27-də birləşdi.

Prezident -Xalq birliyi yarandı. Xalq bütövlükdə bir ordu oldu. Gənclərimiz hərbi səfərbərlik idarələrinin qarşısına axışdı. Analar oğullarının ardınca su ataraq "düşmənə çəpər, sinəsi sipər oğlum, düşməni əz, ona aman vermə" dedilər. Bir ailədən 2, bəzən də 3 qardaş eyni vaxtda cəbhəyə yola düşdü. Atalar və oğullar düşmənə qarşı eyni səngərdə döyüşdülər. Millət "hər şey qələbə, hər şey Vətən üçün!" deyə hayqırdı. Oğlu şəhid olan analar "Təki Vətən sağ olsun. Qisasa qisas!" dedilər.

44 gün davam edən bu müharibədə Azərbaycan tərəfinin bir nəfər də olsun fərarisi olmadı. On milyon əhalidən "döyüşə getmirəm" deyən də tapılmadı. Hər kəs ön cəbhədə, düşmənlə üz-üzə durub mərdi-mərdanə döyüşə can atdı. 27 sentyabrda Dağlıq Qarabağdakı şiş qayalar da atılan mərmi səslərindən diksinmədilər, qorxmadılar, başlarını əymədilər, qamətlərini düzəldib "çoxdandır sizi gözləyirik" dedilər. Böyük Kirs başını dik qaldırıb "Qarabağ Azərbaycandır!" deyə bağırdı. Bərgüşad və Qarqar çayları coşub daşaraq məhvərindən çıxmaqla sinəsi dağlı Qarabağın yarasına məlhəm olmaq istədi.

## "Könlüm keçir Qarabağdan..."

27 sentyabrda sanki Qarabağ xanı Pənahəli xanın da ruhu igidlərimizi salamladı. Üzeyir bəyin "Koroğlu"su daha möhtəşəm bir coşqu ilə nər oğulları həlledici döyüşə səslədi. Xan qızı Natəvan qollarını geniş açaraq bu yurdun qəhrəman oğullarına dastan qoşdu. Göylərdə sərgərdan dolaşan şəhid ruhları sanki dil açaraq Qarabağın əsl sahiblərinə "xoş gəldin" dedilər. Düşmənin ayağının altından yer qaçdı, başının üstündə göylər titrədi. Hər qayanın, hər daşın "Qarabağ Azərbaycandır!" hayqırtısı dağlarda əks-səda verərək sanki bütün dünyaya yayıldı.

## Prezident - Xalq birliyi

Müharibə günlərində xalq Azərbaycan əsgəri ilə Ali Baş Komandan tandemini görüb daha səfərbər oldu. Qısa zamanda ölkə sanki vahid bir komandaya çevrildi. Gənclərimiz sosial şəbəkələrdə düşmənin feyk xəbərlərini tutarlı faktlarla alt-üst edirdi. Diplomatlarımız sağdan-soldan üstümüzə yağdırılan böhtan və təhdidləri ifşa edir, polis və təhlükəsizlik orqanları, digər dövlət strukturları hərbi vəziyyət rejimində peşəkarcasına çalışırdılar.

Ordumuz isə mükəmməl taktiki-strateji hazırlıq əsasında dəqiq zərbələr, sərrast atəşlərlə düşmən ordusunu tar-mar edirdi. Hər gün düşmən işğalından azad olunan yeni-yeni şəhər və kəndlərimizdə, strateji nöqtələrdə Azərbaycan bayrağının dalğalanması xəbəri milli birliyimizi daha da gücləndirirdi. Qələbə xəbərləri itirilən əsgər acılarına, tökülən şəhid qanlarına bir məlhəm olurdu. Əsgər nəyin uğrunda canını fəda etdiyini yaxşı bilirdi. Müqəddəs şəhidlik zirvəsinə ucalan igidlərimizin gözləri arxada qalmırdı.

Hərbi əməliyyatların elə ilk anlarından rəzil vəziyyətə düşən azğın düşmən 2016-cı ilin Aprel döyüşlərində olduğu kimi, bu dəfə də döyüş meydanındakı uğursuzluqlarını öz xalqından və dünyadan gizlətməkdə idi. Bununla belə Nikol Paşinyanın təlaş içində zəng etmədiyi dövlət başçısı, döymədiyi qapı qalmadı. Onun ümidsiz vəziyyətdə qalaraq çabalaması hətta sosial şəbəkələrdə günün ən çox izlənən gülüş və ironiya mövzusuna çevrilmişdi. Çox güvəndiyi Rusiya, Fransa və ABŞ-dan real dəstək ala bilməməsi onu və komandasını aciz vəziyyətə salmışdı. Rusiya Prezidenti Vladimir Putin deyəndə ki, müharibə Azərbaycan ərazisində gedir, Azərbaycan Ordusu 30 il işğal altında saxlanılan torpaqlarını azad etmək uğrunda döyüşür və belə olan halda nə Rusiya, nə də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Ermənistan tərəfindən hərbi əməliyyatlara qoşula bilməz, ermənilərin olan-qalan ümidləri də puç oldu.

Azərbaycanın Ali Baş Komandanı isə ordunun və arxa cəbhənin balanslı və dinamik işini təşkil etməkdə idi. O, eyni zamanda qazanılan qələbələr, azad olunan ərazilər haqqında xalqı məlumatlandırırdı. Bu səmimiyyət, bu birlik vətəni sevən, onun bütövlüyünü arzulayan hər bir Azərbaycan vətəndaşının qəlbində Müzəffər Ali Baş Komandanın möhtəşəm abidəsini yaradırdı. Onun hər çıxışı xalq tərəfindən sevinc və sevgi ilə qarşılanaraq dillər əzbərinə çevrilirdi. Azərbaycan Ordusu düşmənin ağır texnikasını, hərbi gücünü məhv etdiyi kimi, Azərbaycan Prezidenti də düşmənin mənfur ideologiyasını, saxta xəbərlərini, yalan üzərində qurulmuş səltənətlərini darmadağın etməkdə idi. Erməni yalanlarına uyub üstümüzə gələn, dünyanın aparıcı media qurumlarında və informasiya agentliklərində kök salan ermənikimilər Müzəffər Ali Baş Komandanın qarşısında necə rəzil duruma düşdüklərini özləri də yaxşı dərk edirdilər. "Dəmir yumruq" əməliyyatı dəmir məntiq, dəmir iradə, zəngin hərbi, elmi və siyasi təcrübə ilə cilalandığı üçün düşmənin məhv ediləcəyi şübhəsiz idi.

Bir-birinin ardınca Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı rayonları, Hadrut qəsəbəsi, Xocavənd və Ağdərə rayonlarının kəndləri, düşmənin zaman-zaman davamlı olaraq üstümüzə od yağdırdığı strateji yüksəkliklər ordumuz tərəfindən azad edildi. Bununla belə düşmən xaricdən olan havadarlarının dəstəyi ilə hələ də təslim olmaq fikrində deyildi. Qarşıda Qafqazın mirvarisi olan Şuşanın azad olunması vəzifəsi dururdu. Noyabrın 8-də Şuşa da azad edildi. Şuşanın güclü qəhrəman əsgərlərimiz tərəfindən işğaldan azad edilməsi düşmənin belini qırdı, onu diz çökməyə, kapitulyasiya aktını imzalamağa məcbur etdi.

"Qələbə güc ilə qazanılır, ağıl ilə qorunub saxlanılır" deyiblər. Biz düşmənə birliyimizi, birliyimizdən yaranan gücümüzü göstərdik. Düşmənin 30 ildə fantastik xərc çəkib tikdiyi keçilməz istehkamlarla möhkəmləndirilmiş üç böyük rayonumuzu - Ağdam, Kəlbəcər və Laçını Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin noyabrın 10-da imzaladığı üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq heç bir itki vermədən, qan tökülmədən işğaldan azad etdik. Bununla da Azərbaycan öz ərazi bütövlüyünü təmin etmiş oldu.

Bu gün düşməndən azad etdiyimiz əraziləri minalardan təmizləyib tikirik, qururuq, yaradırıq, əkib-becəririk. O ərazilərdən musiqi səsi gəlir. İnsanlar sitəm içində çıxdıqları torpaqlara gülə-gülə qayıdırlar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# "Ağıllı kənd"in vətənpərvər uşaqları



Maraqla, sevinclə, heyrətlə baxırdılar ətrafa.
Bu torpaqlara ilk dəfə ayaq bassalar da, qəribə bir hiss var idi qəlblərində. Bağlılıq hissi...
Vətəninə, torpağına bağlılıq duyğusu...

2022-ci il iyulun 19-da vaxtilə Ağalıdan məcburən didərgin salınan, valideynləri ilə ayaqyalın, başıaçıq qaçan körpələr indi öz övladlarının əlindən tutaraq başıdik, məğrur geri döndülər.

O uşaqları ilk dəfə vətənlə tanış etdilər, o uşaqlar ilk dəfə ana torpaqla salamlaşdılar....

Sevincli, çox xoşbəxt idilər, bu günədək yalnız böyüklərin söhbətlərindən, acılı-şirinli xatirələrindən, tək-tük solğun fotolardan tanıdıqları Zəngilanı, Ağalını öz gözləri ilə görürdülər, doğma yurdda olmağın bəxtəvərlik hissini duyurdular.

O gün Ağalıya dönən böyüklərin də, uşaqların da hamısında bu duyğular var idi. Bu elə bir hiss idi ki, onu illər, aylar, ayrılıqlar, qaçqınlıq, köçkünlük belə ruhdan, qandan silib ata bilməzdi və bilmədi də. Onlar bu illər ərzində doğma torpağı unutmadılar, xəyallarında, yuxularında yaşatdılar. Bəzən ana yurd həsrəti gözlərində yaşa çevrilib axdı, bəzən kədərdən ürəkləri sıxıldı...

Elə Ağalıya qayıtdıqları gün də gözlərində yaş var idi, amma bu dəfə kədərdən yox, 30 ilin ayrılığına su səpən sevinc gözyaşları idi bunlar.

## Qürurlandıq, qəhərləndik, fəxr etdik

*"Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çüllü, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Ədilcə, Qılıcan kəndlərini işğaldan azad edib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"*

2020-ci ilin 28 oktyabrında Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu tviti ilə növbəti dəfə qəhərləndik, qürurlandıq, fəxr etdik. Ağalının düşmən tapdağından azad edilməsinə hamımız elə zəngilanlılar qədər sevindik. Zəngilanı, Ağalını bir çoxumuz heç zaman görməsək də, ora da 30 il ərzində gülü bitən, ömrü bitməyən vətən idi...

Zəngilan rayonunun Ağalı kəndi 1993-cü ildə işğal edilmişdi. O zamana qədər bu inzibati ərazi özündə ümumilikdə 261 ailənin yaşadığı 3 kəndi birləşdirib: Birinci, İkinci və Üçüncü Ağalı kəndlərini. Burada ilk dəfə Ağalı nəsli məskən saldığından elə adı da oradan götürülüb. Birinci Ağalı kəndi füsunkar Həkəri çayının sol sahilində, dağətəyi düzənlikdə yerləşir, daha dəqiq, yerləşirdi. Kənd sonralar gündən-günə böyüyüb, genişlənibmiş, daha iki yaşayış məskəni qədər böyümüşdü. İkinci və Üçüncü Ağalı kəndləri də Həkəri sahilindəydi, dağın ətəyindəydi. Düşmən işğalının gətirdiyi soyuq şimal yelləri, barbarların insanlığa sığmayan əməlləri bu yurd yerlərimizi də xarabazara çevirdi. İnsan düşməni olan erməni istilaçıları Allahın bizə bəxş etdiyi füsunkar təbiətə də qənim, düşmən kəsildilər.

## Müasir toxunuşlu kənd

44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilən Ağalı kəndi bərpa edilib. Bu il mayın 27-də Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər. İyulun 19-dan isə əhalinin bura köçürülməsi mərhələli olaraq başlanılıb. Ağalı kəndi Azərbaycanda ilk "ağıllı kənd" konsepsiyası ilə qurulub. Burada gələcəyimiz olan uşaqların sağlam, müasir standartlara uyğun böyümələri, yetişmələri üçün hər şərait yaradılıb. Ümumtəhsil məktəbi, uşaq bağçası, park və fəvvarələr meydanı istifadəyə verilib. Sakinlər burada diqqət və qayğı ilə əhatə olunublar.

Azad olunmuş torpaqlarımızda ilk zəng də Ağalıdakı məktəbdə çalındı. Elə bu məktəbdə hazırda 65 şagird təhsil alır. Müasir texnologiya, "ağıllı lövhə"lər, elektron kitabxana, kompüterlər şagirdlərin ixtiyarındadır. "Ağıllı kənd"də müasirlik təkcə qurulan infrastrukturla məhdudlaşmır, təhsilə yeni yanaşmanın tətbiqi də mühüm rol oynayır. Məktəbdə şagirdlərə təhsil verən 12 müəllim respublikamızın müxtəlif rayon və şəhərlərindən könüllü olaraq gələnlərdir.

Ürəklərinə, gözlərinə Vətən sevgisi hopmuş bu uşaqlar sanki elə burada doğulub, burada böyüyüblər. Bu kiçik qəhrəmanların hərəsinin içində sanki bir aslan yatır. Bunu Prezident İlham Əliyevin Ağalıya son səfəri zamanı ağalılı uşaqlarla etdiyi söhbətdən də görə bilərik. Həkim, müəllim, hərbçi olmaq istədiklərini söyləyən bu uşaqların məğrur, qürurlu duruşları hamını riqqətə gətirmişdi. Onlar Ali Baş Komandanın nəsihətlərinə, öyüdlərinə diqqətlə qulaq asaraq əməl edəcəklərinin sözünü də verdilər bu görüşdə.

Bu gün Ağalıya gedən bu yolu qürurla, sevinclə və böyükləri kimi məğrur gedən balalar özləri ilə bir dünya dolusu işıq və xoşbəxtlik gətiriblər bu kəndə. Bu torpaqların əsl sahibi, övladı olan bu fidan balalar sabahın Xan çinarları, uca dağları, havası, suyu, qurtuluşudurlar. Şəhidlərin qanıyla sulanan, tarixlərə dərs verən müqəddəs Azərbaycan torpağının yetirmələri başqa necə olmalıdır ki?! Bu dağların, Ağalının qartal balaları kimi...

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# 200 illik münaqişəyə, 30 illik müharibəyə son qoyan sənəd

## 10 noyabr üçtərəfli Bəyanatı Azərbaycanın şanlı Zəfərini, İrəvanın isə hərbi kapitulyasiyasını rəsmiləşdirdi



Azərbaycanla Ermənistan arasında İkinci Qarabağ müharibəsinin başa çatmasını təsdiqləyən tarixi 10 noyabr üçtərəfli Bəyanatının (Azərbaycan, Rusiya, Ermənistan) imzalanmasından iki il ötür.

Bu sənəd savaşdan öncə Azərbaycanı dəfələrlə hədələyən, işğal etdiyi ərazilərdə qanunsuz məskunlaşma aparan Ermənistanın biabırçı hərbi kapitulyasiyası oldu. Üç rayonun - Ağdam, Kəlbəcər və Laçının döyüşsüz, bir güllə atmadan qaytarılması isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin növbəti diplomatik uğuru kimi qiymətləndirildi.

Əgər məğlub Nikol Paşinyan bu sənədi Ermənistan əhalisindən gizi şəkildə, hansısa zirzəmidə imzaladısa, İlham Əliyev qalib sərkərdə kimi xalqının qarşısına çıxaraq qürurla, fəxarətlə çıxış etdi və tarixi Zəfərin sevincini bölüşdü.

### İlham Əliyevin təkidli tələbi ilə sənədə daxil edilən bənd

Bəyanatın 3-cü və 4-cü bəndlərinə uyğun olaraq, Qarabağda təmas xətti və Laçın dəhlizi boyunca Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirildi. Rusiya sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır.

Sənədin 9-cu bəndinə əsasən isə tərəflər üzərlərinə öhdəlik götürdülər. Bəyanatda qeyd edilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa olunur. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.

Həqiqətən də, bəyanatın imzalanması ümumxalq birliyinin bariz nümunəsi və Zəfərimizin təntənəsi oldu. 10 noyabrda imazalanmış bu sənəd "status-kvo"nu dəyişdi və Azərbaycanın maraqlarını təmin etdi. İlham Əliyevin israrlı mövqeyi nəticəsində məğlub və çıxılmaz vəziyyətə düşən Ermənistan rəhbərliyi işğal edilmiş bütün torpaqlarımızdan qeyd-şərtsiz çıxmaq üçün çıxış qrafikini təqdim etməyə məcbur oldu. Qarabağa heç bir status verilmədi.

Azərbaycan Prezidentinin digər bir israrı isə Naxçıvanla əlaqələrin bərpası ilə bağlı oldu. Sənəddə Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi təsbit edildi. Burada bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda yeni nəqliyyat kommunikasiya infrastrukturunun yaradılmasının mümkünlüyü vurğulanır. Bu bənd məhz İlham Əliyevin təkidi ilə bəyanata salınıb. Çünki Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin birbaşa əlaqəsi yoxdur.

Həmin gün xalqa müraciətində Prezident bu məsələyə aydınlıq gətirdi: "Ancaq mənim təkidli tələblərim şadam ki, qəbul olundu. Beləliklə, Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Çünki mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, - çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, - faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz Ulu Öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi".

Göründüyü kimi, Azərbaycan Prezidentinin diplomatik məharəti sayəsində daha bir uğurlu nəticə əldə edildi və Ermənistanın üzərinə öhdəlik qoyuldu.

### Hərbi gücün yaratdığı diktə

Bu bəyanat Azərbaycan Ordusunun apardığı uğurlu hərbi əməliyyatların məntiqi davamı idi, bu sənəd postmünaqişə dövründə hərbi gücün yaratdığı diktənin diplomatiyaya keçidinə zəminlər yaradan strategiyanın başlanğıcı oldu.

Həmin gün xalqa müraciət edən Prezident İlham Əliyev bəyanatı dəyərləndirərkən vurğuladı ki, sənədin tarixi əhəmiyyəti var və bu, şanlı Qələbəmizin, "dəmir yumruğ"un zərbə dalğasının uğurlu nəticəsidir.

Ümumiyyətlə, hər bir müharibənin sonu sülh müqaviləsinin imzalanması ilə nəticələnir, məğlub tərəf qalibin diktə etdiyi reallıqlarla barışmaq məcburiyyətində qalır. Hər iki tərəf yaranmış yeni reallıqlara uyğun addım atır və hətta yeni əməkdaşlıqla bağlı sazişlər də imzalayırlar.

Lakin 2020-ci ilin 27 sentyabr - 10 noyabr aralığında baş verən və keçmiş Dağlıq Qarabağ münaqişəsinə son qoyan Vətən müharibəsindən iki il ötsə də, hələ də qalib Azərbaycanla məğlub Ermənistan arasında sülh sazişinin imzalanma prosesi reallaşmayıb. Bunun səbəbləri isə hər kəsə bəllidir. Cəmi 44 günə Azərbaycan qarşısında diz çökərək yalvaran Ermənistan sülh sazişinin imzalanma prosesini müxtəlif bəhanələrlə uzadır.

Hazırda isə real vəziyyət göz qabağındadır. Qalib komandan kimi İlham Əliyev Vətən müharibəsində əldə edilən Zəfərdən sonra bölgədə sülh və əməkdaşlığa nail olmaq üçün postmüharibə dövründə də regionla bağlı çətin geosiyasi maraqlar şəraitində diplomatik liderliyini, məharətini sərgiləməyə davam edir.

Azərbaycan sülhün, qarşılıqlı olaraq bir-birinin ərazi bütövlüyünü tanımaqla Cənubi Qafqazda sabitliyin bərqərar edilməsi üçün konkret addımlar atır. İlham Əliyev bütün çıxışlarında sülh prosesindən yayınmağın və prosesin alternativinin nə ilə nəticələnəcəyini Ermənistana göstərməklə deyir ki, barış sazişinin imzalanmaması Ermənistan üçün böyük fəlakət ola bilər. Amma görünən odur ki, Ermənistan regionda gərginliyin qalmasında maraqlıdır.

### İlham Əliyevdən Ermənistana növbəti sərt xəbərdarlıq

Noyabrın 8-də Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə Müzəffər Ali Baş Komandan İlham Əliyev bir daha bu məsələlərə toxunaraq Ermənistana və onun havadarlarına növbəti xəbərdarlığını etdi. Prezident vurğuladı ki, iki il ötməsinə baxmayaraq Ermənistan 2020-ci ilin 10 noyabr Bəyanatına əməl etməyib və öz silahlı qüvvələrini Qarabağdan tam çıxarmayb. Həmçinin Zəngəzur dəhlizini Azərbaycana təqdim etməyən bu ölkə vaxtaşırı hərbi təxribatlar törətməklə məşğul olub. Dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan isə hər zaman olduğu kimi, bu beynəlxalq razılaşmaya da hörmətlə yanaşıb: "Biz ədalətli insanlarıq və ədalətli ölkəyik. Əgər biz hansısa öhdəliyi öz üzərimizə götürmüşüksə, onu yerinə yetiririk. Biz 2020-ci ilin 10 noyabr Bəyanatında üzərimizə götürdüyümüz bütün öhdəlikləri yerinə yetiririk... Bir güllə atılmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal altında olan əraziləri bizə qaytarıldı. Əgər qaytarmasaydı, yenə də başlarını əzəcəkdik".

İlham Əliyev bəyan etdi ki, səbrimiz tükənməz deyil, əgər Ermənistan öhdəliklərini yerinə yetirməsə, Azərbaycan lazımi addımlar atacaq.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# Sərkərdə qətiyyətinin təzahürü

## Prezidentin Şuşadan səsləndirdiyi bəyanat Azərbaycanın mövqeyinin prinsipial və qətiyyətli olduğunu bir daha təsdiqlədi







Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev noyabrın 7-də Füzuli rayonu ərazisində yeni istifadəyə verilmiş hərbi hissədə yaradılmış şəraitlə tanış olub, noyabrın 8-də isə Şuşaya səfər edib. Prezidentin Zəfər Günündə növbəti səfərləri və qətiyyətli çıxışı 44 günlük Vətən müharibəsindəki uğurlu daxili və xarici siyasətin, xalqımızın milli birlik nümunəsinin davamı hesab edilə bilər.

Prezident Şuşa səfərində hərbçilər qarşısında çıxış edərkən bir daha ordumuzun və xalqımızın qəhrəmanlığından bəhs edib. Bildirib ki, Şuşa Azərbaycan xalqının ürəyidir, canıdır, hər bir azərbaycanlı üçün müqəddəs yerdir: "Hər dəfə Zəfər yolu ilə Şuşaya yaxınlaşarkən mən və əminəm ki, hər bir insan bir daha hərbçilərimizin qəhrəmanlığını, fədakarlığını, peşəkarlığını görür".

### Prezidentin Qarabağa səfərləri işğaldan azad edilmiş ərazilərin sürətlə dirçəldilməsinə xidmət edir

Milli Məclisin deputatı, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə qeyd edib ki, Prezident İlham Əliyevin Füzulidə "N" saylı hərbi hissədə olması və Zəfər Günündə Şuşada keçirilən bayram tədbirində iştirakı onun sarsılmaz iradəsinin və qətiyyətinin növbəti təzahürüdür: "Azərbaycan dövləti bütün gücünü ölkəmizin ərazi bütövlüyünün və müstəqilliyinin qorunması üçün Silahlı Qüvvələrin ən müasir hərbi texnika ilə təmin edilməsinə, vətəndaşlarımızın sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldib. Bununla yanaşı, Azərbaycan xalqının və dövlətinin qarşısında Böyük qayıdış layihəsi dayanır. Dövlət işğaldan azad edilmiş Qarabağı və Şərqi Zəngəzuru qoruyur, həmin ərazilərdə ən müasir "ağıllı şəhər və kəndlər" inşa edir. Prezidentin Zəfər bayramı ərəfəsindəki Füzuli və Şuşa səfərləri, noyabrın 7-də Füzulidəki hərbi hissədə yaradılan şəraitlə tanış olması, noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxışı işğaldan azad edilmiş ərazilərin dirçəldilməsinə, ölkəmizin ərazi bütövlüyünün qorunmasına xidmət edir".

A.Mollazadə bildirib k, Prezident İlham Əliyev Şuşadakı çıxışında ölkəmiz əleyhinə təxribat törətmək istəyən qüvvələrə bir daha xəbərdarlıq etdi, bir sıra vacib məqamlara toxundu: "Dövlət başçısı bildirdi ki, bizi 44 günlük Vətən müharibəsində qələbəyə aparan güclü iradə, Vətən sevgisi və hərbçilərimizin peşəkarlığı idi. Prezidentin sözlərinə görə, müharibənin birinci günündə altı kənd azad olunanda Azərbaycan xalqı daha da inandı ki, biz istədiyimizə nail olacağıq, tarixi missiyamızı yerinə yetirəcəyik". Deputatın dediyinə görə, görünən odur ki, ölkəmiz əleyhinə təxribat törətmək istəyən qüvvələrin, Ermənistana havadarlıq edənlərin layiqli cavab almaları üçün Azərbaycanın kifayət qədər gücü var.

"Ali Baş Komandanımız çıxışı zamanı Vətən müharibəsində və ondan sonrakı dövrdə dövlətimizin qazandığı uğurlardan, həyata keçirilən məqsədyönlü daxili və xarici siyasətdən də bəhs etdi. Prezident Azərbaycan Ordusunun müharibədə göstərdiyi şücaətdən, xalqımızın milli birlik kimi şanlı tarixin yazılmasına verdiyi töhfələrdən söz açdı. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti İlham Əliyevin rəhbərliyi altında gündən-günə güclənir və müstəqilliyimizin əbədi olması üçün əsaslı zəmin yaranır", - deyə deputat qeyd edib.

### Prezidentin xalqa inamının şanlı nəticəsi

Milli Məclisin deputatı Elman Məmmədov deyib ki, qələbəmizin ikinci ildönümü münasibətilə Prezident İlham Əliyevin ailəsi ilə birlikdə Şuşaya səfəri əlamətdar hadisədir: "Ötən iki ildə Şuşanın dirçəldilməsi, şəhərin əvvəlki əzəmətinin qaytarılması sübut edir ki, vaxtilə Ulu Öndər Heydər Əliyevin Şuşa barəsində dediyi müdrik fikirlər, arzular reallaşır. Heydər Əliyev məcburi köçkün olan şuşalılarla görüşündə demişdi ki, biz hər bir rayonumuzu, eləcə də Şuşanı azad edəcəyik. Bu gün həmin vədlər Ümummilli Liderin varisi, Prezident İlham Əliyevin rəhbərliyi altında yerinə yetirilir. Şuşanın işğaldan azad edilməsi böyük qələbə, böyük zəfərdir".

Deputat bildirib ki, Prezidentin Şuşadakı çıxışında verdiyi önəmli mesajlar ilk növbədə Azərbaycan xalqına və əsgərinə ünvanlanmışdı ki, bu qələbə onların iradəsinin və qəhrəmanlığının nəticəsidir: "Şanlı Zəfər bizə məhz şəhidlərimizin qanı bahasına nəsib olub. İgid oğullarımızın cəsarəti hesabına torpaqlarımızı, Şuşanı işğaldan azad edə bilmişik. Bu həm də Prezidentin bir lider kimi öz xalqına olan inamından irəli gəlib. Təsadüfi deyil ki, İlham Əliyev çıxışı zamanı Azərbaycan Ordusunun gücü və qüdrəti, xalqımızın yenilməzliyi haqqında əhəmiyyətli fikirlər səsləndirib".

E.Məmmədov deyib ki, Şuşa görüşü zamanı xarici auditoriyaya ünvanlanmış mesajlar ciddi əhəmiyyət kəsb edir: "Prezident bildirib ki, bizim qanımız, canımız bahasına əldə etdiyimiz qələbəmiz əbədi olacaq. Ona görə Ermənistan və havadarları yanlış düşüncələrə düşməsinlər və unutmasınlar ki, biz ölümü gözə alaraq bu döyüşdən qalib ayrılmışıq. Yəni torpağımızın hər bir qarışı üçün düşmənin başını əzməyə hər zaman hazırıq. Şanlı Zəfərimizə görə xalqımıza, əsgərimizə və Prezident İlham Əliyevə borcluyuq".

### Ermənistan İlham Əliyevin növbəti xəbərdarlıqlarından nəticə çıxarmalıdır

Milli Məclisin deputatı Ceyhun Məmmədov da Prezident İlham Əliyevin Zəfər Günü ərəfəsindəki Füzuli və Şuşa səfərləri barədə fikirlərini bölüşüb. Qeyd edib ki, Prezidentin Şuşadakı çıxışı Ermənistana, onun havadarlarına, habelə Ermənistanın cinayət əməllərini dəstəkləyən bütün dövlətlərə ciddi mesaj və xəbərdarlıqdır. Bu gün Ermənistanın havadarlarına arxayın olaraq təxribatlar törətməsi birmənalı şəkildə qəbuledilməzdir. Ermənistan qısa zamanda bütün təxribatlara son qoymalıdır, əks halda onların aqibəti yaxşı olmayacaq. Prezidentin növbəti qətiyyətli çıxışı bir daha sübut etdi ki, Azərbaycanın mövqeyi prinsipial və qətiyyətlidir.

Deputatın sözlərinə görə, Prezidentin toxunduğu digər mühüm məqam isə Ermənistanın Zəngəzur dəhlizi ilə bağlı öhdəliyini yerinə yetirməkdən boyun qaçırması ilə bağlıdır: "Bu gün ermənilər Qarabağa rahat gedib-gəlirlərsə, deməli, azərbaycanlılar da Naxçıvan Muxtar Respublikasına rahat getməlidirlər. Ermənistan bunun üçün şərait yaratmalı, Zəngəzur dəhlizinin açılması ilə bağlı öhdəliyini yerinə yetirməlidir. Hesab edirəm ki, Prezident İlham Əliyevin Şuşadakı çıxışı Ermənistanı və havadarlarını bu məsələ barədə yenidən düşünməyə sövq edəcək. Nəzərə almaq lazımdır ki, üçtərəfli razılaşmada açıq şəkildə bəyan olunub ki, Ermənistan silahlı qüvvələri və qanunsuz erməni dəstələri Azərbaycan ərazisindən çıxarılmalıdır".

C.Məmmədov bildirib ki, Prezident İlham Əliyev çıxışında Ermənistanla sıx əməkdaşlıq və İrəvana himayədarlıq edən müsəlman dövlətlərinə, xüsusilə də İrana aydın mesaj ünvanladı: "Müsəlman ölkələrin rəhbərləri nəzərə almalıdırlar ki, Ermənistan Azərbaycana qarşı vəhşiliklər törədib, ermənilər vaxtilə işğal altında saxladıqları ərazilərdə məscidləri dağıdıb, islam mədəniyyətinin bir hissəsi olan dini abidələrimizi talayıblar. Müsəlman ölkəsinin başçısının belə əməllər törədən Ermənistan rəhbərini qucaqlaması qəbuledilməzdir. Ermənistan və ona havadarlıq edən qüvvələr Azərbaycan Prezidentinin Şuşadan etdiyi xəbərdarlıqlardan ciddi nəticə çıxarmalı, Zəngəzur dəhlizi mütləq açılmalı, sülh müqaviləsi imzalanmalıdır. Azərbaycanın mövqeyinin prinsipiallığı və qətiyyətliliyi həm Ermənistan, həm də bu ölkənin havadarları tərəfindən nəzərə alınmalıdır".

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə, eləcə də Şuşaya səfərləri dirçəlişimizin təzahürləridir. Azərbaycan xalqı şahiddir ki, İlham Əliyevin sözü ilə əməli birdir. Təsadüfi deyil ki, Vətən müharibəsinin başa çatmasından cəmi iki il keçməsinə baxmayaraq, Böyük qayıdış layihəsi artıq icra olunur, işğaldan azad edilmiş bütün şəhər və kəndlərimiz abadlaşdırılır. Prezident İlham Əliyevin dediyi kimi: "Bu Qələbə, bu Zəfər bütün xalqımıza inam verdi, ruh verdi. Biz təkcə ərazi bütövlüyümüzü yox, milli qürurumuzu bərpa etdik. Buna görə, əziz hərbçilər, sizə borcluyuq, sizin kimi on minlərlə əsgər, zabitə borcluyuq".

*Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"*

# "İlham Əliyev yenə başımıza gələ biləcəklərin anonsunu verdi"

## Azərbaycan Prezidentinin son bəyanatı Ermənistanda böyük xof yaradıb

Prezident İlham Əliyevin Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə səsləndirdiyi fikirlər Ermənistanda narahatlıq və həyəcanı daha da artırıb. Söhbət Ali Baş Komandanın İrəvanın sülh müqaviləsini yubadaraq sərhəddə son aylarda törətdiyi təxribatlarla bağlı fikirlərindən gedir: "... Ermənistan İkinci Qarabağ müharibəsində məğlub olub, ordusu darmadağın edilib. Məğlub edilmiş ölkə özünü belə apara bilməz. Düzdür, Ermənistanın bəzi xarici havadarları bizi nədəsə günahlandırmaq istəyirlər. Onların cavabını da mən vermişəm. Yenə də nəsə banlasalar, yenə də cavablarını verərəm. Bu, məni dayandırmaz".

Prezident İlham Əliyevin bu fikirləri Ermənistanda yeni ajiotaja səbəb olub, ictimaiyyətdə böyük şok və xof yaradıb. Ermənilər qeyd edirlər ki, Prezident İlham Əliyev daim verdiyi vədləri yerinə yetirib və bu dəfə də istisna olmayacaq. Erməni siyasi icmalçı Manvel Baqdasaryan bu fonda olduqca maraqlı mövqe sərgiləyib. Onun sözlərinə görə, Ermənistan cəmiyyəti üçün Azərbaycan Prezidenti İlham Əliyev həmişə həqiqəti deyib. İrəvandan isə daim yanlış məlumat yayılır.

Baqdasaryan bildirib ki, söhbət əvvəllər və hazırda ölkə rəhbərləri arasında baş tutan pərdəarxası danışıqlardan gedir: "İlham Əliyevin 2016-cı ildə Rusiyada görüşdən sonra Serj Sarkisyan haqda sözlərini xatırlayaq. O zaman İlham Əliyev bildirmişdi ki, Sarkisyan ona Azərbaycan ərazilərini azad etməyi vəd edib və bunun üçün ona cəmi iki həftə vaxt lazım olduğunu bildirib. O zaman hamı Azərbaycan liderinin bu sözlərini təkzib edən Sarkisyana inanmışdı, lakin bir neçə ildən sonra cəmiyyət Sarkisyanın Əliyevə verdiyi vəd barədə həqiqəti öyrəndi. Sülh müqaviləsinin imzalanmasının yubadılması İrəvanın ziyanına işləyir. Xaricdən bu işi pozmaq istəyənlər var. Ermənistanın başında duran bütün insanlar, rəhbərliyi düz danışmağı Əliyevdən öyrənməlidirlər".

Minos Levonyan adlı riyaziyyat müəllimi "Odnoklassniki" sosial şəbəkəsində İlham Əliyevin Şuşadakı tədbirdə çıxışının əks olunduğu videomateriala münasibət bildirib: "Gəlin, belə bir suala cavab tapaq. Banlamaq deyəndə Əliyev kimləri nəzərdə tutur? (Gülüş işarəsi). Aydındır ki, Fransanı. Emmanuel Makron Paşinyanla danışdığı qədər heç həyat yoldaşı ilə danışmır. Yəni Fransanın simvolu nədir? Xoruz. Əlavə şərhə ehtiyac yoxdur. İlham Əliyev indiyəcən sülhdən danışa-danışa Qarabağı bizdən geri aldı. Sıradakı hədəf haradır?".

Edvard Karapetyan instaqramda Şuşadakı Zəfər Günündən şəkil paylaşaraq qeyd edib: "Acı olsa da, reallığı İkinci Qarabağ müharibəsində gördük. Belə davam etsə, Əliyev növbəti bəyanatını Zəngəzurdan verəcək. Çünki Əliyev başımıza gələ biləcəklərin anonsunu bu dəfə də verdi".

Aşot Mıxıtaryanın instaqramda çoxminlik səhifələrdən birinin "Paşinyanla iqtisadi yüksəlişə doğru" paylaşımına yazdığı rəy daha çox bəyənmə toplayıb: "Paşinyan Ermənistanı məhv edib. Satılmayan torpaq, zavod, obyekt qalmayıb. Türklər (red.azərbaycanlılar) Bakıda həlak olan əsgərlərimizin boş dəbilqələrini dünyaya göstərir, siz isə inkişafdan danışırsınız. Əziz ermənilər, mənə gülməyin. Bir gün bu xəbərlə sabahımız açıla bilər: Paşinyan Ermənistandan qaçdı!"

Serj Baqramyan adlı birinin "Odnoklassniki"də paylaşdığı status və ona yazılan rəylər çoxlu bəyənmələr toplayıb: "Dünən təsadüfən instaqramda bir səhifədə İlham Əliyevin Şuşada hərbçilərlə çəkilən şəkillərini gördüm. Maraqla baxdım və sözün əsl mənasında şok yaşadım. İlham Əliyev Paşinyana bir sözlə, "boş yerə banlama" dedi. Ermənistan rəhbərliyi son günlərdə yenidən müharibədən dəm vurur. Görünür, Bakıda parkda darmadağın olunan texnikalarımızı gözə almırlar. Elə hey deyirik müharibə, müharibə, müharibə... Abır yaxşı şeydir".

Stepan Naumyan adlı birisi "İlham Əliyev İrəvana gəlməyin yollarını axtarır. Ermənistanı parlaq gələcək yox, parlaq ölüm gözləyir" başlıqlı tvit atıb: "İlham Əliyev Bakıda park açıb, müharibədə həlak olan hərbçilərimizin boş qalan dəbilqələrini nümayiş etdirir və bu, bütün dünyanın gündəm mövzusuna çevrilir. Bu gün isə bizi xoruz edib banladır. Daha doğrusu, banlasaq, başımıza gələcəklərin anonsunu verir. Paşinyan isə hakimiyyətdə qalmağın yollarını axtarır. Sarkisyan vətənimizi, zavodlarımızın yarısını oliqarxlara, yarısını da xaricilərə satıb. Paşinyan da İrəvanı satarsa, heç təəccüblənməyək".

Henrix Aşotyan isə "Odnoklassniki"də İlham Əliyevin son bəyanatının yer aldığı paylaşımın altına belə bir şərh yazıb: "Açıq reallıq budur. Azərbaycan Prezidenti 6 il əvvəl apreldə S.Sarkisyana, iki il öncə isə Qarabağı geri almaqla Paşinyana yüksək peşəkarlığın necə olduğunu göstərdi, əsl dərs verdi. Acı həqiqət olsa da, bu gün bizi xoruz etdi, sabah da meymun edəcək. Bizim baş nazirimiz bəs nə cavab verəcək? Seyrçi mövqeyində qalacaq".

Miqran Petrosyan adlı istifadəçinin tviterdəki paylaşımı isə daha çox bəyənmə toplayıb: "Əliyev Qarabağı geri qaytarıb, Şuşada bayram keçirməklə isə Ermənistana gözdağı verdi. Atəşfəşanlıq Stepanakerti (Xankəndini-red.) işıqlandırdı. Xoruz kimi banlasaq, aqibətimiz bəllidir. Biz biabırçı məğlubiyyətdən sonra təlaş içərisində yaşayırıq".

Qaqik Qasparyan adlı istifadəçinin tviterdə paylaşımı da 100-dən çox "retweet" edilib. O, Xankəndidə pəncərədən çəkdiyi Şuşadakı zəfər atəşfəşanlığının videosunu paylaşaraq yazıb: "Yalanlarla dolu Ermənistan rəhbərliyi. Azərbaycanlılar Şuşada bayram edir. Sabah Stepanakertdə (Xankəndi-red.) olmayacaqlarının zəmanətini kim verə bilər? Dostum Henrix, İrəvanda kirayə evlərin qiyməti ilə maraqlan, burada qala bilmərəm. Hakimiyyətə gəlməsi üçün gecələr belə yatmadığımız, dəstək olduğumuz Paşinyan Ermənistanı məhvə aparır".

Bütün bunlar Azərbaycanın əldə etdiyi möhtəşəm Qələbənin, sülh müqaviləsinin imzalanmasını yubadan ermənilər üçün nə dərəcədə sarsıdıcı zərbə olduğunu bir daha aydın nümayiş etdirir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

# Milli Məclis komitələrinin birgə iclasında 2023-cü ilin dövlət büdcəsinə baxılıb

Noyabrın 10-da Milli Məclisin İctimai birliklər və dini qurumlar, Elm və təhsil, Ailə, qadın və uşaq məsələləri, Səhiyyə, Mədəniyyət komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə olunub.

AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli bu günlərdə qeyd edilən Zəfər Günü, Dövlət Bayrağı Günü münasibətilə iclas iştirakçılarını təbrik edib. Prezident İlham Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə reallaşdırılan ardıcıl islahatlar nəticəsində Azərbaycanın dövlət və cəmiyyət həyatında əldə olunan nailiyyətlərdən söz açan Fəzail İbrahimli ölkəmizin bir qalib dövlət kimi dünyada söz sahibi olmasından, hərbi və iqtisadi qüdrətinin artmasından danışıb. O, dövlət büdcəsini ölkənin inkişaf proseslərinin davamlılığının təmin olunmasında, qarşıda duran strateji hədəflərə çatmaqda böyük əhəmiyyət daşıdığını vurğulayıb, onu vətəndaş cəmiyyətinin inkişafına, siyasi sabitliyin möhkəmlənməsinə dəstək verən bir alət kimi xarakterizə edib.

Azərbaycanın dövlət büdcəsinin ildənilə artmasını müsbət dəyərləndirən Fəzail İbrahimli müzakirəyə təqdim olunan 2023-cü ilin dövlət büdcəsi layihəsini dövlətin artan qüdrətinin göstəricisi kimi yüksək dəyərləndirib.

Sonra maliyyə naziri Samir Şərifov "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi barədə ətraflı məlumat verib. O qeyd edib ki, 2023-cü ilin dövlət büdcəsi, həmçinin Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcələri, büdcə zərfinə daxil olan digər qanunvericilik aktlar və sənədlər qanunvericiliyin tələblərinə müvafiq olaraq Milli Məclisə təqdim olunub. Nazir bildirib ki, təqdim olunmuş dövlət və icmal büdcələrinin layihələri ölkə Prezidentinin sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda qarşıya qoyulan hədəflərə uyğun hazırlanıb.

Maliyyə naziri deyib ki, 2023-cü ilin büdcə layihəsi ortamüddətli dövrdə makroiqtisadi və fiskal sabitliyin təmin edilməsi, büdcənin neft gəlirlərindən asılılığının mərhələlərlə aradan qaldırılması, borc intizamının təmin olunması kimi qarşıya qoyulan hədəflərə adekvatdır və gələn ilin büdcəsində ölkənin müdafiə qabiliyyətinin artırılması, Qarabağ və Şərqi Zəngəzur rayonlarında bərpa-quruculuq işlərinin aparılması, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın gerçəkləşdirilməsi kimi strateji çağırışlar, həmçinin dünyada gedən iqtisadi meyillər nəzərə alınıb.

Diqqətə çatdırılıb ki, 2023-cü ilin dövlət büdcəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müəyyən edilmiş əsas inkişaf prioritetlərinin və dövlətin əsas funksiyalarının, o cümlədən müdafiə və təhlükəsizlik, dövlət borcuna xidmət, sahibkarlığın inkişafı, əztəminatlı əhalinin sosial müdafiəsi, elm, təhsil, səhiyyə, sosial təminat və digər sahələrdə xərclərin maliyyələşdirilməsini təmin edəcək.

Vurğulanıb ki, 33 milyard 300 milyon manat məbləğində nəzərdə tutulan büdcə xərclərinin 24,2 faizi və yaxud 8 milyard 63 milyon manatı müdafiə və hüquq-mühafizə xərclərinə yönəldiləcək. Əsaslı xərclərin 3 milyard manatı işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinə, Böyük qayıdışın təmin edilməsinə, infrastrukturun qurulmasına və digər tədbirlərə yönəldiləcək.

Qeyd edilib ki, sosialyönümlü xərclərə 2023-cü ildə 15 milyard 219 milyon manat vəsaitin yönəldilməsi nəzərdə tutulub. Cari illə müqayisədə bu, 1 milyard 289 milyon manat və yaxud 9,3 faiz çoxdur.

Əhalinin sosial müdafiəsi və sosial təminat xərcləri üçün növbəti ilin büdcəsində 4 milyard 416 milyon manat vəsait proqnozlaşdırılır. Qeyd olunub ki, növbəti ildə yaşayış minimumu və ehtiyac meyarının məbləğləri də bərabərləşdiriləcək.

Maliyyə naziri təhsil, səhiyyə, tibbi sığorta, sahibkarlığın maliyyələşdirilməsi sahələrində, habelə sosial-mədəni təyinatlı obyektlərin və digər layihələrin maliyyə təminatı üçün ayrılan vəsaitlər, o cümlədən uşaqların müdafiəsi, elm, təhsil və mədəniyyət sahələrində ayrılan xərclər barədə ətraflı məlumat verib.

Vurğulanıb ki, 2023-cü ildə səhiyyə xərcləri üçün cari illə müqayisədə 198 milyon manat və yaxud 11,6 faiz çox vəsait ayrılacaq. Bununla da səhiyyə xərclərimiz 1 milyard 906 milyon manat təşkil edəcək. Növbəti ildə mədəniyyət və incəsənət xərcləri üçün 227 milyon manat vəsait nəzərdə tutulub ki, bu da cari ilə nisbətən 7 milyon manat və yaxud 3,2 faiz çoxdur.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyev çıxışında icbari tibbi sığorta üçün dövlət büdcəsindən 1 milyard 263 milyon manat vəsaitin ayrıldığını qeyd edib, icbari tibbi sığortanın ümumi gəlirlərinin isə 2 milyard 393 milyon manat nəzərdə tutulduğunu deyib.

İcbari Tibbi Sığorta Fondunun vəsaitlərinin hər il artması tendensiyasından danışan Zaur Əliyev vəsaitlərin strukturu, xərc istiqamətləri, onlardan səmərəli istifadə barədə fikirlərini bölüşüb.

Sonra Hesablama Palatası sədrinin müavini Nəsir Sadıqov palatanın 2023-cü ilin dövlət büdcəsinin layihəsinə dair rəyini təqdim edib. Bildirilib ki, büdcə zərfində əsas makroiqtisadi göstəricilər üzrə müxtəlif ssenarilər şərh edilib, iqtisadi artımın əsasən qeyri-neft sektoru hesabına təmin olunacağı proqnozlaşdırılıb. Qeyd edilib ki, büdcə layihəsi ilə birgə hazırlanan və təqdim olunan sənədlər, əks etdirilən əsas göstəricilər qanunvericiliklə müəyyən olunmuş əsas tələblərə uyğundur.

Bildirilib ki, hazırlanan və təqdim edilən sənədlərdə məlumatlılıq əvvəlki illərlə müqayisədə artırılıb, izahatlara daxil edilmiş məlumatların keyfiyyəti və həcmi də yüksəldilib. Hesablama Palatası bununla yanaşı, bəzi istiqamətlər üzrə təkmilləşmələrin davam etdirilməsinin zəruriliyini də diqqətə çatdırıb.

Sonra iclasda parlamentin komitə sədrləri çıxış ediblər.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov çıxışında 2023-cü ilin dövlət büdcəsini sosialyönümlü və investisiya tutumlu büdcə kimi xarakterizə edərək, səhiyyə xərclərində ciddi artımın olduğunu vurğulayıb. O, səhiyyəyə ayrılan vəsaitin gələn ildə artırılaraq 3 milyard manata qədər yaxınlaşmasını təqdirəlayiq hal kimi dəyərləndirib, xüsusən icbari tibbi sığortanın tətbiqində, xəstəxanaların maddi-texniki bazasının müasirləşdirilməsində əldə olunan nailiyyətləri yüksək qiymətləndirib. Əhliman Əmiraslanov icbari tibbi sığortanın əhatə dairəsinin artırılması, icbari tibbi sığorta üzrə xidmətlər zərfinin genişləndirilməsi, xüsusən oraya onkoloji və autizm kimi xəstəliklərin daxil edilməsi ilə bağlı fikirlərini bölüşüb.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova təqdim olunan dövlət büdcəsində ailə institutunun qorunmasına, qadın və uşaqların müdafiəsinə ayrılan vəsaitlərin artırılmasını təqdirlə qarşılayıb. Hicran Hüseynova atalıq məzuniyyətinin ödənişli olması, təhsil müəssisələrində psixoloq və sosial işçilərin ştat vahidinin artırılması, aliment fondunun yaradılması, qadınların əmək bazarında iştirakı ilə bağlı təkliflərini səsləndirib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə uyğun olaraq, Azərbaycan iqtisadiyyatının inkişaf etdiyini bildirib. O, müzakirəyə çıxarılan büdcə layihəsini bu inkişaf templərinə, işğaldan azad edilmiş ərazilərin bərpası, milli təhlükəsizliyin təmini kimi regional və digər qlobal çağırışlara cavab verməsindən danışıb.

Bəxtiyar Əliyev gələn ilin büdcə layihəsində təhsilə ayrılan xərclərin artırılmasını yüksə qiymətləndirərək, bunun ordumuz üçün yüksəkixtisaslı kadrların hazırlanmasına da xidmət etdiyini söyləyib. Komitə sədri davamlı inkişafı təmin edəcək mütəxəssislər hazırlanması, elmlə təhsilin inteqrasiyası, ali təhsil müəssisələrinin elmi tədqiqatlara ayrılan vəsaitlərin artırılması, büdcə vəsaitlərinin nəticə yönümlüyünün yüksəldilməsi kimi məsələlərlə bağlı fikirlərini bölüşüb.

Sonra Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva çıxış edərək gələn ilin büdcəsində mədəniyyət sahəsinə dövlət tərəfindən göstərilən yüksək diqqət və qayğıdan söz açıb. Qənirə Paşayeva mədəniyyət sahəsində bir çox dövlət proqramlarının nəticələrinin qiymətləndirilməsinin, mədəniyyətin bir çox sahələrində stimullaşdırıcı tədbirlərin təhlilinin əhəmiyyətinə toxunub, bəzi bölgələrdəki tarixi-mədəniyyət abidələrinin bərpa edilməsinin yubandığını qeyd edib, bu istiqamətlərlə bağlı təkliflərini də gətirib.

Büdcə layihəsinin müzakirələrində İctimai birliklər və dini qurumlar komitəsi sədrinin müavini Sahib Alıyev, Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini Jalə Əliyeva, deputatlar Sabir Rüstəmxanlı, Məlahət İbrahimqızı, Azər Badamov, Ceyhun Məmmədov, Razi Nurullayev, İlham Məmmədov, Etibar Əliyev, Müşfiq Məmmədli, Rauf Əliyev, Aqiyə Naxçıvanlı çıxış ediblər. Millət vəkilləri 2023-cü ilin dövlət büdcəsi layihəsi ilə bağlı rəy və təkliflərini bildiriblər, suallarını səsləndiriblər.

Sonra maliyyə naziri Samir Şərifov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyev, elm və təhsil nazirinin müavini İdris İsayev, iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova, mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, səhiyyə nazirinin müavini Rasim İsmayılov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Siyavuş Heydərov, Dövlət Vergi Xidmətinin rəis müavini İlkin Vəliyev, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib, səsləndirdikləri suallara cavablandırıblar.

Müzakirələrin sonunda deputatlar "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsini birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

İclasda deputatlar Eldar Quliyev, Cavanşir Paşazadə, Kamilə Əliyeva, Afət Həsənova, Rafael Hüseynov, Ülviyyə Ağayeva, Kəmaləddin Qafarov, Sədaqət Vəliyeva, Nigar Arpadarai, Könül Nurullayeva, Dövlət Sosial Müdafiə Fondunun direktoru Himalay Məmişov, Dövlət Məşğulluq Agentliyi İdarə Heyətinin sədri Mustafa Abbasbəyli və digər rəsmi şəxslər iştirak ediblər.

# MDB PA-nın komissiya iclasında model qanun layihələri və qanunlara dəyişikliklər müzakirə olunub

Noyabrın 10-da MDB PA-nın Sosial siyasət və insan hüquqları, İqtisadiyyat və maliyyə və Hüquqi məsələlər üzrə daimi komissiyalarının videokonfrans formatında iclasları keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclaslarda gündəlikdə olan model qanun layihələri və qanunlara dəyişikliklər müzakirə olunub, model qanun yaradıcılığı üzrə təkliflər nəzərdən keçirilib. Həmçinin təşkilati məsələlərə baxılıb, daimi komissiyaların sədrləri və sədr müavinləri seçilib, hər üç komissiyanın növbəti iclasının tarixi və ilkin gündəliyi müəyyənləşdirilib.

MDB PA-nın Sosial siyasət və insan hüquqları üzrə daimi komissiyasının iclasında gündəliyin təsdiqindən sonra təşkilati məsələyə baxılıb, komissiyanın sədri və sədr müavini seçilib. Milli Məclisin deputatı Nizami Səfərov yenidən MDB PA-nın Sosial siyasət və insan hüquqları üzrə daimi komissiyasının sədri seçilib. Deputatımızın sədrlik etdiyi onlayn iclasda "Rəqəmsal səhiyyə haqqında", "Tibb işçilərinin peşə məsuliyyətinin sığortası haqqında", "Vətəndaşların sağlamlığının tütün tüstüsünün zərərli təsirlərindən qorunması haqqında" model qanun layihələrinə baxılıb.

Komissiya üzvləri MDB-yə üzv dövlətlərdə teletibb texnologiyalarından istifadə etməklə tibbi yardımın təşkili və həyata keçirilməsi sahəsində hüquqi tənzimləmə və proqram-texniki imkanların müqayisəli təhlilinin nəticələrinə dair müzakirələr aparıblar, MDB Qızıl Xaç və Qızıl Aypara Milli Cəmiyyətləri Platformasının yaradılması ilə bağlı təkliflərlə tanış olublar, həmçinin MDB ölkələrində model qanun yaradıcılığının 2023-2025-ci illər üzrə perspektiv planına təklifləri nəzərdən keçiriblər.

MDB PA-nın İqtisadiyyat və maliyyə üzrə daimi komissiyasının onlayn iclasında MDB PA-da Azərbaycan Milli Məclisinin nümayəndə heyətinin üzvü - MDB PA-nın İqtisadiyyat və maliyyə üzrə daimi komissiyasının sədr müavini Rüfət Quliyev iştirak edib. İclasda "Dövlət satınalmaları haqqında", "Texnologiyaların transferi və MDB üzv dövlətlərində onun dəstəklənməsi və tənzimlənməsi tədbirləri haqqında", "Rəqəmsal məkan və MDB üzv dövlətlərində onun infrastrukturu və tənzimlənməsi haqqında" model qanun layihələri müzakirə olunub, Müstəqil Dövlətlər Birliyində 2023-2025-ci illər üçün perspektiv model qanunvericilik planına dair təkliflərə baxılıb və müvafiq qərarlar qəbul edilib.

Hüquqi məsələlər üzrə daimi komissiyanın iclasında isə "Maliyyə sövdələşmələri haqqında", "Fondlar haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" model qanun layihələri müzakirə olunub, müvafiq qərarlar qəbul edilib. İclasda təşkilati məsələlər də baxılıb və Milli Məclisin deputatı Əminə Ağazadə yenidən MDB PA-nın Hüquqi məsələlər üzrə daimi komissiyasının sədr müavini seçilib.

Bununla da MDB PA-nın komissiya iclasları başa çatıb.

# Gündəlikdəki 9 məsələ plenar iclasa tövsiyə edilib

Noyabrın 10-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitə sədri Tahir Mirkişili iclası açaraq gündəliyə 9 məsələnin daxil edildiyini deyib.

O bildirib ki, bu günlər ölkəmiz və xalqımız üçün tarixi günlərdir. İki il əvvəl Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu uğurlu hərbi əməliyyatlar keçirərək Ermənistanı kapitulyasiya aktı imzalamağa məcbur edib. İki il öncə Azərbaycanın 30 il ərzində işğal altında qalmış əraziləri azad olunub, regionda yeni reallıqlar yaranıb. Ötən müddət ərzində Azərbaycanın regiondakı mövqeyi siyasi, iqtisadi, hərbi baxımdan daha da möhkəmlənib. Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb. Bu gün işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması istiqamətində işlər sürətlə davam edir. Ötən iki il ərzində dövlət büdcəsindən bu istiqamətdə 4,8 milyard manata yaxın vəsait cəlb olunub və bütün infrastruktur, o cümlədən yol, su, qaz, enerji xətləri inşa olunub. Habelə bu ərazilərin minalardan təmizlənməsi ilə bağlı bir çox işlər görülüb, keçmiş məcburi köçkünlərin öz yurdlarına qayıdışına başlanılıb.

Komitə sədri diqqətə çatdırıb ki, 2023-cü ilin dövlət büdcəsi ilə yanaşı, Prezident tərəfindən Milli Məclisə büdcə paketinə əlavə olunan qanun layihələri də daxil olub. Bunlardan biri Vergilər Məcəlləsinə təklif olunan dəyişikliklərlə bağlıdır. O qeyd edib ki, Məcəlləyə ilk dəfə olaraq yeni XIX fəslin əlavə edilməsi təklif olunur. Bu fəsildə işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların vergidən azad olunması və dövlətin təşviq mexanizmləri ilə bağlı məsələlər öz əksini tapıb. Eyni zamanda şəhid ailələrinin, əhalinin həssas təbəqəsinin gəlirlərinin vergidən azad olunması, aqrar sektorda emal sənayesinin dəstəklənməsi ilə bağlı vergi güzəştləri və təşviq mexanizmləri bu dəyişikliklərdə yer alıb.

Sonra İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini Samirə Musayeva Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) təqdim edib. Bildirilib ki, Məcəlləyə 42 maddə, 112 bənd üzrə bir neçə istiqamətdə dəyişikliklər təklif olunur. Layihəyə investisiya mühitinin, o cümlədən vergi ödəyicilərinin vergi yükünün azaldılması, ləğv prosesində olan kredit təşkilatlarının sabit vergi xərclərinin azaldılması, bank hesablarının açılması, bir sıra inzibatçılıq tədbirlərinin təkmilləşdirilməsi, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması və beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin qorunması ilə bağlı istiqamətlər üzrə dəyişikliklər əhatə edən müddəalar daxil edilib.

Sənəddə işğaldan azad edilmiş ərazilər üzrə vergi təşviqlərinin verilməsi nəzərdə tutulub. Məcəlləyə bununla bağlı yeni fəslin əlavə edilməsi təklif olunur. Əlavədə işğaldan azad edilmiş ərazinin rezidentlərinin 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azad edilməsi, habelə bu azadolmanın işğaldan azad edilmiş ərazinin rezidentinin həmin ərazidəki fəaliyyəti ilə bağlı əldə olunan satışdankənar gəlirlərinə də şamil edilməsi nəzərdə tutulur. Bununla yanaşı, ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan işğaldan azad edilmiş ərazinin rezidentləri tərəfindən istehsal fəaliyyəti sahələri üzrə xammal və materialların idxalının 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində ƏDV-dən azad edilməsi, hüquqi şəxslərin səhmdarlarının dividend gəlirlərinin 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində vergidən azad edilməsi və bir sıra digər güzəştlər təklif olunur.

Layihədə aqrar emal fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinə də vergi təşviqlərinin verilməsi ilə bağlı güzəştlər nəzərdə tutulur. Belə ki, siyahısı Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş idxal mallarını yerli istehsal malları ilə əvəz edəcək qida məhsullarının istehsalını həyata keçirən fərdi sahibkarların və hüquqi şəxslərin əldə etdiyi gəlirin 50 faizinin gəlir vergisindən, habelə həmin fəaliyyət prosesində istifadə etdikləri əmlaka və torpaqa görə əmlak və torpaq vergilərindən müvafiq siyahının təsdiq edildiyi ildən etibarən 7 il müddətinə azad edilməsi təklif olunur.

Digər təşviq tədbirləri ilə bağlı diqqətə çatdırılıb ki, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi məqsədilə, o cümlədən kənd təsərrüfatı sahəsində aparılan təşviq siyasətinin davam etdirilməsi, sosial məsuliyyət tədbirlərinin stimullaşdırılması məqsədilə dövlət müəssisələri tərəfindən çəkilən xərclərin vergitutma məqsədləri üçün nəzərə alınması, ölkə daxilində tütün məhsullarının istehsalı sahəsində dəstək göstərilməsi, vergi ödəyicilərinin maliyyə yükünün azaldılması məqsədilə siyahısı təsdiq edilmiş əsas vəsaitlərin idxalının müddətsiz olaraq ƏDV-dən azad edilməsi və digər müddəalar da layihəyə daxil edilib.

Vurğulanıb ki, ləğv prosesində olan kredit təşkilatlarının sabit vergi xərclərinin azaldılması ilə əlaqədar Vergi Məcəlləsində məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə müflis elan olunmuş kredit təşkilatlarının əmlak və torpaq vergilərindən azad edilməsi, vergi borclarına faizlərin hesablanmasının dayandırılması və vergi borcu ilə bağlı əmlakının siyahıya alınmaması, habelə ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək aktivlərin təqdim edilməsi, bankın iflas proseduru çərçivəsində aktivlərinin təqdim edilməsinin ƏDV-dən azad edilməsi müddətinin 2026-cı il yanvarın 1-dək uzadılması üzrə dəyişikliklər nəzərdə tutulur.

Sənəddə vergi ödəyicilərinə hesabların açılması ilə bağlı bir sıra inzibatçılıq tədbirlərinin təkmilləşdirilməsinə dair, habelə vergi inzibatçılığı üzrə dəqiqləşdirici və tənzimləyici bir sıra müddəalar, o cümlədən sahibkarlıq subyektləri üçün iqtisadi cəhətdən əlverişsiz olan bəzi mexanizmlərin dəqiqləşdirilməsi və inzibatçılığın sadələşdirilməsi ilə bağlı məsələlər öz əksini tapıb.

Bildirilib ki, məcəllədə sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılmasına yönəlmiş dəyişikliklər də yer alıb. Belə ki, şəhid statusu verilmiş şəxsin valideynlərinin, dul arvadlarının (ərlərinin) və övladlarının əməkhaqqı gəlirləri ilə bağlı 800 manat məbləğində vergi güzəştinin verilməsi, həmçinin 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və arvadları (ərləri) ilə yanaşı, övladlarına da əməkhaqqı gəliri ilə bağlı güzəştlərin verilməsi, beynəlxalq idman yarışları ilə bağlı həmin yarışların təşkilatçıları tərəfindən verilən mükafatların tam dəyərinin, habelə ölkədaxili idman yarışları ilə bağlı respublika idman federasiyaları və idman klubları tərəfindən pul şəklində verilən mükafatların dəyərinin 50 min manatadək hissəsinin gəlir vergisindən azad edilməsi və digər güzəştlərlə bağlı dəyişikliklər təklif olunur.

Sənəddə beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin qorunmasına yönəlmiş bir sıra dəyişikliklər də nəzərdə tutulub.

Məsələ ilə bağlı müzakirələrdə komitənin sədr müavini Əli Məsimli, üzvləri Vahid Əhmədov, Ziyad Səmədzadə, Rüfət Quliyev, Aydın Hüseynov, Məşhur Məmmədov, Elnur Allahverdiyev çıxış edərək layihə barədə fikirlərini, qeydlərini və təkliflərini səsləndiriblər. Deputatlar dəyişikliklərin məqsədəmüvafiq olduğunu qeyd ediblər.

Müzakirələrin sonunda İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva deputatların suallarını ətraflı cavablandırıb.

Sonra komitə sədri Tahir Mirkişili gündəliyin növbəti 4 məsələsini diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirilib ki, sənəd gömrük orqanları tərəfindən gömrük işi sahəsində aşkar edilmiş cinayətlər və inzibati xətalar haqqında işlər üzrə məhkəmələrin qərarları əsasında dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin satışından əldə edilən vəsaitdən, cərimələrdən və gömrük ödənişlərindən istifadənin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Təklif olunan dəyişiklik gömrük əməkdaşlarının sosial müdafiəsinin daha da gücləndirilməsinə xidmət edəcək.

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə əlaqədar qeyd edilib ki, layihə "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə uyğun olaraq hazırlanıb. Məcəlləyə təklif olunan dəyişikliyə əsasən, işğaldan azad edilmiş ərazilərdə əmək fəaliyyətinə cəlb edilənlərə münasibətdə iş icazəsinin müddəti hər dəfə 2 ildən çox olmamaq şərtilə uzadıla bilər. Təqdim edilən layihədə ölkə ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün həmin kateqoriyadan olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin verilməsinə və müddətinin uzadılmasına görə dövlət rüsumunun məbləği müəyyən edilir.

Bildirilib ki, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) icmal büdcənin tərkib hissəsi olacaq icbari tibbi sığorta fondunun gəlir və xərclərinin icmal büdcənin gəlir və xərclərində nəzərə alınması qaydasını müəyyən edir.

Qeyd olunub ki, "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi nağdsız hesablaşmaların əhatə dairəsinin genişləndirilməsini nəzərdə tutur. Təklif olunan dəyişikliyə əsasən, bu sıraya tibb müəssisələri ilə yanaşı, özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində beş yüz manatdan artıq olan ödənişlər də əlavə edilir. Bununla da bütün özəl tibb fəaliyyətinə nağdsız əməliyyatlara münasibətdə eyni hüquqi rejim tətbiq olunur.

Müzakirələrdə komitə üzvləri Məşhur Məmmədov və Vahid Əhmədov bəzi qeydlərini bildiriblər.

Sonra iclasda iştirak edən rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov növbəti 3 məsələni təqdim edib.

"Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı diqqətə çatdırılıb ki, sənəddə radiotezlik resurslarının müddətli (10 il müddətinə) ayrılması, radiotezliklərin ayrılması haqqında qərarın ləğvi əsaslarının müəyyən olunması nəzərdə tutulub. Həmçinin radiotezliklərdən istifadəyə dair müqavilə şərtlərinin, müqavilənin nümunəvi formasının hüquqi cəhətdən tənzimlənməsi, radiotezliklərin ayrılması haqqında qərar olmadan radiotezliklərdən istifadə etməklə radioelektron vasitələrin layihələndirilməsi, quraşdırılmasının və istismar edilməsinin, habelə istifadəsinə icazə vərəqəsi olmadan radioelektron vasitələrin quraşdırılmasının və istismar edilməsinin qadağan edilməsi təklif olunur. Layihəyə əsasən beynəlxalq və ölkə səviyyəli tədbirlərin, o cümlədən idman yarışlarının keçirildiyi müddətdə radiotezlik istifadəçilərinin radiotezlik zolaqlarından istifadə hüququ dövlət təhlükəsizliyi məqsədləri üçün müstəsna hallarda məhdudlaşdırıla bilər. Radiotezliklərin müddətli ayrılmasına keçid ilə əlaqədar olaraq radiotezlik istifadəçilərinə vurulan zərərə görə kompensasiya ödənilir.

Bildirilib ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində (birinci oxunuş) təklif edilən dəyişikliklər ölkə ərazisində radiotezliklərdən istifadə üzrə müvafiq qərar və radioelektron vasitələrin istifadəsinə icazə vərəqəsi olmadan radioelektron vasitələrin layihələndirilməsi, quraşdırılması və istismar edilməsinin yolverilməzliyi ilə bağlı tələblərin, habelə müəyyən edilən güc meyarı həddindən artıq olan radioötürücülərin xüsusi icazə olmadan əldə edilməsi və idxalının qadağan edilməsinin hüquqi əsasının müəyyən edilməsi məqsədilə hazırlanıb.

Vurğulanıb ki, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) isə "Telekommunikasiya haqqında" qanuna uyğun olaraq terminlərin dəqiqləşdirilməsini nəzərdə tutur.

Komitə üzvləri Məzahir Əfəndiyev, Vahid Əhmədov, Məşhur Məmmədov, Elnur Allahverdiyev bir sıra məqamlarla bağlı suallarını səsləndiriblər.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov, Dövlət Radiotezliklər İdarəsinin rəis müavini, rəis vəzifəsini icra edən İlham Əsədov, idarənin hüquq şöbəsinin müdiri Musa Rəsulov qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Sonra komitə sədri Tahir Mirkişili sonuncu məsələ - Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, bu qanun layihəsi "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 13 may tarixli 536-VIQD nömrəli Qanunun tətbiqi və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanunun tətbiq edilməsi barədə" Azərbaycan Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Prezidentin 2022-ci il 8 iyun tarixli 1711 nömrəli Fərmanının icrası məqsədilə hazırlanıb.

Əmək Məcəlləsinin 118-ci maddəsinin 1-ci hissəsinin "ç" bəndi və 2-ci hissəsinin "c" bəndinin, həmçinin Vergi Məcəlləsinin 102.6.2-ci və 102.6.3-cü maddələrinin ümumi təhsil müəssisələrinin hazırda mövcud olan növlərinə uyğunlaşdırılması aparılıb.

İclasın sonunda gündəliyə daxil edilən 9 məsələnin hamısı Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində olub











**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyəti ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, ötən ilin oktyabr ayında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə açılışı olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ölkəmizdə əlilliyi olan şəxslərin və şəhid ailələri üzvlərinin, digər həssas qrupların sosial dəstəklə təmin olunması, onların sosial inteqrasiyası sahəsində aparılan fəal dövlət siyasətinin növbəti təzahürüdür.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan mərkəz Cənubi Qafqazda ilk dəfə olaraq kifayət qədər çoxşaxəli fəaliyyət sahələrini əhatə edən ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanıdır. Mərkəz 121 nəfərlik auditorium, müxtəlif peşə-yaradıcılıq otaq və studiyaları, kitabxana, inzibati otaqlar, yeməkxanadan və s. ibarətdir. Hazırda mərkəzdə 266 nəfər benefisiar təlim alır. Onlardan 60 faizə qədəri əlilliyi olan şəxslərdir. Mərkəzdə 14 istiqamətdə (musiqi, kapoeyra, badminton, atçılıq, rəqs, təsviri incəsənət, dulusçuluq, floristika, bağçılıq və landşaft dizaynı, bədii oyma, dərzilik, modelyer sənəti, xalçaçılıq, səhnə, kulinariya, fotoqrafiya və s.) təlimlər təşkil olunur. Ötən bir ildə mərkəzdə 20-dən çox tədbir, forum, sərgi-satış yarmarkası, konsert proqramı təşkil edilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərkəzdə benefisiarların istedad və qabiliyyətlərinin inkişaf etdirilməsi üçün aparılan işlərlə, benefisiarların əl işlərindən ibarət sərgi və təlim prosesi ilə tanış olub, A.P.Çexovun eyniadlı pyesi əsasında mərkəzdə hazırlanmış "Təklif" tamaşasına baxıb.

Tamaşada kübar görünməyə çalışan cəmiyyətin problemləri əksini tapır. Vodevil (zarafat) janrında olan və 23 nəfər yaradıcı heyətdən ibarət tamaşanın 7 əsas rol ifaçısından 5-i müxtəlif kateqoriyalı əlilliyi olan şəxslərdir.

# "Azərbaycanda Olimpiya Hərəkatı" fotomüsabiqəsi iştirakçılarının sərgisinin açılış mərasimi keçirilib

**Noyabrın 10-da Bakı Fotoqrafiya Evində "Azərbaycanda Olimpiya Hərəkatı" fotomüsabiqəsinin iştirakçılarının sərgisinin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycanda Olimpiya Hərəkatı" mövzusunda keçirilən fotomüsabiqə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi (MOK) və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə MOK-un 30 illik yubileyinə həsr olunub.












Fotomüsabiqənin iştirakçılarının sərgisində MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, baş katib Azər Əliyev, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə, olimpiya çempionları, tanınmış mədəniyyət və incəsənət xadimləri, idman mütəxəssisləri və digər qonaqlar iştirak ediblər.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxışında bildirib ki, bu il 30 illiyini qeyd edən MOK idmanın və Olimpiya Hərəkatının, olimpizmin, olimpiya ideallarının inkişafı və təbliği istiqamətində özünəməxsus dəst-xətti ilə dünya idmanında yeni səhifə açmağı bacarıb. Otuzillik tarixə nəzər saldıqda görürük ki, qarşıda Azərbaycan Milli Olimpiya Komitəsini, olimpiyaçılarımızı zəfər və qürur dolu illər gözləyir.

Müsabiqənin şərtlərini xatırladan Çingiz Hüseynzadə deyib ki, MOK-un 30 illik yubileyinə həsr olunmuş fotomüsabiqəyə bu ilin avqustun 15-də start verilib. Azərbaycanın 20 peşəkar fotoqrafı müsabiqənin əsasnaməsinə uyğun olaraq ona qədər foto işi göndəriblər. Münsiflər heyəti 187 foto arasından ən yaxşılarını seçib.

Münsiflər heyətinin üzvü, Azərbaycan Fotoqraflar Birliyinin sədri Rauf Umudov qeyd edib ki, 12 nəfərdən ibarət münsiflər heyəti foto işlərə onlayn qaydada baxış keçirib, seçdikləri fotolar haqqında rəylərini xüsusi bülletenlər vasitəsi ilə MOK-a təqdim ediblər.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə çıxışında Milli Olimpiya Komitəsini 30 illiyi münasibətilə təbrik edib və müsabiqə iştirakçılarına uğurlar arzulayıb.

Daha sonra müsabiqədə ilk üç yeri tutmuş fotoqraflar təltif olunublar.

Müsabiqənin şərtlərinə uyğun olaraq 3 fotoqraf üçüncü yerə layiq görülüb.

Fotoqraflar İslam Atakişiyev, Bəhruz Qurbanlı və Azər Əlizadəyə MOK-un 3-cü dərəcəli diplomu və pul mükafatı təqdim edilib.

"Azərbaycanda Olimpiya Hərəkatı" mövzusunda keçirilən fotomüsabiqədə birinci yerə fotoqraf Dilavər Nəcəfov, ikinci yerə isə Yaqub Cəfərov və İlqar Cəfərov layiq görülüblər.

Sonda qaliblər MOK-un pul mükafatı və 1-ci dərəcəli diplomu ilə mükafatlandırılıblar.

# REGİONLAR

## Ağdamda Zəfər təntənəsi

**Ağdam Muğam Mərkəzində Zəfər Gününə həsr olunmuş bayram tədbiri keçirilib.**

Tədbirdə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, YAP rayon təşkilatının sədri Mansur Quliyev, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər, veteranlar, ictimaiyyət nümayəndələri və media mənsubları iştirak etmişlər.

Emin Hüseynov və Vaqif Həsənov çıxış edərək tədbir iştirakçılarına təbriklərini çatdırmış, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun tarixi Zəfərlə nəticələnən qələbəsindən, ərazi bütövlüyümüzün bərpasından, azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və quruculuq işlərindən, infrastruktur layihələrindən, şəhid ailələrinə, qazilərə və müharibə iştirakçılarına göstərilən qayğıkeşlikdən danışmışlar.

Çıxışlardan sonra tədbirin bədii hissəsi başlamışdır. Əməkdar artistlər Firuz Səxavətin, Səbuhi İbayevin, Elnur Zeynalovun və Ağdam



Musiqi Kollecinin "Qarabağ" instrumental ansamblının təqdimatında xalq və bəstəkar mahnılarından ibarət musiqi nömrələri və kompozisiyalar səslənmişdir.

Tədbirin əvvəlində Dövlət himni səsləndirilmiş, şəhidlərin və Ulu Öndər Heydər Əliyevin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir. Sonra 44 günlük Vətən müharibəsindən bəhs edən videoçarx nümayiş olunmuşdur.

Heydər Əliyev Mərkəzinin qarşısında atəşfəşanlıq olmuşdur.

## Gəncədə "Zəfərin mübarək, Azərbaycan!" adlı möhtəşəm konsert olmuşdur

**Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş "Zəfərin mübarək, Azərbaycan!" adlı möhtəşəm konsert keçirilib. Konsert proqramı Heydər Əliyev Park-Kompleksində "Zəfər Tağı"nın önündə keçirilmişdir.**





Əvvəl tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmişlər. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Konsert proqramı başlamazdan öncə Zəfər tariximiz haqqında tədbir iştirakçılarına məlumat verilərək qeyd olunmuşdur ki, 2020-ci il noyabrın 8-də ordumuz tarixi qələbəyə imza ataraq şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə, digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını alaraq işğalçı Ermənistana layiq olduğu yeri göstərmişdir. Bu qələbəni bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı olmuşdur.

Sonra tamaşaçılara Gəncə Dövlət Filarmoniyasının solistləri - Xalq artisti Şahnaz Haşımovanın, Əməkdar artist Kəmalə Tağızadənin, solistlər Rövşən Məmmədovun, Əli Məmmədovun, İlham Qasımovun, baletmeyster Sənan Cavadovun rəhbərliyi ilə "Xəmsə" rəqs ansamblının və "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının bir-birindən maraqlı ifaları və rəqsləri təqdim edilmişdir. Ardınca Xalq artisti Fidan Hacıyeva, tanınmış müğənnilər Çinarə Məlikzadə, Azəri qızı Günel, Tunar Rəhmanoğlu çıxış etmişlər.

Konsert proqramı zamanı səhnədə quraşdırılmış böyük monitorda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Zəfərlə bağlı videoçarx nümayiş olunmuş, havaya üzərində işğaldan azad edilmiş ərazilərimizin adları əks olunan şarlar buraxılmışdır.

Konsert proqramı möhtəşəm atəşfəşanlıqla başa çatmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Zəfər qürurumuz, bayraq ucalığımızdır

**Mingəçevirdə 9 Noyabr - Bayraq Günü münasibətilə təntənəli tədbir keçirilib. Heydər Əliyev meydanında keçirilən tədbirdə şəhər rəhbərliyi, hüquq-mühafizə orqanları və ictimaiyyət nümayəndələri, mətbuat işçiləri iştirak ediblər.**

Meydana düzülmüş bayraqların ətrafında səliqə ilə toplanan Uşaq Gənclər İnkişaf Mərkəzinin müəllim və şagirdləri ifaları ilə tədbirə əlavə rəng qatıblar. Mərasimdə üçrəngli bayrağımıza həsr olunmuş şeirlər söylənib, mahnılar və rəqslər ifa olunub. Sonra 15 metr uzunluğunda, 7,5 metr enində dövlət bayrağımız alqış sədaları altında meydana gətirilib.

Həm Zəfər bayramı, həm də Bayraq Günü xalqımızın qürur tarixləridir. Bu tarixlərin qeyd olunması xalqımızın əhvali-ruhiyyəsinə, milli qürur hissinə əlavə rəng qatır. Çünki uzun illər



yurdumuzun pozulmuş ərazi bütövlüyünün Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuz tərəfindən bərpa edilməsi Azərbaycanın dünya ölkələri sırasında nüfuzunun yüksəlməsinə səbəb olmuşdur.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Goranboylular Zəfər Gününü təntənə ilə qeyd etmişlər

**8 Noyabr - Zəfər Günü ilə əlaqədar keçirilən tədbir Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsinin ziyarəti ilə başlamışdır.**

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.

Tədbiri giriş sözü ilə Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev açmışdır. Qeyd olunmuşdur ki, 2020-ci il sentyabrın 27-dən başlayan və böyük Zəfərlə yekunlaşan Vətən müharibəsi tariximizin ən parlaq səhifəsidir. Bu şanlı tarixin haqq və ədalətin təntənəsi olduğunu qeyd edən icra başçısı möhtəşəm Qələbə müjdəsini xalqımıza yaşatdığı üçün Müzəffər Ali Baş Komandan İlham Əliyevə və rəşadətli Azərbaycan Ordusuna rayon sakinləri adından dərin minnətdarlığını bildirmişdir.

Sonra tədbir iştirakçılarına rayon mədəniyyət evinin incəsənət ustalarının və məktəblilərin ifasında ədəbi-bədii kompozisiya, idmançıların nümunəvi çıxışları və gənc rəssamların əl işlərindən ibarət rəsm sərgisi təqdim olunmuşdur.

***"Azərbaycan"***

## Çörəklə sınağa çəkilməmək üçün...

### səpinin vaxtında və keyfiyyətlə aparılması mühüm şərtdir



**Taxıl əkib-becərmək insanların ən qədim məşğuliyyət növlərindən biridir. Rəncbər ilk vaxtlar toxumu xışla şumladığı torpağa əllə səpib, yağış-qarla suvarılan məhsul yetişib hasilə gələndə isə onu oraqla biçib, primitiv yolla döyüb ailəsinə ruzi edib.**

Zaman keçdikcə, dövran dəyişdikcə hər sahədə olduğu kimi, taxılın əkilib-becərilməsində, biçilməsində də dəyişikliklər baş verib. Yer şumlayan, taxıl əkən, onun biçilməsində, suvarılmasında, yığılmasında istifadə olunan texnikalar meydana çıxıb. Sonralar onlar da təkmilləşib. Bütün bunlar insan əməyini yüngülləşdirib, məhsuldarlığı artırıb.

Əkinçilik inkişaf etdikcə kəndli əkdiyi toxuma da ciddi yanaşmağa başlayıb. Daha keyfiyyətli, məhsuldar toxumlar axtarıb. Bu sahədə də elm, texnologiya kəndlinin köməyinə gəlib, təhsilli aqronomlar, mühəndislər əkinçilərin ən yaxın dostlarına çevriliblər.

Bütün bunlar illərin enişli-yoxuşlu, acılı-şirinli yollarında yaranmışdır. Nənəm deyərdi ki, çörək əvəzsiz nemətdir. Hər cür yeməkdən bezmək, çiyrinmək olar, təkcə çörəkdən başqa. Bir də sovet hakimiyyəti qurulmazdan qabaq Arazın o tayından Pişan adlı quldurun gəlib kənd-kəsəklərə soxulduğunu, camaatın arpa-buğdasını, mal-qarasını çalıb-çapıb apardığını ürək ağrısı ilə danışardı. Uşaq hafizəmdə dərin iz salan bu hadisələr sonralar yazdığım "Nənəmin xatirələri" şeirimdə öz əksini tapmışdı:

*Nənəm danışdıqca mənsə düşünüb*
*Deyirəm: "Nə gözəl zəmanəmiz var".*
*- Ay oğul, soyardı o Pişan bizi,*
*Nə çörək qalardı, nə də ki, paltar.*

*Əlində tatarı, belində nağan,*
*Pişan kəndə girdi, haray qopardı.*
*El-oba batardı tapdağı altda,*
*Atını belədən-belə çapardı.*

*Gəlib talardı o, nəyimiz vardı,*
*Həddimiz olmazdı bir söz deməyə.*
*Arpanı, buğdanı ata çatardı,*
*Biz möhtac qalardıq tərə yeməyə.*

*Nənəmin xatirə düyünçəsində*
*İllər bir-birindən xəbərsiz yatır.*
*Nənəm oyatdıqca onları bir-bir*
*Alnı qırışlanır, qaşını çatır.*

*Xatirə küləyi qopubdur yenə,*
*Qırışlar dəniztək ləpələnibdir.*
*İllərin kədəri, ahı, amanı*
*Üzünə, gözünə səpələnibdir...*

İndi payızın son ayıdır. Kənd təsərrüfatının bir çox sahələri üzrə məhsul yığımı başa çatmışdır. Fermerlər, torpaq mülkiyyətçiləri, sahibkarlar yetişdirdikləri məhsullardan satacaqlarını satır, pay verəcəklərini verir, bir hissəsini də öz ehtiyacları üçün ayırırlar. Pambıq tarlalarında, meyvə bağlarında isə qızğın iş gedir. Düzdür, son vaxtlar yağışlı-çiskinli, küləkli havaların müşahidə olunması kəndlinin işini müəyyən qədər ləngidir. Lakin eyni zamanda ağacların, bitkilərin üstünə qonmuş uzun ayların toz-torpağı yuyulub gedir, hava təzələnir, ətraf mühit təmizlənir və heyvan-qara üçün hava-su kimi lazımlı yaşıl yemin əsası qoyulur, yəni otlar cücərir.

Seçmə yol ilə artıq taxıl səpininə başlanılmışdır. Ona görə seçmə yol ilə deyirik ki, hələlik pambıq sahələrində yığım tam yekunlaşmayıb. Pambığın əvvəlki illərlə müqayisədə gec açmasının səbəbi isə bu il yazda havaların dəyişkən, nisbətən soyuq keçməsi, vegetasiya dövrünün gecikməsi ilə bağlıdır. Amma bunlar kəndlini ruhdan salmır, o, hava şəraiti əl verən kimi sahələrə çıxıb məhsulunu yığır. ABŞ-dan alınıb gətirilmiş pambıqyığan maşınlar bu işdə fermerlərin köməyinə çatır. Onlar pambığı tez yığıb-yığışdırmaq istəyirlər ki, şumlayıb yerinə taxıl əksinlər. Payız havasına bel bağlamaq olmaz. Taxılın vaxtında əkilməsinin faydasını da kəndli çox yaxşı bilir. Nahaq yerə deməyiblər ki, "öküzün üstündə qalanla torpağa düşən toxum arasında fərq var". Buna optimal müddət də deyilir. Əkinçi həm də növbəli əkinə can atır, bilir ki, növbəli əkini tətbiq edərsə, bitkilər xəstəliklərə qarşı davamlı olmaqla bərabər, yüksək məhsul verəcək. Buna görə bu il pambıq əkdiyi yerə növbəti il taxıl, yonca və başqa bitkilər əkir.

Artıq 10-cu aydır ki, Rusiya ilə Ukrayna arasında müharibə gedir və onun nə vaxt başa çatacağı bəlli deyil. Pis olanı həm də odur ki, Azərbaycan həmin ölkələrdən taxıl idxal edirdi. İndi vəziyyət dəyişib və ona görə də ölkəmizdə gələn il yarana biləcək çətinliklərin qarşısını almaq üçün tədbirlər görülür. Nəticəsi cari mövsümün nəticələrindən görünür. Məsələn, Salyan rayonunda Qulu Novruzov, Qurban Abasov, Arif Cəlilov kimi əkinçilər hər hektardan 45-50 sentner taxıl götürmüşlər. Rayon üzrə keçən ilin payızında əkilmiş 6 min 247 hektar buğda sahəsinin hektarından 37, 10 min 620 hektar arpa sahəsinin hektarından 29,2 sentner məhsul götürülmüşdür. Sahibkarlar deyirlər ki, normal su təchizatı olsaydı, daha çox məhsul əldə etmək mümkün idi.

Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Tarıyel Atamalıyevdən aldığımız məlumata görə, bu payız rayonda 15 min hektarda taxıl əkilməsi nəzərdə tutulub. Bunun 6 min 700 hektarı buğda, 8 min 30 hektarı arpa olacaq. İndiyədək 2 min hektara yaxın sahədə əkin aparılıb. Səpini mütəşəkkil keçirmək üçün kifayət qədər yüksək reproduksiyalı toxum, ammofos gübrəsi tədarük edilmişdir. Əkində iştirak edən 118 şum traktoru, 120 kotan, 60 toxumsəpən aqreqat, 40 şum altına gübrəsəpən, səpindən sonra suvarma işini təkmilləşdirən 50 kanalaçan, digər texnika və avadanlıqlar saz hala gətirilmişdir. Səpin zamanı aqrotexniki qaydalara əməl olunması məqsədilə fermerlərin, mütəxəssislərin, mexanizatorların birgə seminar-müşavirəsi keçirilmişdir.

Payız işindən qalmır, havalar soyuyur, günlər qısalır. Hər bir fermer, torpaq mülkiyyətçisi bir işini başa çatdırmamış digərinin qayğısı ilə yaşayır. Bu qayğının adı bir-biri ilə vəhdət təşkil edən zəhmət, torpaq və bol məhsuldur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Samux fermerləri cari mövsüm zəmilərdən 43,6 min tondan çox taxıl biçiblər

Regional inkişaf proqramlarının icrası bölgələrimizin inkişafını təmin etməklə yanaşı, əhalinin güzəranını da yaxşılaşdırır. Bunu Samux rayonunun timsalında aydın görmək mümkündür.

Son illər rayon iqtisadiyyatının inkişafı istiqamətində həyata keçirilən tədbirlər sayəsində qazanılan sosial uğurlar samuxluların dolanışığında özünü göstərir.

Statistikaya nəzər salaq: 9 ay ərzində rayonda istehsal edilən kənd təsərrüfatı məhsullarının dəyəri 95 milyon 896,5 min manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 27,1 faiz çoxdur. Samux əkinçilərinin gərgin əməyi sayəsində 10859,9 hektardan 43462 ton taxıl biçilmişdir. Hər hektardan məhsuldarlıq orta hesabla 40 sentner olmuşdur ki, bu da keçənilki göstəricidən çoxdur. Kənd təsərrüfatının digər sahələrində də uğurlar var. Belə ki, ilin əvvəlindən ötən dövr ərzində rayon üzrə 13674,7 ton tərəvəz, 1063,5 ton qarğıdalı, 5176,3 ton günəbaxan, 3177,1 ton bostan məhsulu, 64,8 ton paxlalı bitkilər, 1927,6 ton kartof, 64082 ton ot, 22045,4 ton küləş istehsal edilmişdir. Meyvə istehsalı da əvvəlki ilə nisbətən artmışdır. Cari mövsüm bağlardan 7603,6 ton meyvə və giləmeyvə, 6748,4 ton üzüm yığılmışdır. Yığım isə davam edir.



Samuxda təsərrüfatı yaxşı bilən və hər il məhsul istehsalında fərqlənən fermer, torpaq mülkiyyətçisi çoxdur. Onlardan biri də Surxay Kərimovdur. Fermer 15 ildir ki, bitkiçilik təsərrüfatına başçılıq edir. 20 hektarda taxıl, 10 hektarda günəbaxan əkən fermer hər hektardan 65 sentner olmaqla 130 ton taxıl, 29,5 sentner olmaqla 30 tona yaxın günəbaxan yığmışdır.

Fermer Azad Kərimov isə heyvandarlıqla məşğuldur. 26 il bu sahədə çalışan A.Kərimovun təsərrüfatında 185 baş cins mal-qara, 100 baş cins ana inək var. 9 ayda hər inəkdən 7015 kiloqram olmaqla fiziki çəkidə 701,5 ton süd istehsal edilmişdir.

Rayon sakinləri Razi Abdullayev, Elnur Sadıqov və Bəxtiyar Bağırov əsasən intensiv meyvəçiliklə məşğuldurlar. Bağların salınmasından az vaxt keçməsinə baxmayaraq uğurları var. Məsələn, fermer Razi Abdullayev 15 hektarda intensiv meyvə bağı, 1 hektarda isə istixana salmışdır. Meyvə bağından 315 ton, istixanadan isə 140 ton məhsul götürmüşdür. Elnur Sadıqov isə 12 hektar intensiv meyvə bağının hər hektarından 18 ton olmaqla 144 ton məhsul tədarük etmişdir. Hazırda bağlarda meyvə yığımı davam edir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Fransız irqçilərinin tanış izləri

## Əlcəzairin "ölü şəhər"indən Azərbaycanın "ruhlar şəhəri"nə uzanan yol

Yəqin ki, hamı İkinci Dünya müharibəsindən sonra bəşəriyyətə qarşı törətdikləri cinayətlərə görə Vermaxtın generallarının müttəhimlər kürsüsünə gətirilməsinin foto və videomateriallarını yaxşı xatırlayır. Sivil dünya faşist canilərini mühakimə etmək üçün bütün vacib addımları atmışdı. Bu prosesin önündə isə alman xalqının özü idi.







Amma kədərlisi odur ki, erməni və fransız faşizmini müqayisə edərək kimin daha qəddar olduğunu təyin etməyə məcburuq. Halbuki nə erməni, nə də fransız nasistləri üçün Nürnberq prosesi kimi 217 gün davam edən tribunal quruldu. Erməni və fransız hərbi cinayətkarları bütün dünyaya qarşı təcavüzkarlıqda, sülhə və insaniyyətə qarşı cinayətlərdə alman nasistləri kimi ittiham edilmədilər. Biz ittiham etsək də, erməni və fransız nasistləri hələ də həyasızcasına dünyaya demokratiyadan dərs keçirlər. Nə qədər ki, qatillər və canilər özlərini aydan arı, sudan duru biləcəklər, bu belə də davam edəcək.

Bu mövzuya müraciət edən azsaylı liderlərdən biri İlham Əliyevdir. Azərbaycan Prezidenti həmin məsələni Moskvadan, Səmərqənddən, ya da hər hansı başqa dövlətin paytaxtından səsləndirə bilərdi. Amma siyasi və diplomatik döyüşlərdə püxtələşmiş liderimiz bu barədə danışmaq üçün səbirlə gözlədi və səsini Əlcəzairdən qaldırdı. Ali Baş Komandanımız döyüşkən və mətin bir ruhla məhz Əlcəzairin paytaxtından bu mövzuya müraciət etməklə bir daha Fransaya qanlı və riyakar keçmişini xatırlatdı, sülhün və əmin-amanlığın müdafiəçisi olduğunu bəyan etdi.

Kiməsə elə gələ bilər ki, Azərbaycan Prezidenti çıxışında çox uzaq keçmişə səfər edərək, artıq mənasını və dəyərini itirmiş faktlara, unudulmuş tarixə qayıtmışdır. Lakin Əlcəzairdə 132 illik Fransa işğalı ərzində 10 milyon insanın qətlə yetirilməsi uzaq tarix olsa da, üstündən keçiləsi fakt, daha doğrusu, faciə deyil. Bir də ki 1830-cu ildə başlayan həmin işğal yaxın keçmişdə - 1962-ci ildə bitib. Maraqlı sual doğur: necə olur ki, aradan 100 ildən artıq bir vaxt keçməsinə baxmayaraq, bir sıra dövlətlər uydurma erməni soyqırımını tanıyır, məsələnin açıq müzakirəsinə, arxivlərin açılmasına getmədən Türkiyəni qınağa çəkir, ittiham edirlər, amma 1962-ci ilədək Fransanın Əlcəzairdə törətdikləri danılmaz qətliamları və soyqırımlarına israrla göz yumurlar?!

İkinci Dünya müharibəsi illərində alman nasistlərinin bəşəriyyətə və insanlığa qarşı törətdikləri amansız cinayətlər məlumdur. Arxivlər açılıb, canilər mühakimə olunublar. Lakin nədənsə uzun müddət xüsusi qəddarlıqla əlcəzairlilərə divan tutan fransız faşıstlərinin başı sığallanıb. Müstəmləkəçi qatillərin cinayətlərinin tozunu çırpıb, həqiqəti bütün çılpaqlığı ilə ortaya qoyan tapılmayıb. Bu azmış kimi, Fransa liderləri fürsət düşən kimi keçmişini unudaraq dünyaya barmaq silkələyir, demokratiya dərsi vermək eşqinə düşürlər. Yeri gəlmişkən, Əlcəzair Prezidentinin müşaviri Əbdülməcid Şeyx 2020-ci ildə Fransanın müstəmləkəçilik dövrünün arxivlərinin Əlcəzairə qaytarılmasına maneələr yaratdığını bildirib. Onun sözlərinə görə, Fransanın törətdiyi qırğından sonra öldürülən əlcəzairlilərin sümüklərinin çoxu sabun istehsalı və şəkər süzülməsində istifadə üçün Marselə daşınıb.

Qeyd edək ki, bu hadisələrə həmişə fərqli yanaşmalar olub. Hətta məşhur fransız yazıçısı Viktor Hüqo fransız faşistlərini alqışlayıb ki, Əlcəzair müsəlmanları ilə məhz belə səviyyədə - "güc dili ilə danışmaq lazımdır!"

Fransızlar ilk dəfə 1830-cu ildə Əlcəzairə soxulanda yerli əhaliyə and içmişdilər ki, ərəblərin dostu kimi şəhərə girəcəklər, hakimiyyət də onların əlində qalacaq və ölkənin müstəqilliyinə toxunulmayacaq. Amma şəhərə daxil olan müstəmləkəçilər alman nasistlərinin Şərqi Avropada törətdiklərindən daha qanlı cinayətlərə əl atdılar. Fransa 1830-cu ildən 1962-ci ilə qədər - müstəmləkə hakimiyyətinin bütün dövründə Əlcəzairdə təxminən 10 milyon dinc sakini qətlə yetirdi. Müstəmləkəçilər öz aralarında daha çox qulaq və ya əl-ayaq kəsib mükafat almaq üçün yarışırdılar. Əlcəzairlilər fransızları böyük qardaş hesab etsələr də, müstəmləkəçilər onları özlərinin kiçik qardaşları yox, "qaraayaqlılar" sayırdılar və adam yerinə qoymurdular.

Fransanın xüsusi xidmət orqanları Əlcəzairdən Parisə raportlarında bütün məscidləri dağıtdıqlarını, əhalinin əmlaklarını müsadirə və nüfuzlu əlcəzairliləri məhkəmələrə çəkib məhv etdiklərini yazırdılar. Müstəmləkəçilər Parisdəki komandanlığına məruzə edirdilər ki, kişiləri qırırlar, qadın və uşaqları isə gəmilərlə Polineziya adalarına daşıyırlar. Fransız zabitləri etiraf edirdilər ki, narazılar, itaət etməyənlər yerindəcə öldürülür. Yalnız bir qırğında ölənlərin sayı 1300 nəfərə çatmışdı, yaralı isə yox idi. 1830-cu il oktyabrın 26-da fransız əsgərləri Blida adlı Əlcəzair şəhərini uşağa, qoca və qadına - heç kimə mərhəmət göstərmədən bir neçə saatın içində qəbiristanlığa çevirmişdilər. "Ölü şəhər"in küçələri meyitlərlə örtülmüşdü və onları sayıb qurtarmaq mümkün deyildi. 1843-cü ildə Skikda şəhəri bölgəsində fransız qoşunlarına başçılıq edən mayor Montanyak ərəbin başının kəsilməsi üçün yalnız onun 15 yaşına çatmasını əsas amil kimi göstərirdi: "Ayağımızın altında it kimi sürünməyə razı olmayan hər kəsi öldürməliyik". Fransız generalı Kavainyak 1844-cü ildə bütün Bəni Sabih qəbiləsinin necə məhv etdiyini belə təsvir etmişdi: "Əsgərlərimiz Bəni Sabih qəbiləsinin üzvlərini qovub doldurduğu mağaranın girişinə odun yığıb qalaqladılar. Oradan kimsə çıxmasın deyə ətrafa atəş nöqtələri düzdük və odunları yandırdıq. Sağ qalanları isə bir il ərzində yığaraq başqa bir mağaraya toplayıb bütün girişləri hördük".

Fransız yazıçısı Simona de Povuardan kiçik bir sitat gətirək: "1954-cü ildən biz fransızlar soyqırımın ortağı olmuşuq. Sülh yaratmaq bəhanəsi ilə silahlı basqınlar zamanı Əlcəzair əhalisinin bir milyondan çoxunu qətlə yetirdik. Biz bütöv kəndləri sakinləri ilə birlikdə yandırdıq, əhalini qırdıq, hətta doğulmamış uşaqları belə ana bətnindən çıxarıb işgəncə ilə öldürdük. Bütün qəbilələr soyuqdan və aclıqdan əziyyət çəkdi, konsentrasiya düşərgələrində epidemiyalardan öldülər. Bu düşərgələrdə yarım milyona yaxın əlcəzairli həlak oldu".

Amma bu da hələ hamısı deyil. Fransız müstəmləkəçiləri yerli əhalini tüfənglərin qundağı ilə döyür, üstlərinə itləri qısqırdıb adamları parçaladır və itlərə yedizdirirdilər. Ələ keçirdikləri adamların bədənlərinin ən həssas yerlərinə elektrik cərəyanı qoşur, şüşə çiliklərinin üzərinə otuzdurur, qarınlarını şişənədək su ilə doldurub üstlərində tullanıb düşürdülər. Dırnaqlarını qopardır, kipriklərini yandırır, alınlarının dərilərini soyur, bir ayağını ağaca, digərini maşına bağlayıb insanları şaqqalayırdılar. Ələ keçirilən müsəlmanları məcbur edirdilər ki, özlərinə qəbir qazsınlar. Sonra onları diri-diri torpaq boğazlarına çıxanadək basdırırdlar ki, susuzluqdan yanaraq əzabla ölsünlər. At yerinə arabaya qoşur, dilləri ilə küçə süpürtdürürdülər. Elə dəhşətli cəzalar da tətbiq olunurdu ki, onlar haqqında danışmağa heç vaxt heç bir əlcəzairlinin dili gəlməyəcək! Çünki bu cinayətləri etiraf etməyə əxlaqları yol vermir. Əvəzində əhalinin işgəncələrlə məhv edilməsi sənətini öyrətmək üçün fransızlar 1958-ci ilin mayında xüsusi məktəb təsis etmişdilər.

Həmin illərə aid faktlardan yenə bir neçəsi ilə tanış olaq: Əlcəzair müharibəsi illərində hər 10 ərəb qadın məhbusdan 9-u zorakılığa məruz qalmışdı. Kütləvi zorlamalar fransız qoşunlarının, xüsusən də kənd yerlərindəki əsgərlərin gündəlik əyləncəsi idi. Əsgərlərə heç kim etiraz etməyə belə cürət edə bilməzdi. Əməliyyat zamanı ələ keçirilən qadınlar əsgərlərin qəniməti sayılırdı. Etiraz etmək istəyənləri hətta Əlcəzair Milli Azadlıq Cəbhəsini dəstəkləməkdə ittiham edə bilərdilər!

İşgəncələrin sayı-hesabı yox idi: ağır yük daşımaq, at yerinə vaqonlara qoşulmaq, samanı havaya tullamaq və yığmaq, 10 saat evin ətrafında qaçmaq, divar çəkmək və dağıtmaq gündəlik işgəncələrə aid idi. Qadınlara işgəncə verən əsgərlərdən birinin xatirələrinə fikir verin: "Nə etdiyimizi bilirdik, nəsə səhv idi, amma bilmirdik ki, biz qadınları ruhən öldürürük. Məsələni dövrün kontekstində nəzərdən keçirməlisiniz: biz 20 yaşında əlcəzairliləri qeyri-insani varlıqlar kimi qəbul edirdik, qadınlar isə daha aşağı kateqoriyaya düşürdülər, onlar bizim üçün itlərdən də betər idilər... İrqçilikdən əlavə, təcrid olunmaq, cansıxıcılıq, dəlilik, içki... "

Yerli əhali 132 illik işğal ərzində yüksək rəhbər vəzifələri tuta bilmədilər və həmişə ikinci dərəcəli insan olaraq qaldılar. Yalnız az adamlara vətəndaşlıq verilirdi. Onlara "sütun"lar deyirdilər. Fransadan köçürülən bu "sütun"lar münbit Əlcəzair torpaqlarının 40 faizinə sahib idilər. Onların maaşları da adi əlcazairlilərdən daha yüksək idi.

Soruşa bilərsiniz ki, doğrudanmı Fransa cəmiyyətində ötən 200 ildə bu vəhşiliklərə etiraz edənlər tapılmayıb? Doğrusu, belə nümunələr tapmaq mümkündür, amma fransız müstəmləkəçiliyini az qala İsa Məsihin 10 tövsiyəsindən biri kimi sayanlar da, müstəmləkəçilik siyasətinə haqq qazandıranlar da kifayət qədərdir.

Gəlin müxtəlif mövqeləri nəzərdən keçirək. 1987-ci ilin iyununda fransız müstəmləkə sisteminə qarşı çıxan fransalı vəkil Jak Ferqas Leon şəhərində gestaponun keçmiş rəhbəri, 73 yaşlı Klaus Barbieri müdafiə edərkən Fransa ədliyyəsinin nümayəndələrinə xatırlatmışdı ki, faşıst Almaniyasından başqa Fransa da əlcəzairlilərə işgəncə verməklə, onları məhv etməklə, öz vətənlərindən deportasiya etməklə, qətlə yetirməklə, bütöv kəndləri yandırmaqla məşğul olub. Bu cinayətlər Fransa tarixinin hələ ki etiraf olunmamış qara ləkələridir. Vaxt gələcək Əlcəzairdə baş verən vəhşiliklərin hesabını çəkmək üçün mütləq məhkəmə qurulacaq.

Bununla belə, irqçilik, nasizm və qatı millətçilik ideologiyasına müxtəlif dövrlərdə Fransanın siyasi xadimlərinin belə əyildiyi hallar kifayət qədərdir. Yəni Makron bu sırada tək deyil. Fransada bu gün də ərəblərə üçüncü növ adamlar kimi baxanlar var. Söz düşmüşkən, qeyd edək ki, Makronun bu il avqustun 25-də Əlcəzairə səfəri zamanı 12 fransız və əlcəzair tarixçisindən ibarət komissiyanın yaradılması elan edilmişdi. Komissiya ilkin mərhələdə hər iki ölkənin arxivlərinə daha geniş çıxışın təmin edilməsini nəzərdə tutur. Əslində isə, arxivlərin açılması məsələsi sonsuzluğadək uzana bilən hiylədir. Çünki imperiyalar zəif, müdafiəsiz xalqlara təzyiq göstərməkdən zövq alırlar.

Bəli, heç də düşünməyin ki, müstəmləkəçilik keçmişdə qalıb, tarixin arxivinə atılıb. Bu gün də Fransanın və digər keçmiş müstəmləkəçi dövlətlərin dünyada müxtəlif adlar və statuslar altında kifayət qədər müstəmləkələri mövcuddur. Yəni neokolonializm müxtəlif qiyafələrdə mövcuddur və keçmiş imperiyaların, müstəmləkəçilərin çörək ağacı sayılır. Onlar yenə də koloniyalarını əllərindən buraxmamaq üçün ölüm-dirim savaşına çıxmağa hazırdırlar. Bu baxımdan Makronun "həmlə"ləri də antik və genetik müstəmləkəçi ambisiyalarından doğan hikkələrdən başqa bir şey deyil.

Makronun kim olduğunu anlamaq üçün ona belə bir sual vermək lazımdır: "Necə olur ki, sən 20 min erməniyə özgə dövlətin ərazisində muxtariyyət tələb edirsən, amma qırdığın 10 milyonluq əlcəzairliyə qarşı törətdiyin qətliamları etiraf etməkdə acizsən. Bundan sonra sizin 30 il Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlamış Ermənistandan fərqiniz nədir ki?!"

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# ABŞ-də Nümayəndələr Palatasına nəzarəti respublikaçılar ələ keçirirlər

ABŞ-də Konqresə keçirilmiş aralıq seçkilərin nəticələrinə görə Nümayəndələr Palatası və senatorların üçdə biri, bir çox ştatlar səviyyəsində isə qubernatorlar və qanunvericilik məclisləri seçiləcək. Bəzi ştatlarda səslərin hesablanması davam edir.





Konqresdə Nümayəndələr Palatasına nəzarət etmək üçün 435 yerdən 218-ni tutmaq lazımdır. Hazırda respublikaçıların 222, demokratların isə 213 mandatı var.

Beləliklə, Nümayəndələr Palatasına aralıq seçkilərdə Respublikaçılar Partiyası liderlik edir. Senatda səsverməni nəticələrinə görə, respublikaçılar 49, demokratlar 48 yer qazanıblar.

### Rekord sayda seçici fəallığı qeydə alınıb

ABŞ Prezidenti Co Bayden bəyanat yayaraq administrasiyanın səsvermə prosesinə xarici müdaxilə ilə bağlı heç bir fakt aşkar etmədiyini bildirib. O, həmçinin vurğulayıb ki, ölkə üzrə rekord sayda seçici fəallığı qeydə alınıb, seçki komissiyalarının əməkdaşları öz üzərilərinə düşən vəzifəni vicdanla yerinə yetiriblər.

Bayden bildirib ki, ABŞ əhalisi cəmiyyətdəki mövcud vəziyyətlə bağlı narahatlığını ifadə edib. Xüsusilə ən ağrılı məsələlər təhlükəsizliyin gücləndirilməsi və cinayətkarlığın artmasıdır.

Amerika liderinin dediyinə görə, ölkə düzgün yoldadır və demokratların proqramı öz nəticələrini verir.

BBC telekanalı qeyd edib ki, ilkin nəticələrə əsasən, respublikaçıların nəticələrini kifayət qədər yaxşı hesab etmək olar, lakin bunu hələ də böyük uğur adlandırmaq olmaz. Bununla belə, ABŞ-nin keçmiş prezidenti Donald Tramp özünün "Truth Social" sosial şəbəkəsində aralıq seçkilərin nəticələrini böyük qələbə adlandırıb.

"Bu seçkilər müəyyən mənada məyusedici olsa da, mənim şəxsi nöqteyi-nəzərimdən çox böyük qələbə idi", - deyə Tramp yazıb.

### Corciyada Senata seçkilərin qalibi ikinci turda müəyyənləşəcək

Corciya ştatında ilk turda heç bir namizəd 50 faizdən çox səs toplaya bilməyib. Bu ştatda seçkilər ABŞ Senatında çoxluq uğrunda mübarizədə əsas rol oynaya bilər.

Corciyada seçkilərin ikinci turu dekabrın 6-na təyin edilib. Bu barədə ştatın dövlət katibi Bred Raffensperger bildirib.

İlk səsvermədə heç bir namizəd bu ştatda qalib gəlmək üçün lazım olan səslərin yarısından çoxunu ala bilməyib. Demokratların namizədi, hazırkı senator Rafael Uornok səslərin 49,4 faizini, onun respublikaçı rəqibi Herşel Uoker isə 48,5 faizini toplayıb.

Yüksək ehtimalla ikinci turun nəticələri ABŞ Konqresinin yuxarı palatası Senata nəzarəti kimin - demokratların və ya respublikaçıların ələ keçirəcəyini müəyyən edəcək.

Digər iki əsas ştatda - Arizona və Nevada da hələ ki səslər hesablanır. Arizona ştatında bülletenlərin 67 faizini hesabladıqdan sonra 51 faiz səslə demokrat Mark Kelli, Nevada ştatında bülletenlərin 77 faizini işlədikdən sonra respublikaçı Adam Laksal 50 faiz səslə qalib gəlirlər. Bu ştatlarda mövcud tendensiyalar davam edərsə, demokratların Senatda 100 yerdən 50-ni qazanıb-qazanmayacağını Corciyadakı seçkilərin nəticəsi müəyyən edəcək. Əgər onlar həmin səsləri əldə edə bilsələr, bu, səs çoxluğu üçün kifayət edəcək - çünki qanuna görə, hər iki partiyadan senatorların sayı bərabər olacağı təqdirdə ABŞ vitse-prezidentinin səsvermə hüququ var. Hazırda bu postu Demokratlar Partiyasının nümayəndəsi Kamala Harris tutur.

Eyni zamanda Respublikaçılar Partiyasının üzvlərinin ABŞ Konqresinin Nümayəndələr Palatasında çoxluq təşkil etmək, əksər ştat və ərazilərdə üstünlüyə nail olmaq ehtimalı var.

Qeyd edək ki, Konqresə aralıq seçkiləri kuryozsuz ötüşməyib. Belə ki, oktyabrda vəfat etmiş iki demokrat yenidən seçilib. Entoni DeLuka Pensilvaniya ştatını təmsil edib, o, oktyabrın 9-da dünyasını dəyişib və səslərin 85 faizini alıb. Tennessi ştatında isə oktyabrın 25-də vəfat etmiş demokrat Barbara Kuper yarışın qalibi olub.

Beləliklə, ABŞ Konqresində qüvvələrin sıralanması dekabrda məlum olacaq.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Ölkənin bəzi yerlərində intensiv yağış, yüksək dağlıq ərazilərdə isə qar yağacaq

Azərbaycanda noyabrın 11-nə gözlənilən hava proqnozu açıqlanıb.



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 9-11°, gündüz 12-15° isti, Bakıda gecə 9-11°, gündüz 12-14° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 772 millimetr civə sütunu, nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı, yüksək dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-9°, gündüz 12-16° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-7° isti olacağı bildirilir.






Azercell

## abunəçilərinin nəzərinə!

15.12.2022-ci il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) və fakturalı xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulmuş "Bookmate" xidməti ləğv ediləcək. Göstərilənlərə əsasən xidmətin ləğv ediləcəyi tarix nəzərə alınmaqla onun müvafiq növbəti aylıq, həftəlik və günlük yenilənmələrinə məhdudiyyət qoyulacaq.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com<http://www.azercell.com/>), həmçinin Müştəri Xidmətlərinə (MX və ya eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Əlilliyi olan istedadlı şəxslərin təbliğ olunması istiqamətində təşəbbüslərin həyata keçirilməsi", "Nitq qabiliyyəti məhdud olan insanların ünsiyyət imkanlarının asanlaşdırılması ilə bağlı innovativ təşəbbüslərin həyata keçirilməsi" və "Disleksiyadan əziyyət çəkən uşaqların qiymətləndirilməsi və öyrənmə imkanlarının genişləndirilməsi ilə bağlı innovativ təşəbbüslərin həyata keçirilməsi" adlı müsabiqələr keçirir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Əlilliyi olan istedadlı şəxslərin təbliğ olunması istiqamətində təşəbbüslərin həyata keçirilməsi", "Nitq qabiliyyəti məhdud olan insanların ünsiyyət imkanlarının asanlaşdırılması ilə bağlı innovativ təşəbbüslərin həyata keçirilməsi" və "Disleksiyadan əziyyət çəkən uşaqların qiymətləndirilməsi və öyrənmə imkanlarının genişləndirilməsi ilə bağlı innovativ təşəbbüslərin həyata keçirilməsi" adlı müsabiqələr keçirir.

Müsabiqələrdə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqələrin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" Biznes Mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqələrdə iştirak edən təşkilatların təklifləri 24 noyabr 2022-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqələr 25 noyabr 2022-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**
**Əlaqə telefonu: (012) 525-41-30 (daxili: 5037)**

***Müsabiqə komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün Yeni il şənliyinin təşkili" və "Şəhid ailələri və müharibə iştirakçıları üçün Yeni il şənliyinin təşkili" adlı müsabiqələr keçirir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün Yeni il şənliyinin təşkili" və "Şəhid ailələri və müharibə iştirakçıları üçün Yeni il şənliyinin təşkili" adlı müsabiqələr keçirir.

Müsabiqələrdə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqələrin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" Biznes Mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqələrdə iştirak edən təşkilatların təklifləri 24 noyabr 2022-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqələr 25 noyabr 2022-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**
**Əlaqə telefonu: (012) 525-41-30 (daxili: 5036)**

***Müsabiqə komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
### tabeliyində olan Xəzər Dəniz Neft Donanmasının Pirallahı sahəsi üçün tələb olunan dizel generatorunun satın alınması məqsədilə
### *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 noyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
### tabeliyində olan İstehsalat Xidmətləri İdarəsinin Xaçmaz rayonu İstisu qəsəbəsində yerləşən "Dənizçi" İM-nin ərazisində piyada yollarına asfalt-beton örtüyünün vurulması xidmətinin satın alınması məqsədilə
### *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 noyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

*Təkrar*

## Azərbaycan Respublikasının Mərkəzi Bankı
## açıq tender elan edir

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq əsas vəsaitlərin, nağd pulun və nəqliyyat vasitələrinin sığortasından ibarət olan birləşdirilmiş sığorta xidmətləri üzrə açıq tender keçirir.

Tender proseduru 12 dekabr 2022-ci il saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcək.

İddiaçı qismində Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada sığorta fəaliyyətinə lisenziyası olan, müvafiq sığorta növlərinin aparılması üzrə rəsmi razılıq almış, müvafiq icbari sığorta növləri üzrə İcbari Sığorta Bürosunun İştirakçısı Sığortaçılarının Reyestrinə daxil edilmiş sığorta şirkəti çıxış edə bilər.

Hesabat dövrünün sonuna iddiaçının məcmu kapitalı qanunvericiliyə müvafiq olaraq hesablanmış tələb olunan kapitalın məbləğindən az olmamalıdır.

Təkrarsığorta xarici təkrarsığorta şirkəti tərəfindən həyata keçirildikdə xarici təkrarsığorta şirkəti Mərkəzi Bankın müvafiq reyestrinə daxil edilmiş təkrarsığorta şirkəti olmalıdır (təkrarsığorta xarici sığorta brokeri vasitəsilə həyata keçirildikdə də).

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri, bank rekvizitləri;*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş xüsusi razılığın (lisenziyanın) və əmlakın, o cümlədən nağd pulun yanğından və digər risklərdən sığortalanmasına, nağd pulun daşınması üzrə risklərdən sığortalanmasına, habelə avtonəqliyyat vasitələrinin könüllü və avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasına dair verilmiş razılığın surəti;*
- *tenderin əsas şərtlər toplusunda müəyyən edilmiş reytinqə malik olan təkrarsığortaçılar tərəfindən riskin qəbul edilməsini təsdiq edən məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 27 yanvar 2023-cü il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını ən geci 09 dekabr 2022-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 01 dekabr 2022-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasında satınalmalar komissiyasının əlaqələndirici şəxsinə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaq.

İddiaçılar tenderdə iştirak etmək üçün Mərkəzi Bankın aşağıdakı hesabına 150 (bir yüz əlli) manat məbləğində iştirak haqqı köçürməlidirlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesabı: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK: NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Sığorta xidmətinin göstərilməsinə 01 yanvar 2023-cü il tarixdən başlanılır. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə xidmət göstərilməsinə 25 yanvar 2023-cü il tarixdən başlanılır.

Sığorta xidmətinin göstərilməsi müddəti: 1 (bir) il.

Qiymətləndirmə meyarları: qiymət, təklif olunan xidmətlər paketi üzrə sığorta şərtləri və şərtsiz azadolma məbləğləri.

Tenderdə iştirak etmək istəyən sığortaçılar iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi 90 ünvanında yerləşən inzibati binasında satınalmalar komissiyasının əlaqələndirici şəxsindən Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

Tender üzrə əlaqələndirici şəxslər:

Elvin Şirdanov (Hüquq departamenti). Telefon: 493-11-22 (428).

Akif Əskərov (İnzibati və satınalmalar departamenti). Telefon: 493-11-22 (484).

***Satınalmalar komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən şəhid və qazi ailələri üçün ərzaq yardımının təşkil edilməsi ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə satınalmalar komissiyasının 04 noyabr 2022-ci il tarixli qərarına əsasən, "Lego Construction Service" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Müharibə iştirakçıları üçün sosial psixoloji dəstək tədbirlərinin həyata keçirilməsi" və "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün motivasiya xarakterli maarifləndirmə tədbirlərinin təşkili" adlı müsabiqələr keçirir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Müharibə iştirakçıları üçün sosial psixoloji dəstək tədbirlərinin həyata keçirilməsi" və "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün motivasiya xarakterli maarifləndirmə tədbirlərinin təşkili" adlı müsabiqələr keçirir.

Müsabiqələrdə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqələrin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" Biznes Mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqələrdə iştirak edən təşkilatların təklifləri 24 noyabr 2022-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqələr 25 noyabr 2022-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**
**Əlaqə telefonu: (012) 525-41-30 (daxili: 5032)**

***Müsabiqə komissiyası***

## Pakistan Milli Bankının Azərbaycan Respublikasının Bakı şəhərində filialının ləğv edilməsi ilə bağlı kreditorlara
## B İ L D İ R İ Ş

Pakistan Milli Bankının Baş ofisinin Karaçi şəhərində yerləşən səlahiyyətli orqanı tərəfindən Pakistan Milli Bankının Azərbaycan Respublikasının Bakı şəhərində filialının könüllü ləğv edilməsi barədə müraciəti nəzərə alınmaqla, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 11 oktyabr 2022-ci il tarixli qərarı ilə Pakistan Milli Bankının Bakı filialına verilmiş 30 iyun 2005-ci il tarixli 248 nömrəli bank lisenziyası ləğv edilmişdir.

Pakistan Milli Bankının Bakı filialının kreditorlarından xahiş edilir ki, 40 (qırx) təqvim günü müddətində tələblərinin qeydə alınması üçün filialın yerləşdiyi AZ1025, Bakı şəhəri, 8 Noyabr prospekti, 9A ünvanına (iş günləri saat 10:00-dan 17:00-a kimi) müraciət etsinlər.

***Pakistan Milli Bankının Bakı filialının***
***ləğvedicisi Şeyx Ahtsham Ahmed***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin "54 №-li Yol İstismarı" MMC-nin direktoru Məzahir Səlimova qardaşı

**MƏDƏT MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə sabiq vergilər naziri

**FAZİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Tərtərdən Müstəqim Məmmədov Novruz və Kamran Novruzovlara əzizləri

**ARİF NOVRUZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6510
Sifariş 3208
Qiymət 40 qəpik